QARABAĞ AZƏRBAYCANDIR!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 020 (6220) 3 fevral 2021-ci il Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

# “Azərbaycanla Türkiyə arasında qardaşlıq və dostluq münasibətləri uğurla inkişaf edir”

*Prezident İlham Əliyev Türkiyənin Milliyyətçi Hərəkat Partiyasının sədr müavinini qəbul edib*

Bax 2



## Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan gənclərini təbrik edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Gənclər Günü münasibətilə rəsmi “Instagram” səhifəsində paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir: “Bu gün 2 Fevral - Azərbaycan Gəncləri Günüdür. Bu əlamətdar gün münasibətilə...

Bax 2

## Professor Metin Aksoy: “Bir millət, iki dövlət!” prinsipi romantizm deyil, həqiqətdir



Prussiya generalı Karl fon Klauzevits (1780-1831) məşhur “Müharibə haqqında” əsərində müharibəni zorakılığın köməyi ilə siyasətin davamı olaraq xarakterizə edib. Lakin onun vurğuladığı müharibə ümumi bir savaş deyil. Çünki o, sıx vəziyyətdə olan siyasi tənliyi açan məhdud, taktiki və nəticəyönümlü müharibənin...

Bax 5

## II Qarabağ müharibəsi qəhrəmanları - Tərlan və Sadəddin

Bax 10



Müsahiblərimiz ötən ilin 44 günlük II Qarabağ müharibəsində Şuşa və Suqovuşan rayonları istiqamətindəki döyüşlərdə iştirak edən, Şəki rayonunun Baş Zəyzid kəndinin yetirmələri, 23 yaşlı cəsur əsgərlər - Həsənov Tərlan Rafiq oğlu və Bayramov...

## Qarabağın bərpası necə həyata keçiriləcək?



Qarabağın azad edilməsi həmin bölgədə yenidənqurma və bərpa işlərini sürətləndirməyi tələb edir. Belə ki, hökumət mümkün qədər qısa müddətdə bu rayonlarda- şəhər, qəsəbə və kəndlərdə yaşayış evlərini, kommunal infrastrukturu bərpa etməli, oradan köçkün...

Bax 15

## Vüqar Rəhimzadə: “İnsan amili, vətəndaş məmnunluğu dövlət siyasətinin əsasında dayanır”



“COVID-19 pandemiyası 2020-ci ili iqtisadi baxımdan dünya dövlətləri üçün durğunluq dövrü kimi tarixə yazdı. Diqqət yetirsək görərik ki, mübarizə tədbirlərinə başlanan zaman əksər dövlətlərin özünə qapanaraq vəziyyətdən çıxmaq üçün düzgün yol müəyyənləşdirə bilməmələri bir sıra iqtisadi və sosial fəsadlara yol açdı. Azərbaycan isə yenə...

Bax 8

## Dünya silah bazarında nə baş verir? - Hərbi ekspert izah etdi



Bax 14

## Bax, budur ermənilərə yer eləyən...



Bax 13

## Ozan Kabak rəsmən “Liverpul”da!




Bax 16

# "Azərbaycanla Türkiyə arasında qardaşlıq və dostluq münasibətləri uğurla inkişaf edir"

*Prezident İlham Əliyev Türkiyənin Milliyyətçi Hərəkat Partiyasının sədr müavinini qəbul edib*



**Fevralın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin Milliyyətçi Hərəkat Partiyasının sədr müavini, Ankaradan deputat Mevlüt Karakayanı qəbul edib. AZƏRTAC xəbər verir ki, Milliyyətçi Hərəkat Partiyasının sədr müavini Mevlüt Karakaya partiyanın sədri Dövlət Baxçalının salamlarını Prezident İlham Əliyevə çatdırdı. O, dövlətimizin başçısının rəhbərliyi ilə Vətən müharibəsində qazanılan Zəfər münasibətilə Prezident İlham Əliyevi təbrik etdi.**

Prezident İlham Əliyev Dövlət Baxçalının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Milliyyətçi Hərəkat Partiyasının sədrinə çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı Vətən müharibəsi dövründə Türkiyənin Azərbaycana göstərdiyi siyasi, mənəvi və diplomatik dəstəyi xatırlatdı. Müharibə dövründə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın bəyanatlarının Azərbaycana böyük dəstək olduğunu deyən Prezident İlham Əliyev Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının müttəfiqi olan Milliyyətçi Hərəkat Partiyasının sədri Dövlət Baxçalının da açıqlamalarının siyasi, mənəvi önəm kəsb etdiyini dedi.

Milliyyətçi Hərəkat Partiyasının sədr müavini Mevlüt Karakaya Azərbaycanın işğaldan azad edilən torpaqlarında mədəniyyət və incəsənət təmayüllü məktəbin tikintisi ilə bağlı təşəbbüs barədə dövlətimizin başçısına məlumat verdi. Bu xüsusda Azərbaycanın təhsil naziri və digər rəsmi şəxsləri ilə görüşdüyünü bildirdi.

Prezident İlham Əliyev bu təşəbbüsə görə təşəkkürünü bildirdi, azad edilmiş torpaqlarda aparılan bərpa və şəhərsalma işləri çərçivəsində bu təşəbbüsün nəzərə alınacağını dedi. İşğaldan azad olunan ərazilərdə şəhərlərin baş planlarının hazırlandığını vurğulayan dövlətimizin başçısı məktəb binası üçün münasib yerin seçilməsi məqsədilə müvafiq təlimatlar verəcəyini qeyd etdi. Söhbət zamanı Azərbaycanla Türkiyə arasında qardaşlıq və dostluq münasibətlərinin uğurlu inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# Fransız jurnalist: 44 günlük müharibədə qələbə qazanan Azərbaycan beynəlxalq hüquqla tanınan ərazilərini azad edib

**Fransanın "Atlantico" portalında jurnalist Sebastyan Bussuanın "Dağlıq Qarabağ: 27 il əvvəl didərgin salındıqları torpaqlara qayıtmaq istəyən köçkünlərlə görüş" adlı məqaləsi dərc edilib.**










Məqalədə deyilir ki, bu, faciəli insan hekayəsidir. Otuz il əvvəl Birinci Qarabağ müharibəsi zamanı Ermənistan tərəfindən torpaqları işğal edilmiş və doğma evlərindən didərgin salınmış 800 minə yaxın azərbaycanlı məcburi köçkün ötən müddət ərzində qayıdışlarını gözləyiblər. Ermənistanla 44 günlük müharibədə qələbə qazanan Azərbaycan beynəlxalq hüquqla tanınan ərazilərini azad etdi. Torpaqları azad edilən yüz minlərlə azərbaycanlı tezliklə Zəngilan, Qubadlı və digər rayonlardakı evlərinə qayıtmaq arzusu ilə yaşayır. Onlar 30 ildən sonra yeni həyat qurmağı xəyallarında canlandırırlar.

Jurnalist Azərbaycanın azad etdiyi şəhərlərin və kəndlərin ermənilər tərəfindən dağıdılmasından da bəhs edir. Bildirir ki, yaşayış məskənləri ölüm kabusuna çevrilib, məscidlər tövlə kimi istifadə olunub, kitabxanalar talan edilib. Azərbaycan hökuməti dağıdılmış ərazilərdə infrastrukturun bərpasına başlayıb.

Bakıda yaşayan minlərlə məcburi köçkünün doğma yurdlarına qayıtmaq arzularından bəhs edən fransız jurnalist məqaləsində onların bəzilərinin fikirlərinə yer verib. Rəsul və Aygün köçkünlük həyatlarından, Ermənistanın işğalı nəticəsində doğma yurdlarından didərgin düşmüş həmvətənlərimizin yaşadıqları faciələrdən danışıblar. Onlar işğal nəticəsində dağıdılmış kəndlərini, evlərini yenidən qurmaq arzusu ilə yaşadıqlarını bildiriblər.

Məqalədə qeyd edilir ki, bu insanlar üçün ölkələri Azərbaycanın qələbəsi Prezident İlham Əliyevin qələbəsidir, eləcə də bütün köçkünlərin qələbəsidir.

Onlar tarixdə heç də bütün köçkünlərin belə bir fürsət əldə etmədiklərini, doğma yurdlarına qayıtmaq üçün səbirsizliklə gözlədiklərini qeyd edib, qayıdış planlarından, yeni həyat quracaqlarından danışıblar. Fransız jurnalist yazır ki, söhbət etdiyi azərbaycanlı məcburi köçkünlərdə ermənilərə qarşı nifrət görmədi. O qeyd edir ki, əvvəllər bölgədə hökm sürmüş harmoniya zamanla yenidən bərpa olunacaq.

# Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan gənclərini təbrik edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Gənclər Günü münasibətilə rəsmi "Instagram" səhifəsində paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir: "Bu gün 2 Fevral - Azərbaycan Gəncləri Günüdür. Bu əlamətdar gün münasibətilə bütün gənc dostlarımızı səmimi-qəlbdən təbrik edirəm! Qoy sizin həyatınız daim parlaq, maraqlı və mənalı olsun! Uca Tanrıdan hər birinizə möhkəm cansağlığı, uzun ömür və xoşbəxtlik diləyirəm!"

## Rəsmi xronika

Prezident İlham Əliyev "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev 2021-ci il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında Sərəncam imzalayıb.

# Dmitri Medvedev: Qarabağda nizamlanmanı Türkiyə ilə də müzakirə etmək lazımdır



Rusiya Prezidenti Vladimir Putin Qarabağda vəziyyətin nizama salınması üzərində bütün incəlikləri nəzərə alaraq işləyib. Əgər onun səyləri olmasa idi, münaqişə hələ də davam edəcəkdi.

Bu fikirləri Rusiya Təhlükəsizlik Şurası sədrinin müavini Dmitri Medvedev jurnalistlərə müsahibəsində söyləyib. O qeyd edib ki, münaqişənin qaynar mərhələsi başa çatandan sonra vəziyyət bütövlükdə sakitləşdi: "İnsanlar həlak olmurlar, inkişaf üçün imkanlar var. Yanvarın 11-də üç ölkənin liderləri Moskvada görüşdülər və vəziyyətin iqtisadi cəhətdən sağlamlaşdırılması yollarını müəyyən etdilər. Bu da çox vacibdir". D.Medvedevin fikrincə, hazırda müəyyən parametrləri, o cümlədən Rusiya Federasiyasının sülhməramlı kontingentini saxlamaqla iqtisadi əməkdaşlığı inkişaf etdirmək imkanı var.

D.Medvedev Qarabağda vəziyyətin nizama salınması məsələsinin Türkiyə ilə müzakirə olunmasının vacibliyini də diqqətə çatdıraraq vurğulayıb ki, regionda reallıq belədir.

"Türkiyə bizim qonşumuz və çox vacib tərəfdaşımızdır. Türkiyə həm də Azərbaycana çox yaxın ölkədir. Bu amili nəzərə almamaq olmaz. Moskva və Ankara arasında səmərəli dialoq qurulub, iki ölkənin prezidentləri bu mövzu ilə əlaqədar daim ünsiyyətdədirlər, ümumi vəziyyətə nəzarət etmək üçün Türkiyə və Rusiya hərbçilərindən ibarət xüsusi nəzarət mərkəzi yaradılması barədə qərar qəbul edilib. Bu da ümumi sabitləşmə elementidir. Lakin mən bunu uzunmüddətli siyasətin elementi kimi qiymətləndirməz, yaxud konspiroloji nəzəriyyələrdən birini qurmazdım. Sadəcə biz regionda mövcud reallıqları nəzərə almağa borcluyuq. Reallıq isə belədir ki, bu gün bu məsələni həm də Türkiyədən olan tərəfdaşlarımızla müzakirə etməliyik", - deyə Rusiya Təhlükəsizlik Şurası sədrinin müavini bildirib.

# "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq edilib

**Fevralın 2-də Prezident İlham Əliyev "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.**



AZƏRTAC xəbər verir ki, Sərəncamda müstəqil Azərbaycanın iqtisadi, sosial, siyasi və mədəni inkişafının tarixi dönüş mərhələsini yaşamaqda olduğu vurğulanır. Qeyd edilir ki, bu dövrdə ölkədə həyata keçirilən məqsədyönlü sosial-iqtisadi islahatlar milli iqtisadiyyatın güclənməsini və müasirləşməsini təmin edib. Son 17 ildə dinamik inkişaf əsasında ölkə iqtisadiyyatının həcmi 3 dəfədən çox böyüyüb, güclü sosial-iqtisadi infrastruktur yaradılıb, pozitiv demoqrafik artım şəraitində yoxsulluq səviyyəsi əhəmiyyətli azalıb. Mövcud maliyyə imkanları tarixi maksimuma çatdırılıb və ölkə yuxarı orta gəlirli dövlətlər qrupunda möhkəmlənib.

Sənəddə bildirilir ki, artan iqtisadi güc Azərbaycana Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarını dəyişdirməyə qadir böyük layihələrin təşəbbüskarı olmaq imkanı verib. Ölkə regional iqtisadiyyatın lokomotivi olaraq dünyanın enerji təhlükəsizliyinin etibarlı tərəfdaşlarından birinə çevrilib. Bütün bunlar Azərbaycanın regionda iqtisadi rolunu yüksəldib, xarici təsirlərə davamlı olmasına və müstəqil dövlət kimi suverenliyinin bərpasına möhkəm zəmin yaradıb. Əldə edilən iqtisadi üstünlük, uzun illər formalaşdırılmış ictimai-siyasi və sosial-iqtisadi bünövrə ölkənin hərbi qüdrətini də yüksəldib. Bu nailiyyətlər torpaqlarımızın işğaldan azad edilməsi və ərazi bütövlüyünün bərpası ilə nəticələnən tarixi qələbəyə transformasiya olunub. 2020-ci il noyabrın 10-da imzalanmış tarixi Bəyanatla Azərbaycanın siyasi və iqtisadi suverenliyinin təmini işğaldan azad edilmiş ərazilərin mövcud iqtisadi potensialından xalqımızın rifahı üçün tam istifadə olunmasına geniş imkanlar yaradır.

Sərəncamda, həmçinin qeyd edilir ki, müstəqil və suveren Azərbaycan dövləti postpandemiya və postkonflikt dövründə keyfiyyətcə yeni olan və 2021-2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olur. Ölkənin ərazi bütövlüyünün bərpası ilə səciyyələnən yeni strateji dövrdə dərin struktur-institusional islahatlar hesabına yüksək iqtisadi artım mənbələrinin tapılması vasitəsilə Azərbaycan dövlətinin qüdrətinin daha da artırılması, yüksək rifah cəmiyyətinin qurulması, azad edilmiş bölgələrə tarixi qayıdış və əbədi məskunlaşma təmin edilməlidir.

Qlobal iqtisadi reallıqlar, eləcə də yeni inkişaf mərhələsində qarşıya qoyulmuş məqsədlər ölkənin uzunmüddətli inkişaf vektorunun, əsas sosial-iqtisadi inkişaf istiqamətlərinin və buna uyğun milli prioritetlərin müəyyən olunmasını tələb edir.

Prezident İlham Əliyev yeni strateji dövrdə qarşıda duran məqsədlərə nail olmaq, bunun üçün uyğun siyasət və islahatlar çərçivəsini formalaşdırmaq məqsədilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"i təsdiqləyib.

Sərəncama əsasən Nazirlər Kabineti Milli Prioritetlərə uyğun olaraq "2021?2025-ci illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın layihəsini doqquz ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir. Layihə hazırlanarkən qabaqcıl beynəlxalq təşkilatlar və ixtisaslaşmış məsləhətçi şirkətlərlə səmərəli əməkdaşlığın həyata keçirilməsi, aidiyyəti dövlət orqanlarının (qurumlarının), elmi təşkilatların, mütəxəssislərin və vətəndaş cəmiyyəti təsisatlarının cəlb olunması təmin olunmalıdır. Aidiyyəti dövlət orqanlarına Milli Prioritetlərdən irəli gələn vəzifələrin yerinə yetirilməsi məqsədilə zəruri tədbirlər görmək tapşırılıb.

# Sahibə Qafarova İranın ölkəmizdəki səfiri ilə görüşüb

**Fevralın 2-də Milli Məclisin Sədri Sahibə Qafarova İran İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Seyid Abbas Musəvi ilə görüşüb. SİA xəbər verir ki, Parlamentin Sədri qonağı səmimi salamlayaraq bildirib ki, Azərbaycan və İran iki dost və mehriban qonşu ölkələrdir. Bizi bir-birimizə bağlayan tarixi, mədəni və mənəvi dəyərlər münasibətlərimizin qarşılıqlı anlaşma şəraitində inkişafı üçün yaxşı zəmin yaradır.**



İkitərəfli əlaqələrimizin dərinləşməsində dövlət başçılarının rolu və siyasi iradəsi mühüm rol oynayır. Bu baxımdan, yüksək səviyyəli görüşlər, hər iki ölkə prezidentlərinin qarşılıqlı səfərləri, aparılan danışıqlar, ölkələrimiz arasında imzalanmış sənədlər böyük əhəmiyyət daşıyır.

Sədr bildirib ki, Azərbaycanla İran arasında yüksək səviyyəli siyasi dialoq iqtisadi münasibətlərimizə də müsbət təsir edir. Ölkələrimiz arasında ticarət dövriyyəsinin həcmi günbəgün artır. Biz belə hesab edirik ki, mövcud potensial bu sahədə daha yüksək göstəricilər əldə etməyə imkan yaradır. Sədr Azərbaycanın onun dövlət müstəqilliyini ilk tanıyan dövlətlərdən biri kimi İran İslam Respublikası ilə həyatın digər sahələrində də əlaqələri dərinləşdirmək niyyətində olduğunu söyləyib.

Spiker münasibətlərimizin inkişafında parlamentlərin rolunu vurğulayaraq, hər iki ölkənin qanunvericilik orqanlarında dostluq qruplarının fəaliyyətini təqdir edib. Bildirib ki, bu sahədə tərəflər arasındakı mövcud xoş münasibətlər ikitərəfli və çoxtərəfli formatda əməkdaşlıqda özünü büruzə verir. Parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərləri, deputatlarımızın mütəmadi təmasları ölkələrarası əməkdaşlığın da dərinləşməsinə öz dəyərli töhfəsini verir.

Səmimi qəbul üçün minnətdarlığını bildirən İran İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Seyid Abbas Musəvi ölkəsinin dost və qardaş Azərbaycanla əlaqələrin inkişafına böyük maraq göstərdiyini ifadə edib. Bildirilib ki, İran ölkəmizin apardığı Vətən müharibəsində Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib, haqqın və ədalətin tərəfində olub. Səfir 44 günlük hərbi əməliyyatlar zamanı qazanılmış Zəfərə görə xalqımızı və Milli Məclisin Sədrini təbrik edib.

Bildirilib ki, hər iki ölkənin yüksək səviyyəli dövlət rəsmiləri arasında mövcud olan münasibətlər iqtisadi, mədəni, humanitar sahələrə də öz müsbət təsirini göstərir. Heç də təsadüfi deyil ki, əməkdaşlığımız artıq keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Münasibətlərimizin bu səviyyəyə çatmasına parlamentlərimiz də öz layiqli töhfəsini verməkdədir. Deputatlarımız arasında keçirilən görüşlər tərəflər arasında fikir mübadiləsi aparmaq baxımından çox önəmlidir. Qeyd edilib ki, İran gələcəkdə nümayəndə heyətlərinin qarşılıqlı səfərlərini intensivləşdirmək, əməkdaşlığımızı daha da dərinləşdirmək niyyətindədir. Söhbətdə parlamentlərarası əlaqələrin gələcək inkişaf perspektivləri və digər məsələlər barədə danışılıb.

***Aysel Məmmədova***

# "İşğaldan azad edilmiş ərazilərin dirçəlişi ilə Qarabağda intibah dövrü başlayır"

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev birinci xanım Mehriban Əliyeva ilə birlikdə fevralın 1-də Abşeron Rayon Mərkəzi Xəstəxanasının yeni inşa edilmiş binasının açılışı ilə bağlı tədbir çərçivəsində tibb müəssisəsində yaradılan şəraitlə tanışlıqdan sonra Azərbaycan Televiziyasına geniş müsahibə vermişdir.***

Dövlət başçısı ölkəmizdə səhiyyə sisteminin mövcud vəziyyətini, inkişaf istiqamətlərini və perspektivlərini dəyərləndirmiş, COVID-19 pandemiyasına qarşı mübarizədə vətəndaşların sağlamlığının ən ümdə məsələ kimi önə çəkildiyini bildirmiş və bu sahədə ölkəmizin beynəlxalq miqyasda oynadığı rola yüksək qiymət vermişdir.

Vətən müharibəsinə dair jurnalistin suallarını cavablandıran cənab İlham Əliyev "Hər bir Azərbaycan vətəndaşı hansı hissləri keçirir, mən də o hissləri keçirirəm, bəlkə daha çox" -söyləyərək erməni işğalından azad edilən torpaqlarla bağlı təəssüratlarını ictimaiyyətlə bölüşmüşdür.

Erməni vandalizminə və talançılığına göz yuman beynəlxalq təşkilatları bu məsələdə məsuliyyətli olmağa dəvət edən ölkə başçısı böyük siyasi əhəmiyyət kəsb edən fikirlər səsləndirmişdir. Uzun illər Ermənistan rəhbərliyinin və onun havadarlarının bu faktları gizlətdiyi barədə dünya ictimaiyyətini bir daha məlumatlandıran Azərbaycan Prezidenti bu mənzərənin bütün vasitələrlə dünyaya təqdim edilməsinin vacibliyinə diqqət yönəltmişdir.



***Əli Hüseynli,***
***Milli Məclisin deputatı***

Müxtəlif tarixi dönəmlərdə baş verən hadisələri təhlil edərkən həqiqətən də cənab İlham Əliyevin söylədiyi kimi, beynəlxalq erməni lobbisinin təsiri altında işğalçılıq siyasətini öz dövlətlərinin prioriteti kimi qəbul etmiş Ermənistanın Azərbaycana və Türkiyəyə qarşı mənfur münasibətini ilk növbədə qatı millətçilik mərəzi ilə izah etmək lazımdır.

30 il davam etmiş işğal dövrü ərzində Ermənistan dövlətinin siyasətini yönəldənlər Qarabağda evləri, mədəni abidələri, infrastrukturu, sənaye obyektlərini məhv etməklə azərbaycanlıların bu torpaqları lazımsız, səmərəsiz sayaraq ona biganə yanaşacaqlarına, unudacaqlarına, məcburi köçkünlərin doğma el-obasına qayıtmaq həvəsini öldürəcəklərinə ümid edirdilər. Lakin Ali Baş Komandan İlham Əliyevin yenilməz sərkərdəliyi ilə şanlı Azərbaycan Ordusu cəmi 44 gün ərzində sübut etdi ki, "...biz o faciədən sonra ayağa dura bilərik, möhkəmlənə bilərik, zəngin təbii ehtiyatlarımızdan səmərəli şəkildə istifadə edib, ölkəmizi inkişaf etdirə bilərik, bu torpaqları, əraziləri bərpa edə bilərik".

Azərbaycanın Vətən müharibəsində əldə etdiyi Zəfərin siyasi əhəmiyyətini müxtəlif aspektlərdən dəyərləndirən dövlətimizin başçısı demişdir: "Biz təkcə öz ərazi bütövlüyümüzü bərpa etməmişik, biz erməni faşizmini məhv etmişik, erməni vəhşiliyini məhv etmişik. Biz bölgəmizi faşist ideologiyasından tam xilas etməsək də, onun böyük hissəsini məhv etmişik. Buna görə bizim şanlı Qələbəmiz bölgə üçün, dünya üçün çox böyük əhəmiyyət daşıyır".

Bu mənada Azərbaycan Prezidentinin müsahibəsində siyasi diletantların çirkin ideologiyasının əsirinə çevrilmiş erməni xalqına ünvanladığı çağırış da çox ibrətamizdir: "Hesab edirəm ki, illər keçdikcə bizim bu tarixi xidmətlər dünya tərəfindən daha da dolğun şəkildə dərk ediləcək. O cümlədən erməni xalqı vaxt keçəcək, bizə minnətdar olacaq ki, biz onları bu bəladan xilas etmək istədik. Ümid edirəm ki, onlar xilas olunacaqlar. Əks-təqdirdə, Ermənistan dövlətinin dövlət kimi gələcəyi çox böyük şübhə altında olacaq".

Vətən müharibəsindən sonrakı dövrdə işğaldan azad edilmiş ərazilərin dirçəldilməsinin bütövlükdə region üçün ən vacib prioritet məsələlərdən biri olduğunu vurğulayan cənab İlham Əliyev bu istiqamətdə bütün işlərin ardıcıllıqla icra olunmasına xüsusi diqqət yönəltmişdir. O, Qarabağın yeni intibah dövrünə qədəm qoyması ilə burada çox zəngin, müasir və mədəni həyatın qurulacağı, xüsusilə də Şuşa şəhərinin tezliklə nəinki Azərbaycanın, bölgənin, hətta dünyanın mədəniyyət paytaxtlarından birinə çevriləcəyi ilə bağlı siyasi iradəsini ifadə etmişdir: "Mən əminəm ki, biz buna nail olacağıq. Biz hamımız istəyirik ki, dağıdılmış şəhərlər tezliklə bərpa edilsin, amma, eyni zamanda, elə olsun ki, bu, oraya qayıdacaq insanların rahatlığını təmin etsin və müasir, güclü Azərbaycanın gücünü bütün dünyaya göstərsin".

# Prezidentin həyata keçirdiyi uğurlu sosial siyasətin sübutu

*Prezident İlham Əliyev: "Pandemiya ilə mübarizədə Azərbaycan ilk günlərdən qabaqlayıcı tədbirlər görərək, istədiyinə nail oldu"*

**Bəli, bu gün bütün sahələrdə həyata keçirilən tədbirlər və əldə olunan real nəticələr ölkə Prezidentinin uğurlu sosial siyasətinin sübutudur. Hər bir dövlətin əsas funksiyalarından biri əhalinin sosial müdafiəsini təşkil etmək, maddi nemətlərin ədalətli bölgüsünə nail olmaq, daxili siyasətin sosialyönümlüyünü ön planda saxlamaq, vətəndaşların sosial rifah halını yaxşılaşdırmaqdan ibarətdir. Azərbaycanda da dövlət daim öz vətəndaşına qayğı ilə yanaşır, onun rifahının yüksəldilməsini, sosial problemlərinin həllini prioritet vəzifə kimi görür və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir. Əslində, dövlət başçımız bu siyasətini 17 ildir ki, davam etdirir, ancaq hazırkı məqamda həmin siyasət daha aşkar görünməkdədir.**

Xüsusilə də, bu gün dünyanı çalxalayan koronavirus pandemiyası bütün inkişaf etmiş dövlətləri iflic vəziyyətinə salıb. Lakin Azərbaycan ilk gündən unikal tədbirlər keçirilməsi nəticəsində bütün sahələrdə olduğu kimi, koronavirusla mübarizə tədbirlərində də ölkəmiz dünyada özünəməxsus imic formalaşdırıb - Azərbaycan modeli. Bu reallıqdır. Azərbaycan artıq beynəlxalq aləmdə inkişaf, tərəqqi, yüksəliş simvoluna çevrilir. Və bütün dünyanın etiraf etdiyi bu reallıq Prezident İlham Əliyevin fəaliyyətinə verilən haqlı və real qiymətdir. Bu, dövlət başçımızın dövlətləri və millətləri birləşdirən siyasətidir və bu siyasət Azərbaycan tərəfindən təqdim olunur, öyrənilir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 1-də Abşeron Rayon Mərkəzi Xəstəxanasının yeni inşa edilən binasının açılışında iştirakı zamanı xəstəxanada yaradılan şəraitlə tanış olub. Qeyd olunub ki, Azərbaycan Prezidentinin müvafiq Sərəncamı ilə 4 hektar sahədə inşa olunan 150 çarpayılıq tibb müəssisəsi Yaponiya, Koreya Respublikası, İtaliya və Türkiyə istehsalı olan ən zəruri avadanlıqla təchiz edilib. Xəstəxanada cərrahiyyə, terapiya, pediatriya, reanimasiya, dializ və digər şöbələr, həmçinin laboratoriyalar fəaliyyət göstərəcək. Bu binaya Abşeron Rayon Mərkəzi Xəstəxanasının nəzdində olan mərkəzi xəstəxana, Abşeron rayon poliklinikası, Abşeron rayon uşaq poliklinikası və təcili və təxirəsalınmaz tibbi yardım şöbəsinin köçürülməsi nəzərdə tutulub.

Yeni tibb müəssisəsində yaradılan şəraitlə tanışlıqdan sonra Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibəsində bir çox məsələlərə toxunub, həmçinin bütün dünyanı ağuşuna alan koronavirusa qarşı mübarizədə Azərbaycanın apardığı işlərdən danışıb.

### "Yeni tikilmiş bu xəstəxana bizim səhiyyə sahəsindəki fəaliyyətimizi əks etdirir"

Prezident İlham Əliyev səhiyyə sahəsində əldə olunan nailiyyətlərdən danışaraq bildirib ki, bu gün yeni tikilən xəstəxanalar səhiyyə sahəsindəki fəaliyyətimizi reallığıdır: "Yeni tikilmiş bu xəstəxana bizim səhiyyə sahəsindəki fəaliyyətimizi əks etdirir. Bildiyiniz kimi, son illərdə bir çox xəstəxanalar tikilib və onların da müəyyən standartları var, həm memarlıq baxımından, həm də avadanlıqlarla təchizat baxımından. Ona görə əminəm ki, bu xəstəxanada vətəndaşlara keyfiyyətli tibbi xidmət göstəriləcək. Çünki bütün müasir avadanlıqlar burada quraşdırılıb".



"Bir də ki, xəstəxana, eyni zamanda, həkimlərin iş yeridir. Burada 200-dən çox həkim və bütövlükdə 600-dən artıq tibb işçisi çalışacaq və təbii ki, onların da iş şəraiti müsbətə doğru dəyişir. Əminəm ki, burada göstəriləcək tibbi xidmət vətəndaşların sağlamlığını təmin edəcək, bərpa edəcək",-deyən dövlət başçısı bildirib ki, artıq Abşeron rayonunda müasir xəstəxananın fəaliyyəti deyilənlərin göstəricisidir: "Xəstəxananın inşası bir daha onu göstərir ki, bu sahədəki fəaliyyətimiz ardıcıl şəkildə davam etdirilir və Abşeron rayonunda da müasir xəstəxana artıq fəaliyyət göstərir. Bunun üstünlüyü, eyni zamanda, ondadır ki, bu vaxta qədər müxtəlif tibb müəssisələri fərqli-fərqli yerlərdə məskunlaşmışdı, amma indi burada artıq həm xəstəxana, poliklinika, uşaq poliklinikası, doğum şöbəsi, təcili tibbi yardım şöbəsi - bütün şöbələr bir yerdə fəaliyyət göstərəcək. Əlbəttə ki, bu, insanların rahatlığı üçün də çox önəmlidir".

### "Pandemiya ilə mübarizədə Azərbaycan ilk günlərdən qabaqlayıcı tədbirlər görərək, istədiyinə nail oldu"

"Pandemiya ilə mübarizədə Azərbaycan ilk günlərdən qabaqlayıcı tədbirlər görərək, istədiyinə nail oldu. Biz vəziyyəti bütün dövrlərdə, yəni, bu bir il ərzində nəzarətdə saxlamağı bacarmışıq. Burada əlbəttə ki, yeni laboratoriyaların ölkəyə gətirilməsi xüsusi rol oynayıb. Çünki pandemiyaya qədər bizdə cəmi 8 laboratoriya var idi və gündə cəmi min test keçirilə bilərdi. Hazırda laboratoriyaların sayı 42-dir və 20 min test keçirilə bilər və bunu biz keçiririk. Bütövlükdə 2 milyon 400 min test keçirilib. Yəni, bu, çox böyük rəqəmdir".

Bu barədə Prezident İlham Əliyev Abşeron Rayon Mərkəzi Xəstəxanasının yeni binasında yaradılan şəraitlə tanışlıqdan sonra Azərbaycan Televiziyasına müsahibəsində ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə tədbirlərindən danışarkən bildirib.

Dövlətimizin başçısı onu da deyib ki, pandemiya dövründə ilk günlərdən modul tipli xəstəxanaların ölkəyə gətirilməsi ilə məşğul olan Azrbaycan olub: "Eyni zamanda, pandemiya dövründə ilk günlərdən modul tipli xəstəxanaların ölkəyə gətirilməsi ilə məşğul olmağa başlamışdıq və hesab edirəm ki, burada da liderlik göstərdik. Çünki bizdən sonra bir çox ölkələr oxşar addımlar atmışdır. Ancaq istehsalçılar artıq çatdıra bilmirdilər. Biz isə modul tipli 13 xəstəxananı Azərbaycana gətirdik, quraşdırdıq. İndi bizdə xəstəxana fondu tam imkan verir ki, xəstəliklə bağlı bütün məsələlər həll olunsun və həm palatalar, həm reanimasiya palataları kifayət qədərdir".

Dövlət başçısı, əmçinin bildirib ki, bunun və eyni zamanda, son həftələr ərzində dövlət siyasəti nəticəsində müsbət dinamika müşahidə olunur, sağalanların sayı xəstələnənlərin sayından xeyli çoxdur. "Hesab edirəm ki, vaksinasiya başladığı üçün bu sahədə daha da uğurlu addımlar atılacaq. Məhz buna görə biz indi yumşalma mərhələsinə qədəm qoymuşuq. Biz il ərzində rejimi gah yumşaldırdıq, gah sərtləşdirirdik, vəziyyətə uyğun şəkildə addımlar atırdıq ki, insanların sağlamlığını qoruyaq, eyni zamanda, insanlar üçün lazım olmayan halda əlavə çətinliklər yaratmayaq. Yəni, biz daim bu məsələyə çox həssaslıqla yanaşmışıq ki, bu iki vacib məsələni həll edək - insanların sağlamlığı, onların rahatlığı və necə deyərlər, mənəvi durumu".

### "Pandemiya dövründə xarici ölkələrə yardım etməyi özümüzə borc bildik"

"Pandemiya dövründə xarici ölkələrə yardım etməyi bir məsuliyyətli ölkə kimi özümüzə borc bildik. Xüsusilə Azərbaycan Qoşulmama Hərəkatına sədrlik edən bir ölkə kimi mütləq bunu etməli idi. Bir çox ölkələrin maddi vəziyyəti, xüsusilə indiki dövrdə çox aşağıdır. Bir çox ölkələr vətəndaşların gündəlik tələbatlarını ödəyə bilmirlər. Belə olan halda, biz hesab edirik ki, mütləq imkan daxilində bu yardımı etməliyik. Beləliklə, bu dövr ərzində 30-dan çox ölkəyə maliyyə və humanitar yardım göstərilib, eyni zamanda, beynəlxalq təşkilatlara, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar məbləğində könüllü ianə verilib",-deyən dövlət başçısı müsahibəsində bildirilib.

### Azərbaycan beynəlxalq müstəvidə Zirvə görüşlərinin keçirilməsinin ilk təşəbbüskarıdır

Prezident İlham Əliyev Azərbaycanın beynəlxalq müstəvidə Zirvə görüşlərinin keçirilməsinin ilk təşəbbüskarı olduğunu qeyd edib: "Həm Türk Şurasının, həm Qoşulmama Hərəkatının iki Zirvə görüşü COVID-19-a həsr edilmişdir. Onların da çox müsbət nəticələri olmuşdur. Çünki birinci belə bir təşəbbüs idi, bunu da biz irəli sürdük, hər iki qurumun sədri kimi. Ondan sonra artıq Qoşulmama Hərəkatının üzvlərinin dəstəyi ilə BMT Baş Assambleyasının xüsusi sessiyasını keçirdik. Bu, o qədər də asan deyildi. Çünki Baş Assambleyanın xüsusi sessiyasını keçirmək üçün bir çox amillər lazımdır. Deyə bilərəm ki, bəzi ölkələr açıq etiraz etməsələr də, buna o qədər də maraqlı deyildilər. Çünki bəziləri hesab edirdi ki, belə bir təşəbbüs, necə deyərlər, ancaq böyük ölkələrə məxsus olmalıdır və belə bir təşəbbüs yəqin ki, onların fikirlərinə görə gərək daha əvvəl razılaşdırılaydı. Biz isə onu öz təşəbbüsümüz kimi irəli sürdük. Bildiyiniz kimi, Ermənistan buna qarşı çıxmışdır və bu da böyük təəccüb doğururdu. Yəni, Ermənistanda azərbaycanafobiyanın nə qədər böyük olduğunu Ermənistan bir daha bütün dünyaya göstərdi və bu, müharibədən əvvəl olan hadisə idi".

BMT Baş Assambleyasının xüsusi sessiyasında çıxışını xatırladan dövlət başçısı bildirib: "Mən Qoşulmama Hərəkatının sədri kimi çıxış edərkən bütün ölkələri həmrəyliyə çağırmışdım ki, bu bəlaya qarşı mübarizədə biz səylərimizi birləşdirməliyik, burada hansısa birtərəfli addımlar atılmamalıdır, zəngin ölkələr məsuliyyət göstərməlidirlər. Peyvənd bütün ölkələrin xalqlarına çatmalıdır. Hətta demişdim ki, kasıb olan ölkələrin vətəndaşları üçün zəngin olan ölkələr o peyvəndi alıb onlara ötürsünlər. Şirkətlərə də çağırışlar etmişdim ki, onlar da bu sahədə qazanc dalınca qaçmasınlar, yəni, məsuliyyətli olsunlar. Prinsipcə, mənim bu çağırışlarımı bir çox ölkələr dəstəklədi, amma əfsuslar olsun ki, real həyat bizə tam başqa mənzərə nümayiş etdirir. Burada sözlə əməl arasında böyük bir fərqi görürük".

### "Hər il 5 milyon insanı tibbi müayinədən keçirmək böyük təşkilatçılıq və maliyyə resursları tələb edir"

Prezident İlham Əliyev ölkəmizin bütün bölgələrində xəstəxanalar fəaliyyət göstərdiyini bildirib: "Son 17 il ərzində 750-dən çox xəstəxana ya yenidən tikilib, ya da ki, əsaslı şəkildə təmir edilib. Səhiyyə sistemimizin bu xəstəxana və tibb müəssisələri fondu demək olar ki, indi ən yüksək standartlara cavab verir. Bundan sonra, əlbəttə ki, biz, ilk növbədə, səhiyyə sisteminin təkmilləşdirilməsi və tibbi xidmətin xüsusilə indiki dövrdə keyfiyyətini artırmaq üçün əlavə addımlar atacağıq",-deyən dövlət başçısı bildirib ki, səhiyyə sisteminin maddi-texniki bazasının yaradılması, müasirləşdirilməsi başlıca vəzifə idi: "Mən xatırlayıram, 2004-cü ildə Prezident vəzifəsinə seçiləndən sonra bəyan etmişdim ki, biz qara qızılı insan kapitalına çevirməliyik. Sözün düzü, o vaxt bizim qara qızılımızın həcmi o qədər də böyük deyildi, Bakı-Tbilisi-Ceyhan neft kəməri hələ inşa edilməmişdi, ancaq biz bütün bu işləri artıq proqnozlaşdıra bilirdik. Bilirdik ki, bizi böyük neft hasilatı dövrü gözləyir. Ona görə neftdən əldən edilən gəlirləri insan kapitalına yönəltmək mənim başlıca vəzifəm idi. Dediyim kimi, bu vəzifə artıq bütövlükdə icra edildi. Bütün bölgələrdə ən müasir xəstəxanalar, poliklinikalar, diaqnostika mərkəzləri fəaliyyət göstərir. Əgər biz buna nail olmasaydı q, son illərdə hər il 5 milyon insan tibbi müayinədən keçə bilməzdi. Hesab edirəm ki, bu da böyük nailiyyətdir".

Ardı Səh. 5

# Prezidentin həyata keçirdiyi uğurlu sosial siyasətin sübutu

*Prezident İlham Əliyev: "Pandemiya ilə mübarizədə Azərbaycan ilk günlərdən qabaqlayıcı tədbirlər görərək, istədiyinə nail oldu"*



Əvvəli Səh. 4

Dövlət hesabına 5 milyon insanı - ölkə əhalisinin yarısını tibbi müayinədən keçirməyin böyük təşkilatçılıq və maliyyə resursları tələb etdiyini diqqətə çatdıran Prezident İlham Əliyev bildirib ki, biz indi, icbari tibbi sığorta sisteminə keçmişik: "Azərbaycan nadir ölkələrdəndir ki, bu təşəbbüsü həm irəli sürüb, həm də bunu reallaşdırıb. Eyni zamanda, bildiyiniz kimi biz indi, icbari tibbi sığorta sisteminə keçmişik. Bu keçid də mərhələli yollarla həll olunub. Pilot layihələrin icrası bizə ilkin məlumatlar verib və məlumatlar da çox müsbət idi. Pilot layihələrlə əhatə olunmuş üç şəhərdə həm tibbi xidmətin keyfiyyəti artdı, eyni zamanda, vətəndaşların məmnunluğu yüksək səviyyədə idi. Ona görə biz artıq bu sistemə də keçmişik. Əgər müasir xəstəxana fondu olmasaydı, buna keçmək mümkün olmazdı. Yəni, biz hər şeyi ardıcıllıqla edirik və yəqin ki, gələn 1-2 il ərzində böyük xəstəxanaların tikintisinə artıq son qoyulacaq və daha çox səhiyyə sisteminin təkmilləşdirilməsi, müasirləşdirilməsi istiqamətində addımlar atılacaqdır".

### "Bu gün pandemiya ilə bağlı vəziyyət nəzarət altındadır"

Prezident İlham Əliyev müsahibə zamanı beynəlxalq təşkilatların Azərbaycanın fəaliyyətini yüksək qiymətləndirdiklərini bildirib: "Ancaq əsas vəzifəmiz ondan ibarət idi ki, xalqımızı, vətəndaşlarımızı qoruyaq. Çünki pandemiyanın ilk günlərində bəlli deyildi ki, bu xəstəliyin hansı təhlükələri, yaxud da ki, hansı fəsadları ola bilər və bu gün də tam axıra qədər tədqiqatlar aparılmayıb. Ona görə biz ilk günlərdən bu addımları ataraq və eyni zamanda, Ümumdünya Səhiyyə Təşkilatı ilə təmaslar quraraq bu sahədə maksimum səmərəli iş aparmaq üçün çalışmışıq".

Ümumdünya Səhiyyə Təşkilatının pandemiya ilə mübarizənin "Azərbaycan modeli" haqqında danışdığını, görülən işlərə yüksək qiymət verdiyini qeyd edən dövlətimizin başçısı deyib: "Eyni zamanda, bu yaxınlarda mənə verilən məlumata görə, dünyanın aparıcı rəy sorğusu şirkəti olan "Gallup" da Azərbaycan vətəndaşları arasında təhlil-rəy sorğusu aparıb. Vətəndaşların 86 faizi dövlətin bu sahədəki fəaliyyətini yüksək qiymətləndirir və bu göstəriciyə görə Azərbaycan dünyada 4-cü yerdədir. Yəni, həm beynəlxalq təşkilatlar, bu sahədə aparıcı təşkilat olan Ümumdünya Səhiyyə Təşkilatı, həm də ölkə əhalisi bizim fəaliyyətimizi yüksək qiymətləndirir. Bu, özlüyündə bir göstəricidir və onu göstərir ki, biz düzgün yoldayıq, hər zaman vətəndaşlara həqiqəti demişik. Hər zaman vətəndaşlara problem yarada biləcək hansısa məhdudiyyətlər haqqında danışanda deyirdik ki, bu, zəruridir, bu, labüddür, bunu biz etməsək, böyük problemlərlə üzləşə bilərik, bizim səhiyyə sistemimiz artan xəstələrin müalicəsi ilə bağlı öz resurslarını səfərbər edə bilməyəcək. Şadam ki, bizim bütün çağırışlarımız vətəndaşlar tərəfindən də anlayışla qarşılandı. Nəticə etibarilə həm dövlət siyasəti, həm vətəndaşların artan məsuliyyəti imkan verdi ki, bu gün vəziyyət nəzarət altındadır".

Bir sözdə, bütün bunları xalqımız görür və öz Prezidentinin yanındadır və xalqımız möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında bundan sonra daha böyük nailiyyətlərə imza atacağının şahidi olacaqlar.

**RƏFİQƏ HÜSEYNOVA**

# Professor Metin Aksoy: "Bir millət, iki dövlət!" prinsipi romantizm deyil, həqiqətdir

Prussiya generalı Karl fon Klauzevits (1780-1831) məşhur "Müharibə haqqında" əsərində müharibəni zorakılığın köməyi ilə siyasətin davamı olaraq xarakterizə edib. Lakin onun vurğuladığı müharibə ümumi bir savaş deyil. Çünki o, sıx vəziyyətdə olan siyasi tənliyi açan məhdud, taktiki və nəticəyönümlü müharibənin əhəmiyyətindən bəhs edib. Başqa sözlə desək, siyasi hədəfə çatmaq üçün müharibədən başqa yol olmadıqda, müharibə siyasi vasitə rolunu oynayır. Bu baxımdan, bu gün Ermənistan-Azərbaycan müharibəsinin nəticələrinə baxdıqda Klauzevitsin Azərbaycanın nəzərində işarə etdiyi mənanı özündə əks etdirdiyini görmək olar: "Siyasi hədəflərin reallaşdırılması". Belə ki, ədalətli və qanuni hədəflərinə çatması üçün müharibə yolu Azərbaycanın qarşında yeganə seçim kimi qaldı.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin Konya vilayətində yerləşən Səlçuq Universitetinin rektoru, professor Metin Aksoy Azərbaycanın Vətən müharibəsində qələbəsini şərh edərkən söyləyib.

Beynəlxalq hüquqa hörmət edən bir dövlət kimi Azərbaycanın müharibəyə başlayan tərəf olmasının mümkünsüzlüyünü vurğulayan professor deyib: "Beynəlxalq sistemin "ərköyün uşağı" olan Ermənistanın əvvəlcə 2020-ci il iyulun 12-də, sonra isə sentyabrın 27-də həyata keçirdiyi hücum və təxribatlar Azərbaycanı cavab verməyə məcbur etdi. Yəni, Azərbaycanın müharibə yolunu seçməsinin səbəbi Qarabağ münaqişəsinin mövcud vəziyyəti ilə bağlı idi. Çünki Ermənistanın təxribatları hücumları xaricində münaqişə demək olar ki, "dondurulmuş" vəziyyətdə idi. Bu isə torpaqlarının bir hissəsi



uzun illər Ermənistan tərəfindən işğal edilən Azərbaycan üçün bu işğalın leqallaşdırılmasından başqa bir şey demək deyildi. Azərbaycanın münaqişəni həll etmək üçün beynəlxalq cəhdləri bir sıra dövlətlərin Cənubi Qafqazdakı maraqlarına görə nəticəsiz qaldı. Bu da artıq Azərbaycanın öz torpaqlarını qaytarması üçün müharibədən başqa yol qalmadığına işarə edirdi. Bundan əlavə, Azərbaycan artıq 20 ildən çoxdur ki, Türkiyənin də dəstəkləri ilə ordusunu təkmilləşdirmək yolunda iri addımlarla irəliləyirdi. Azərbaycanın torpaqlarını qaytarması üçün seçdiyi vaxt da son dərəcə vacib idi. Ermənistandan fərqli olaraq, Azərbaycan dəyişən qlobal və regional tənliyi olduqca yaxşı təxmin etmişdi. Ermənistan hər zaman olduğu kimi, bu savaşda da ona yaxın ölkələrdən dəstək gələcəyini hesablamışdı. Lakin bu, belə olmadı.

Bu məsələnin digər hissəsi isə ötən zaman ərzində Azərbaycanın dünyanın lider ölkələri ilə əlaqələrini yaxşılaşdırması, ticarətinin həcmini artırması idi. Bundan əlavə, Ermənistanın dəstəklənməsi bu dəstəyi verən ölkələrin Azərbaycanla çox sıx bağları olan Türkiyəni də qarşılarında görməsi ilə nəticələnə bilərdi. Bütün bu amilləri göz önünə gətirdikdə, yaranan müharibə vəziyyətində Ermənistanın lehinə işləyən köhnə şərtlərin artıq mövcud olmadığını görmək mümkün idi. Bütün bu səbəblər Azərbaycanın torpaqların qaytarılması istiqamətində yürütdüyü siyasətin hədəflərinin reallaşmasına kömək etdi.

Bununla da sentyabrın 27-də Ermənistanın təxribatları nəticəsində başlanan qarşıdurma noyabrın 9-da imzalanan atəşkəslə sona çatdı. Azərbaycanın 28 il əvvəl Ermənistan tərəfindən işğal edilən torpaqları bu müharibədən sonra öz sahibinə qayıtdı".

Professor qeyd edib ki, əvvəlcə bu razılaşmanı imzalamaq istəməyən Ermənistan sonradan Şuşaya daxil olan və Xankəndiyə yaxınlaşan Azərbaycan Ordusunun daha da irəliləyəcəyini anladı. Azərbaycan Ordusunun irəliləməsi strateji baxımdan özünü burada da büruzə verdi. Əldə olunan razılığa əsasən, Azərbaycanın uzun illər işğal altında qalan torpaqlarının geri qaytarılması ilə yanaşı, Naxçıvanla da quru yolu ilə nəqliyyat dəhlizi açılacaq. Bu da Azərbaycanın uzun illər davam edən qarşıdurmanı öz lehinə nəticələndirməsi ilə yanaşı, böyük qazanc əldə etməsinə vəsilə oldu.

"Burada qardaş ölkə olan və hər platformada "Bir millət, iki dövlət" prinsipi əsasında daim Azərbaycanı dəstəkləyən Türkiyənin də qazancılarını qeyd etmək lazımdır. Türkiyənin qlobal meydanda nüfuzunu daha da artıran ən böyük amillərdən başlıcası Azərbaycanın Vətən müharibəsində istifadə etdiyi Türkiyə istehsallı dronlardır. Azərbaycan Prezidenti İlham Əliyevin türk əsgərlərinin sülhməramlı missiyada iştirak edəcəyini vurğulaması Türkiyənin bölgədəki varlığını möhürlədi. Azərbaycanla Naxçıvan Muxtar Respublikası arasında qurulacaq nəqliyyat dəhlizi, eyni zamanda, Türkiyənin quru yolu vasitəsilə Orta Asiyaya bağlanmasına böyük töhfə verəcək", - deyə Metin Aksoy bildirib.

## İbrahim Kalınla Ceyk Sullivan Qarabağdan danışıb

Türkiyə prezidentinin mətbaut katibi İbrahim Kalınla ABŞ-ın Milli Təhlükəsizlik Məsələləri üzrə Məsləhətçisi Ceyk Sullivan arasında telefon danışığı olub. "İki sahil" xəbər verir ki, telefon danışığı təxminən 1 saat davam edib. Tərəflər Türkiyə-ABŞ ikitərəfli münasibətləri başda olmaqla Suriya, Liviya, Şərqi Aralıq dənizi, Kipr, Əfqanıstan, Dağlıq Qarabağ, COVID-19 və beynəlxalq iqlim rejimi mövzularını müzakirə ediblər.



## Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı üçtərəfli Bəyanatı alqışlayır

Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) Azərbaycan, Ermənistan və Rusiya rəhbərlərinin imzaladığı atəşkəs barədə üçtərəfli Bəyanatı alqışlayır. AZƏRTAC xəbər verir ki, bu barədə təşkilatın Baş katibi Stanislav Zas TASS agentliyində keçirilən brifinqdə bildirib. O deyib: "Hesab edirəm ki, indiki vəziyyət Qarabağ probleminin dinc yolla həllinə dair razılaşmalara tam nail olmaq üçün şərait yaradır".



KTMT-nin Baş katibi qeyd edib ki, Qarabağ münaqişəsi zonasında sonuncu hərbi əməliyyatlar dövründə KTMT hərbi əməliyyatların dayandırılmasına və problemin dinc yolla həllinə tərəfdar olub. O, həmçinin xatırladıb ki, KTMT-də olan baza müqaviləsində təşkilatın bu və ya digər dövlətə yardım göstərməsi imkanlarının şərtləri və ardıcıllığı dəqiq qeyd edilib.

S.Zasın sözlərinə görə, Qarabağda hərbi münaqişə - keçən il KTMT-nin Qafqaz regionunda qarşılaşdığı əsas çağırışı olub. KTMT-nin Baş katibi deyib: "Bu, postsovet məkanında ən irimiqyaslı və qanlı qarşıdurma idi. Bildiyiniz kimi, Rusiyanın köməkliyi ilə həmin qarşıdurmanı dayandırmaq mümkün oldu. Atəşkəs və sülhməramlıların yerləşdirilməsi vəziyyəti sabitləşdirdi".

# Artıq hər şey başqa cür olacaq: Prezident belə deyir!



**Dövlət başçısının AzTV-yə verdiyi müsahibəsi əsnasında irəli sürdüyü fikirləri artıq bir sıra dövlət qurumlarını və onların rəhbərliklərini düşündürməli, onlar sərt, hətta kifayət qədər kəskin iradlardan, xəbərdarlıqlardan real dərslər çıxarmalıdırlar. Əks halda...**

Əks halda hər şey heç də onların istədikləri kimi deyil, tamamilə əksinə gedə bilər, ta ki hüquqi müstəviyə yetişənə qədər. Xüsusilə, Vətən müharibəsində şəhidlərimizin, qazilərimizin axıtdıqları mübarək qanları üzərindən şəxsi maraqlarını güdən dövlət məmurları artıq papaqlarını qarşılarına qoyaraq bundan sonrakı addımları, qərarları ətrafında düşünməyə məhkumdurlar, zatən başqa çıxış yolları da qalmayıb. Düşünməlidirlər ki, xalqa, dövlətə xidmət etmək üçün az da olsa vaxtları var və bu vaxtı onlara məhz Prezident verib!

### Nəyə görə məhz Şuşada?

Gəlin bu məsələyə fərqli tərəfdən yanaşaq və nəticə hasil edək. Torpaqlarımız düşmən işğalından azad olundu və bu torpaqların dirçəldilməsi, həyata qaytarılması üçün dövlət başçımız bütün gücünü səfərbər edib - yollar çəkilir, tələb edilən infrastrukturlar yaradılır və ən əsası, həmin ərazilərimizə bilavasitə Prezidentin rəsmi nümayəndələri təyin olunur ki, onlar həmin işlərlə bağlı birbaşa ölkə rəhbəri ilə təmasda olsunlar. Yəni işlərin aparılması yalnız və yalnız mövcud problemlərin aradan qaldırılmasına hesablanıb. Üstəlik, minaların təmizlənməsi prosesindən başlayaraq, işğal müddətində vurulmuş ziyanın da hesablanaraq Ermənistanı məhməkəyə cəlb edilməsi üzərində fəaliyyət aparılmaqdadır.

Belə olan bir vəziyyətdə adları çəkilən dövlət qurumlarının nəyə görəsə məhz Şuşada (?!) regional mərkəzlər yaratmaq istəkləri anlaşılan deyil, ya da anlaşılarkən həmin məsələlər tamamilə başqa səmtə doğru yönəlir - şəxsi maraqlar kontekstinə. Yəni bir dövlət qurumunun rəhbəri öz ofisini "regional mərkəz" adı altında Şuşada, ya da Hadrutda yaradıb, sonradan oraları özününküləşdirərək mənimsəmək məqsədini daşıyırlar. Bax, bu incə məqam cənab Prezidentin diqqətindən əsla yayına bilməzdi və yayınmadı da!

**Düşünüblər ki, "ohh, nə əla, regional mərkəz yaradacağam, yavaş-yavaş torpaqları zəbt edib, sonradan həmin mərkəzləri şəxsi istirahət məkanıma çevirəcəyəm..."**

Ölkə başçısı cənab İlham Əliyevin də dediyi kimi, Şuşa Azərbaycanın mədəniyyət paytaxtıdır məmurların paytaxtı deyil və Prezident bildirib ki, o dirçəlmə, bərpa, inkişaf barədə danışarkən burada ofis açmaqdan danışmayıb. Bəs məmurlar nə düşünüblər? Düşünüblər ki, "ohh, nə əla, regional mərkəz yaradacağam, yavaş-yavaş torpaqları zəbt edib, sonradan həmin mərkəzləri şəxsi istirahət məkanıma çevirəcəyəm..."

Yəni, söhbət də budur ki, dövlət qurumları "kreativ ideya" irəli sürməklə dövlətin qılığına girib, sonradan həmin "ideyaları" dırnaqrarası bərpa, abadlıq işləri adı altında şəxsi otellərə, istirahət-əyləncə komplekslərinə, ticarət obyektlərinə çevirəcəkmişlər. Olmadı, Prezident yol vermədi və bundan sonra da buna yol verməyəcək, cənab məmurlar!

Və nədənsə, büdcədən ildə mlyonlarla vəsait xərcləyənlər və əslində, büdcəyə lazımı qədər maliyyə yatırmayan bir sıra dövlət qurumları "regional mərkəzlərin" yaradılması yerinə digər təklifləri irəli sürmürlər.

### İctimai nəzarət mexanizimi: Jurnalistlərin də üzərinə böyük məsuliyyət düşür

Misal üçün, nəyə görə bu gün Bakıda özünə milyonlarla manat müqabilində yeni baş ofis tikdirən Milli Bank, Azərsu ASC və ya digər qurumlar Kəlbəcərdə, Laçında, Zəngilanda, Cəbrayılda və s. işğaldan azad olunmuş ərazilərimizdə hərbçilərimizə dəstək məqsədi ilə yeni, müasir, bütün sosial təminatlara cavab verəcək kazarmalar, digər hərbi məqsədli obyektlər tikməyi təklif etmirlər? Bax, bu olardı kreativlik, bu olardı dövlətə dəstək və ya Vətən üçün təmənnasız, minnətsiz nə isə etmək! Belə davam etməyəcəyi göz önündədir və dövlət başçımız açıq-aşkar bəyan etdi ki, bundan sonra bənzər "ideyaları" irəli sürərək, Onu əsəbləşdirməsinlər...

Və bu gün daha bir fakt budur ki, işğaldan azad olunmuş ərazilərimizin dirçəlişi üçün ictimai nəzarət mexanizmi daha da artırılmalıdır. Bu mexanizm cənab Prezidentin təyin etdiyi xüsusi nümayəndələrin də işlərinə öz operativ, münbit dəstəyini göstərə bilər. Yəqin ki, bu məsələdə ictimai nəzarət prosesinin mühüm icraçıları olan jurnalistlərin də üzərinə böyük məsuliyyət düşür. Hər halda, artıq hər şey başqa cür olacaq: Prezident belə deyir!

***Rövşən RƏSULOV***

# Ermənilərı qorxudan nədir?



**Bir müddət bundan əvvəl, dəqiq desək, yanvarın 30-da Ağdamda Rus-Türk Müştərək Monitorinq Mərkəzinin açılışı olub. Təbii ki, bu açılış təkcə erməniləri deyil, həm də onlara havadarlıq edənlərin də elə ürəyincə deyil. Həmişə "yatdığı araba kölgəsini öz kölgəsi bilən kö..." ermənilər 9 noyabr tarixli üçtərəfli bəyanatın bu məqamını Bakı üçün "son dərəcə vacib", İrəvan üçünsə son dərəcə təhlükəli bir hal kimi dəyərləndirir. SİA bu barədə məlumatı erməni mətbuatındakı xülasəyə istinad edərək bildirir.**

Maraqlıdır, görən, erməniləri pəjmürdə edən, dəqiq desək, qorxudan nədir? Məsələn, Rusiya Müdafiə Nazirliyi bildirir ki, mərkəz atəşkəs rejiminə əməl olunmasına nəzarət edəcək və əgər tərəflərdən biri bu razılaşmanı pozan hərəkətlər edərsə, bu barədə məlumat toplanıb ümumiləşdirilərək yoxlayacaq. Bundan əlavə, nəzarət pilotsuz uçuş aparatlarının istifadəsi və digər mənbələrdən əldə edilmiş məlumatların qiymətləndirilməsi yolu ilə həyata keçiriləcək.

Bəli, pilotsuz uçuş aparatları - dronlar vasitəsi ilə həyata keçiriləcək. Məsələ bundadır ki, erməniləri qorxudan da budur. Belə görünür ki, bir neçə ay əvvəl erməni yararqlılarına dəhşət yaşadan, mülki əhaliyə isə psixoloji qorxu hissi aşılayan Türkiyənin pilotsuz təyyarələrinin yenidən Qarabağda peyda olması, "rus sülhməramlıları"nın arxasında durmasına baxmayaraq, ermənilərdə yenidən böyük qorxu hissi yaradıb.

Təsadüfi deyil ki, erməni hərbi ekspert Tiqran Abramyan Qarabağda türk pilotsuz təyyarələrin - dronların yenidən havaya buraxılmasını ermənilər üçün təhdid kimi dəyərləndirir. Xoflu erməni ekspertin fikrincə, tərəflərin birgə yaratdığı mərkəz fəaliyyətləri ilə bağlı funksional imkan və hədəflərin bir çox məqamlarını ermənilərdən gizlədirlər.

Abramyana görə, uzun illər Qarabağdakı həll prosesində fəal iştirak etmək istəyən Türkiyə, "izləmə" adı altında, nəhayət ki, öz qoşunlarını buraya yerləşdirmək fürsəti əldə etdi. Qəribə də olsa, erməni ekspert həyasızcasına, "təcavüz"ə görə Azərbaycanla bərabər məsuliyyət daşıyan bir ölkənin-Türkiyənin Qarabağa gəlməsinin həm Rusiya, həm beynəlxalq ictimaiyyətlə birgə Ermənistanın da qeyd-şərtsiz qəbul etməsini hələ də anlaya bilmədiyini deyir. Buna görə də, hər şeydən əlləri üzülən ermənilərin nümayəndəsi kimi Abramyan da NATO tərəfdaşlarını Türkiyənin davranışlarına müqavimət göstərməyə çağırır. Təbii ki, çağırışlarının əsassız olduğunu anlayan erməni ekspert erməni xislətini nümayiş etdirərək, Rusiyaya Türkiyənin bölgədəki həqiqi hədəflərinin nə olduğunu başa salmağa da çalışır. Abramyana görə, Türkiyənin Qarabağ proseslərində həqiqi iştiraka nail olması, təkcə Ermənistana qarşı deyil, həm də Rusiyaya qarşı daha aqressiv hərəkətlər üçün tramplin ola bilər.

Unutmaq lazım deyil ki, "hərislik, intriqalar, satqınlıq, andı pozma, yaltaqlıq bu millətin əsas milli xüsusiyyətlərindəndir. Məhz ermənilər hər cür bəhanə ilə hay-küy qoparmaq qabiliyyətinə malikdirlər. Onlar nəinki özləri çığırırlar, həm də özləri kimi axmaq və satqınları da buna məcbur edirlər". Bu fikirlər mənə aid deyil, Eçmiədzin Sinodunun prokuroru A.Frenkelin 1907-ci ildə Ali Sinoda göndərdiyi arayışdan götürülüb.

***Ağasəf Babayev***




# 159 nəfər yoluxub, 5 nəfər vəfat edib

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 159 yeni yoluxma faktı qeydə alınıb, 332 nəfər müalicə olunaraq sağalıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan SİA-ya verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 5 nəfər vəfat edib. Azərbaycanda indiyədək ümumilikdə 230 455 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 223 807 nəfər müalicə olunaraq sağalıb, 3 141 nəfər vəfat edib, aktiv xəstə sayı 3 507 nəfərdir.

# Sergey Şoyqu erməni nazirlə Qarabağı müzakirə edib



Rusiya tərəfinin təşəbbüsü ilə fevralın 1-də Rusiyanın müdafiə naziri Sergey Şoyqu ilə Ermənistanın müdafiə naziri Vaqarşak Arutyunyan arasında telefon danışığı baş tutub. SİA RİA Novosti Agentliyinə istinadən xəbər verir ki, müdafiə idarələrinin rəhbərləri tərəfindən keçən həftə baş tutan ikitərəfli Ermənistan-Rusiya hərbi əməkdaşlığına dair qərargah danışıqlarının nəticələrini, habelə müharibədən sonrakı dövrdə Ermənistanın təhlükəsizlik məsələlərinin həllinin gedişatı müzakirə edilib.

Ermənistan Müdafiə naziri Vaqarşak Arutyunyan Rusiyanın Dağlıq Qarabağdakı sülhməramlı kontingentinin fəaliyyətindən məmnunluğunu ifadə edib. Xatırladılır ki, hər iki ölkənin müdafiə nazirləri, Vaqarşak Arutyunyan və Sergey Şoyqu regional inkişafla bağlı məsələləri də müzakirə ediblər.

# MHP tərəfindən Şuşada tikiləcək məktəb necə idarə olunacaq?



**Bakıda səfərdə olan Türkiyənin Milliyyətçi Hərəkat Partiyasının (MHP) Sədrinin müavini Mevlüt Karakaya MHP tərəfindən Şuşada tikiləcək orta məktəbin hansı formada idarə ediləcəyi ilə bağlı məsələyə aydınlıq gətirib. SİA xəbər verir ki, məktəbin hansı formada idarə edilməsi ilə bağlı qərarı Azərbaycan Təhsil Nazirliyi verəcək.**

"Biz məktəbi tikib Azərbaycanın Təhsil Nazirliyinə təhvil verəcəyik. Məktəbin hansı formada və qaydada idarə edilməsinə isə Azərbaycan qərar verəcək. Bizim işimiz məktəbi tikib təhsil verməkdir, ondan sonrasına qarışmayacağıq. Biz çalışacağıq ki, Şuşanın tarixinə, mədəniyyətinə və atmosferinə uyğun bir məktəb tikib qardaş Azərbaycan tərəfinə verəcək", deyə Karakaya bildirib.

***Aysel Məmmədova***

# Türkiyə və Azərbaycanın regional və hərbi gücü:
# mövqelər möhkəmlənir

***Məlum olduğu kimi, fevralın 1-dən başlayaraq Türkiyənin Qars vilayətində Türkiyə-Azərbaycan Silahlı Qüvvələrinin birgə şəkildə keçirdikləri qış təlimlərinə start verilib və təlimlər fevral ayının 12-dək davam edəcək. Hərbi təlimlərlə bağlı dünyanın bir sıra hərbi şərhçiləri maraqlı fikirlər irəli sürür, iki ölkənin hərbi əməkdaşlığının regionda yeni güc formalaşdırdığını qeyd edirlər. Xüsusilə, Rusiyanın hərbi ekspertləri maraqlı nəticələr çıxarmaqla Türkiyə-Azərbaycan hərbi əməkdaşlığının həm də mühüm strateji əhəmiyyət kəsb etdiyini bildirirlər.***

Mixail Xodaryonok: "Türkiyə-Azərbaycan təlimləri, əslində, hər iki ölkənin silahlı qüvvələrinin birgə döyüş və əməliyyat hazırlığının bir elementidir"



SİA xəbər verir ki, "Qazeta.ru"nun (Qazeta.Ru) şərhçisi, hərbi və siyasi ekspert Mixail Xodaryonok regiondakı hərbi-strateji vəziyyətin mümkün dəyişilməsi barədə bir sıra məqamlara toxunub.

### "Əliyevin problemlərin həlli üçün təsirli bir vasitə - müasir bir ordu yaratdığını da unutmamalıyıq"

Beləliklə, rusiyalı hərbi ekspert yazır ki, sözügedən təlimlərə motopiyada və tank hissələri, eləcə də birləşmələri, artilleriya, hərbi-hava qüvvələri, xüsusi təyinatlı qüvvələr, desant briqadaları cəlb ediliblər. Türkiyənin Milli Müdafiə Nazirliyinin rəsmi məlumatına görə, burada əsas hədəf kimi birgə əməliyyatlar zamanı koordinasiyalı hərəkətlərin təlimi, həmçinin yeni silahların, nəqliyyatların sınaqlardan keçirilməsi nəzərə alınıb. Həmçinin, şərti düşmən obyektlərinə aviazərbələrin endirilməsi, desant, arxa cəbhənin texniki təchizatı məsələləri də təlimlərin planına daxil edilib. Rusiyalı hərbi ekspert şübhə etmir ki, Qarsdakı hərbi təlimlərdə Türkiyə və Azərbaycan SQ-nin qərargah komandirlərinin bilik və bacarıqları təkmilləşdiriləcək, onların hərbi əməliyyatlara hazırlıqları, ordunu idarə etmə qabiliyyətlərinin artırılması üzərində işlər aparılacaq. Xüsusi diqqət bölmələrin və hərbi hissələrin çətin şəraitlərdəki fəaliyyətlərinə ayrılacaq, koalisiya güclərinin səhra şəraitində idarəolunması üzrə işlər aparılacaq.

"Bu baxımdan, başlayan Türkiyə-Azərbaycan təlimləri, əslində, hər iki ölkənin silahlı qüvvələrinin birgə döyüş və əməliyyat hazırlığının bir elementidir", deyən Xodaryonok həmçinin sual edib ki, gərgin bölgədəki təlimlər hərbi-siyasi vəziyyət yaxın gələcəkdə necə inkişaf edəcək? O, Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanın baş naziri Nikol Paşinyana müraciəti zamanı "status" barədə fikirlərini və eyni zamanda, bu məsələnin dövlət başçımız tərəfindən cəhənnəmə göndərildiyini də xatırladıb. SİTAT: "Bundan əlavə, Əliyevin problemlərin həlli üçün təsirli bir vasitə - müasir bir ordu yaratdığını da unutmamalıyıq. Yaxın gələcəkdə Azərbaycan Silahlı Qüvvələrinin hərbi gücü yalnız artacaqdır. Buna həm ölkənin öz iqtisadi kompleksinin imkanları, həm də Türkiyə ilə hərbi-siyasi ittifaq kömək edəcək. Bakının mövqelərinin möhkəmlənməsi proseslərinə Azərbaycanın son dərəcə sərfəli coğrafi mövqeyi böyük ölçüdə kömək edəcəkdir".

Xodaryonok amerikalı politoloq Zbiqnev Bjezinskinin fikirlərini də xatırladıb və bildirib ki, Türkiyənin Azərbaycan dəstəyi bu ölkənin iqtisadi cəhətdən nəhəng bir gücə çevrilməsinə kifayət qədər münbit şərait yaratmaqdadır.

### "Ermənistanın yenidən ordu yaratmaq imkanları get-gedə azalır"

Ermənistanın da mövcud vəziyyətinə toxunan rus hərbi ekspeti hesab edir ki, bu ölkə hazırda geosiyasi sıçan tələsindədir: "Dövlətin praktiki olaraq xarici dünya və qonşu ölkələrlə heç bir əlaqə vasitəsi yoxdur - həm dəniz, həm də quru (əsasən, dəmir yolları) və hava. Ermənistan əhalisinin davamlı və sürətli azalma prosesi gedir. Ölkə iqtisadiyyatı da təsirli artım templəri nümayiş etdirmir".

Xodaryonok İrəvanın silahlı qüvvələrinin potensialının da get-gedə yoxolma səviyyəsinə doğru getdiyini yazıb və qeyd edib ki, ölkənin yenidən ordu yaratmaq imkanları get-gedə daha da azalır. Hərbi ekspert bunu belə izah edib: "Birincisi, kifayət qədər miqdarda müasir silahlar, hərbi və xüsusi texnika almaq şansı yoxdur. Bunun üçün respublikanın büdcəsində vəsait də yoxdur.

İkincisi, İrəvanın KTMT-dəki müttəfiqi olan Rusiya, Ermənistana kreditlə yetərincə silah verə bilməz və daha da çoxunu pulsuz şəkildə təmin edə bilməz. Digər mümkün silah tədarükçülərinə gəldikdə, bu vəziyyətdə onlar yalnız Ermənistanın kifayət qədər məbləği, olmayan pulları ilə, yəni olan-qalanı ilə hesablaşmalı olacaqlar.

"Ermənistanın Azərbaycan Silahlı Qüvvələri ilə eyni səviyyədə qoyula biləcək bir ordu yaratmaq və müasir, perspektivli texnika ilə təchiz etmək ehtimalı çox xəyali görünür", deyə Xodaryonok bildirib.

### "Moskva bu bölgədə qeyd-şərtsiz hökmranlığı bərpa etmək üçün iqtisadi, maliyyə və hətta hərbi baxımdan o qədər də güclü deyil"

Bundan əlavə, Mixail Xodarenok "Dağlıq Qarabağın qanuni və hüquqi olaraq Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu və dövlətin sərhədlərinin beynəlxalq ictimaiyyət tərəfindən tanındığını unutmamağı və mübahisə predmetinə çevirməməyi də tövsiyə edir. "Hərbi-strateji vəziyyətin inkişafının istənilən ssenarisində döyüş əməliyyatları Azərbaycan ərazisində baş verəcəkdir", deyə rus ekspert qeyd edib.

Rusiyanın Zaqafqaziyadakı rolu və iştirakına gəlincə, Xodaryonok bildirib ki, Moskva bir yandan KTMT-də İrəvanın müttəfiqidir, digər tərəfdən isə Kremlin Bakı ilə münasibətləri pozması üçün bir səbəbi yoxdur. Digər tərəfdən isə Rusiya Federasiyası ərazisində ölkə iqtisadiyyatına təməlli qaydada inteqrasiya olunmuş böyük bir Azərbaycan diasporası var: "Üstəlik, indiki mərhələdə Moskva bu bölgədə qeyd-şərtsiz hökmranlığı bərpa etmək üçün iqtisadi, maliyyə və hətta hərbi baxımdan o qədər də güclü deyil. Rusiyalı strateqlər və analitiklər də bu faktı nəzərə almalıdırlar", Xodaryonok şərhində də bildirib.

*Rövşən RƏSULOV*

## 65 yaşdan yuxarı şəxslərin peyvəndlənməsi ilə bağlı yeni sayt yaradıldı

Strategiyaya uyğun olaraq fevral ayının 8-dən etibarən COVID-19 əleyhinə vaksinasiyasının növbəti mərhələsi başlanılacaq. Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin SİA-ya daxil olan birgə məlumatında bildirilir ki, bu mərhələnin nizamlı təşkil olunması məqsədilə 65 yaşdan yuxarı vətəndaşlarımızın 5 fevral 2021-ci il saat 00:00-dan etibarən randevu.its.gov.az internet ünvanına daxil olub qeydiyyatdan keçməklə vaksinasiya olunmaq üçün ən yaxın tibb məntəqəsini seçməsi xahiş olunur. Qeydiyyatdan keçdikdən sonra vətəndaşlara sms vasitəsilə məlumat veriləcək və onlar peyvəndin birinci dozasını vurdura bilər.



İkinci dozanın vurulma tarixi və digər zəruri məlumatlar vətəndaşlara tibb məntəqəsində təqdim edilən "Məlumat forması"nda öz əksini tapsa da, əlavə olaraq sms vasitəsilə ikinci dozanın vurulma tarixi təkrar birdiriləcəkdir. Qeyd edək ki, yalnız randevu.its.gov.az internet ünvanında öncədən qeydiyyatdan keçməklə vaksinasiya üçün müraciət etmək mümkündür və ikinci dozanın vurulması birinci dozanın vurulduğu məntəqədə həyata keçiriləcəkdir. Sözügedən sistemdən istifadə qaydaları ilə bağlı yaxın günlərdə əlavə təlimatlar veriləcək.

## Doğrudanmı Paşinyan ermənilərin düşməndir?

"Sabah hakimiyyət idarələrində oturan insanların, nəhayət ki, yaradıcılıqla məşğul olacağını ümid etmək, elə alaq otunun buğdaya çevriləcəyinə ümid etmək kimi bir şeydir. ""Köçərilər" deyilən bir varlıqlar olub: vaxtilə şəhərlilərlə nə edəcəyini bilmədikləri üçün onları məhv etmişdilər". Bu gün də Paşinyan hakimiyyəti ölkədə köçərilərin şəhərlilərə etdiklərini edir. Belə görünür ki, bu hakimiyyət altında Ermənistan heç vaxt yaşamaq istəyi olan bir ölkəyə çevrilməyəcək". SİA bu fikirlərin erməni saytından götürüldüyünü bildirir. Bədbin, sabaha inamsız və ümidsizlik artıq erməniləri elə çuğlayıb ki, onlar çıxış yolunu ancaq ölkədən qaçmaqda görürlər.



Yaddaş üçün, Serj Sarkisyanın ölkə prezidenti olarkən 2050-ci ilə qədər 5 milyon əhalisi olan Ermənistan barədə utopiyasını yadınıza salmaq istəyirəm. "2050-ci ildə nə Paşinyan olacaq, nə də mən, Ermənistanın olub-olmayacağı da hələ məlum deyil". Qeyd edək ki, "Modus Vivendi" mərkəzinin rəhbəri, erməni siyasətçisi Ara Papyanın dediyi bu fikirlər Ermənistan haqqında əsl həqiqəti ehtiva edir.

Deyildiyi kimi, artıq ötən gündən, Rusiya ilə sərhədlərin açılması Ermənistanda böyük canlanma yaradıb. Ermənilər, sözün həqiqi mənasında, qaçırlar. Qiyməti üç dəfəyə qədər artırılmış təyyarə biletləri də onlar üçün elə də önəm kəsb etmir. Belə görünür ki, onlar arxada qoyub, birdəfəlik ölkəni tərk etdikləri üçün elə də təəssüflənmirlər. Əslində, "müstəqil" olduqları ərəfədə nəyə nail olublar ki, təəssüflənsinlər də. Amma Ermənistanın əbədi probleminə çevrilən miqrasiya, bəzi ermənilərin dediyi kimi, ölkəni məhvə sürükləsə də, bu, hazırkı erməni rəhbərliyinə sərf edir. Necə deyərlər: az əhalinin problemi də az olacaq.

Yeri gəlmişkən, bu gün Nikolu xain hesab edib və onun istefasını tələb edən əksər ermənilər onun xain olmaqla yanaşı, həm də düşmən olduğunu ona izah etməyə lüzum olmadığını bildirirlər. Nikol Paşinyan əksər ermənilər üçün düşməndir. Lakin onların bəzilərinin düşüncəsinə görə, Paşinyan hakimiyyəti daxildən güclənməkdədir. Görən bu, doğrudanmı belədir? Axı Paşinyanın əyalətlərdəki dəstəkləri də sıradan çıxmaqdadır. Bəzi erməni siyasətçiləri yanvarın 29-da baş nazirin müavini Tiqran Avinyanın əyalətdəki icma liderləri ilə bəzi hökumət planlarını müzakirə etmək üçün Sünikə getdiyini və burnu əzilərək geri döndüyünü dəstək sarsıntısına əsas kimi göstərirlər. Onların fikrincə, bu gün özünü hansısa filmin qəhrəmanına bənzədib həmin qəhrəman kimi davranmağa çalışan Paşinyan, doğrudanmı, artıq heç kimin onu görmədiyini və eşitmədiyini anlamır. Paşinyan, əlbəttə ki, hələ axşam olmadığını ümid etmək hüququna malikdir. Yəni onsuz da axşam, bəlkə də gecə ola bilər - amma yüzdə yüz faiz buna da zəmanət yoxdur.

*Ağasəf Babayev*

# Vüqar Rəhimzadə: "İnsan amili, vətəndaş məmnunluğu dövlət siyasətinin əsasında dayanır"



**"COVID-19 pandemiyası 2020-ci ili iqtisadi baxımdan dünya dövlətləri üçün durğunluq dövrü kimi tarixə yazdı. Diqqət yetirsək görərik ki, mübarizə tədbirlərinə başlanan zaman əksər dövlətlərin özünə qapanaraq vəziyyətdən çıxmaq üçün düzgün yol müəyyənləşdirə bilməmələri bir sıra iqtisadi və sosial fəsadlara yol açdı. Azərbaycan isə yenə də özünün təcrübəsi ilə diqqət çəkdi. Ümumdünya Səhiyyə Təşkilatı ilk gündən bu proqnozunu açıqladı ki, Azərbaycan koronavirus infeksiyası ilə mübarizədən az itki ilə çıxacaq.**

Dövlətimizin başçısı İlham Əliyev insanların sağlamlığı amilini önə çəkməklə yanaşı, iqtisadi islahatların dərinləşdirilməsini, heç bir sosial layihənin təxirə salınmayacağını qarşıya əsas hədəf kimi qoydu. 2020-ci ilin ilk ayından bugünədək görülən tədbirlərə, atılan addımlara diqqət yetirsək qarşıya qoyulan məqsədə nail olunduğunu görərik. Nəzərə alaq ki, Azərbaycan ötən il koronavirus infeksiyası ilə mübarizə aparmaqla yanaşı, ərazi bütövlüyünü bərpa etdi, 30 illik işğala son qoydu, Ermənistana və ona havadarlıq edən dövlətlərə haqqın, ədalətin gec-tez qalib gələcəyini göstərdi. Təbii ki, 44 günlük müharibə, eyni zamanda, ölkəmizin bütün sahələrdə malik olduğu imkanların da təqdimatı oldu". Bu fikirləri Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, Prezident İlham Əliyevin fevralın 1-də Abşeron Rayon Mərkəzi Xəstəxanasının yeni inşa edilən binasının, Abşeron rayonunda "Xırdalan" yarımstansiyasının, həmçinin bu rayonda bir sıra sosial obyektlərin, Yasamal rayonunda yeni salınan meşə tipli parkın açılışında iştirakı bir daha bu reallığın təsdiqidir ki, insan amili, vətəndaş məmnunluğu hər zaman dövlətimizin həyata keçirdiyi siyasətin əsasında dayanır: "Möhtərəm Prezidentimiz İlham Əliyev Abşeron Rayon Mərkəzi Xəstəxanasının yeni inşa edilən binasının açılışı zamanı Azərbaycan Televiziyasına müsahibəsində ölkəmizin pandemiyaya qarşı mübarizə, həmçinin postmüharibə dövründə görüləcək işlərə bir daha diqqəti yönəldərək bu əsas hədəfi açıqlamışdır ki, dünyaya müasir Azərbaycanın gücünü göstərməliyik. Azərbaycanın COVID-19-la mübarizə tədbirlərinə başlandığı gündən həyata keçirdiyi tədbirlər planlı xarakter daşıyıb. İstər ölkə daxilində, istərsə də beynəlxalq səviyyədə reallaşdırılan tədbirlər Azərbaycan təcrübəsinin təqdir olunmasını şərtləndirir. İlk gündən səhiyyə sisteminin təkmilləşdirilməsinə, yeni xəstəxanaların tikilib istifadəyə verilməsinə, modul tipli xəstəxanaların quraşdırılmasına diqqət göstərildi. Xüsusi qeyd etmək lazımdır ki, pandemiyaya qarşı mübarizə əksər ölkələrin səhiyyə sahəsində imkanlarının qənaətbəxş olmadığını açıqladı. Azərbaycanda isə digər ölkələrdən fərqli olaraq bu sahədə də vəziyyət ürəkaçandır. Ölkəmizdə bununla bağlı mövcud statistikaya diqqət yetirsək görərik ki, son 17 ildə 750-dən çox xəstəxana ya yenidən tikilib, ya da əsaslı şəkildə təmir edilib. Səhiyyə sistemimizin xəstəxana və tibb müəssisələri fondu indi ən yüksək standartlara cavab verir. Bunu şərtləndirən əsas amil cənab İlham Əliyevin Prezident kimi fəaliyyətə başladığı ilk gündən "Neft kapitalını insan kapitalına çevirək" tezisini irəli sürərək bu istiqamətdə reallaşdırdığı layihələr oldu. Möhtərəm Prezidentimizin də vurğuladığı kimi, baxmayaraq ki, o illərdə "qara qızıl"ımızın həcmi o qədər də böyük deyildi, amma bilirdik ki, Azərbaycanı böyük neft hasilatı dövrü gözləyir. Elə də oldu. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan və 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum neft-qaz layihələri reallığa çevrildi. Neftdən əldən edilən gəlirlər insan kapitalına yönəldildi".

Baş redaktor bildirib ki, ölkəmiz pandemiya dövründə birgə mübarizə tədbirlərini həyata keçirməyə xidmət edən bir çox nəcib təşəbbüslər irəli sürdü, eyni zamanda, iqtisadi imkanları zəif olan xarici ölkələrə yardım etməyi özünə mənəvi borc bildi: "Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibəsində də bu məqama xüsusi diqqət yönəldərək bildirmişdir ki, bu dövrdə 30-dan çox ölkəyə maliyyə və humanitar yardım göstərilib, eyni zamanda, beynəlxalq təşkilatlara, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar məbləğində könüllü ianə verilib. Həm Türk Şurasının, həm Qoşulmama Hərəkatının Zirvə görüşləri COVID-19-a həsr edilib. Azərbaycanın sədrlik etdiyi Qoşulmama Hərəkatının üzvlərinin dəstəyi ilə BMT Baş Assambleyasının Xüsusi Sessiyası keçirildi. Dövlətimizin başçısı İlham Əliyev bu çağırışı da etmişdir ki, peyvənd bütün ölkələrin xalqlarına çatmalıdır. Hətta Azərbaycan tərəfindən zəngin ölkələrə kasıb ölkələrin vətəndaşları üçün o peyvəndin alınmasına çağırış olunmuşdur. Bütün bunlar Azərbaycanın digər ölkələrin problemlərinə laqeyd yanaşmadığını, ən çətin anlarda onları tək qoymaq istəmədiyini təsdiqləyir. Necə ki, 44 gün davam edən İkinci Qarabağ müharibəsi Azərbaycan üçün həqiqət anı oldu. Kimin haqqın, ədalətin, kimin şərin yanında olduğu bir daha təsdiqləndi".

V.Rəhimzadə diqqəti dövlətimizin başçısının işğaldan azad edilmiş ərazilərimizdə, xüsusilə Azərbaycanın mədəniyyət paytaxtı elan edilmiş Şuşada görüləcək işlərlə bağlı fikirlərinə yönəldərək bildirmişdir ki, möhtərəm Prezidentimizin hər bir vədinin arxasında konkret əməli işin dayanması bu hədəfimizin də yaxın zamanlarda gerçəkləşəcəyinə əminlik yaradır: "Qarabağımız, onun tacı olan Şuşamız qısa zamanda cənnət məkana çevriləcək. Möhtərəm Prezidentimiz bütün işlərin planlı şəkildə həyata keçiriləcəyini bildirdi. Əsas diqqət göstərilən məsələlərdən biri də tarixi abidələrimizin bərpa olunmasıdır. Şuşanın hər bir məhəlləsi, hər bir daşı tarixdir. İşğaldan azad edilmiş torpaqlarımızın malik olduğu potensial imkanlar Azərbaycanın dünyaya təqdimatında bir daha öz sözünü deyəcək. Baxmayaraq ki, ermənilər illərdir Şuşanın onlara məxsus olduğunu iddia edirdilər. Tarixi, dini abidələri dağıtmaqla, yerlə-yeksan etməklə bu torpaqların əsl sahibini inkar etmək qeyri-mümkündür. Tariximizi özündə əks etdirən bu abidələrimizin bərpası üçün xarici mütəxəssislərin cəlb ediləcəyi bildirildi.

Təbii ki, qarşıya qoyulan hədəflərə lazımi səviyyədə nail olmaq, davamlı inkişafı təmin etmək üçün vətəndaş məmnunluğunun artırılması əsasdır. Bu isə öz növbəsində dövlət məmurlarının üzərlərinə düşən vəzifəni lazımi səviyyədə yerinə yetirmələrini bir tələbə çevirir. Möhtərəm Prezidentimizin məmurlardan tələbi daim bu olub: Dövlət maraqları hər şeydən üstün olmalı, məmurlar xalq üçün yaşamalı, onların qayğıları ilə maraqlanmalı, məsuliyyət hissini unutmamalıdırlar. "Mən Şuşanı mədəniyyət paytaxtı elan etmişəm, məmurlar paytaxtı elan etməmişəm!" söyləyən dövlətimizin başçısı İlham Əliyevin bu fikirləri işğaldan azad edilmiş ərazilərimizdə başlanan quruculuq və bərpa işlərində də öz şəxsi və qrup maraqlarını güdən bəzi məmurlara ciddi mesajdır. O da məlumdur ki, dövlətimizin başçısı İlham Əliyevin Fərmanı əsasında bu ərazilərdə Prezidentin xüsusi nümayəndəsi təyin ediləcək. Artıq Qarabağın ürəyi olan Şuşada bu institut yaradılıb. Dövlətimizin başçısı Azərbaycan Televiziyasına müsahibəsində də bu məqama diqqət çəkərək müvəqqəti idarəetmə strukturunun yaradılmasının səbəbini açıqlamışdır: "Çünki mən görürəm, bilirəm, artıq gözlər dikilib oraya. İndi oraya elə bil ki, hücum gözlənilir, zəbtetmə hücumu. O torpaq mənim, o torpaq sənin, oranı mənə, buranı sənə. Amma mən bunların hamısını cəzalandıracağam, hamısını, özü də necə lazımdır. Otursun hərə öz yerində öz işi ilə məşğul olsun. Bütün torpaqlar planlı şəkildə bərpa ediləcək. Orada insanlar üçün şərait yaradılacaq, elə şərait ki, dünya üçün nümunə olacaq". Möhtərəm Prezidentimiz hər zaman çıxışlarında bildirir ki, Azərbaycan hüquqi dövlətdir. Qanun qarşısında hamı bərabərdir, heç kim toxunulmaz deyil, heç kimin heç bir xüsusi imtiyazları yoxdur".

# Mərdliyi və cəsarəti ilə seçilən igidimiz - Niyamin Niftalızadə

*Komandir müavini: "Əgər Niyamin Niftalızadə şəxsi şücaəti, hünəri olmasa idi çoxsaylı şəhidimiz ola bilərdi"*





**Bu gün kimə sual etsən və ya soruşsan ki, "şəhidlik" nə deməkdir, birmənalı şəkildə cavab veriləcək ki, "şəhidlik ölməzlik" deməkdir, "əbədi yaşam" deməkdir. Müqəddəs kitabımız olan Qurani Kərimdə buyurulur ki, şəhidlik və qazilik peyğəmbərlərdən sonra gələn adlardır. 44 günlük Vətən Müharibəsi zamanı vətən oğulları düşmənin başını əzməklə müstəqil Azərbaycan tarixinə qəhrəmanlıq salnaməsi yazdılar. Tarix yazan və haqq savaşında şəhidlik zirvəsinə yüksələnlərdən biri də, hər yerdə, hər ailədə adı böyük fərəhlə çəkilən Niyamin Xaliq oğlu Niftalızadədir.**

N.Niftalızadə ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Respublikasının müstəqilliyinin və ərazi bütövlüyünün qorunub saxlanılmasında göstərdiyi qəhrəmanlığına görə "Vətən uğurunda" və "Cəbrayıl rayonunun işğaldan azad edilməsi" medalı ilə təltif olunub. Niftalızadə Niyamin Xaliq oğlu Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonun Nursu kəndində anadan olub. Hələ məktəb illərində fəallığı, istedadı, bilik və bacarığı ilə seçilən, fərqlənən Niyamin həmişə Vətən, xalq, Azərbaycan haqqında şeirlər əzbərləyirdi.

Dostlarına, tanışlarına əldə etdiyi tarixi məlumatlar əsasında ermənilərin Qafqaza gələmə olmalarından, azərbaycanlılara, türklərə qarşı törətdikləri soyqırım aktlarından, terror əməllərindən danışardı. Deyərdi ki, bu bölgədə sülhün, əmin-amanlığın təmin olunması üçün erməni toplumunu sözlə, çağırışla deyil, dəmir yumruqla başa salıb, zərərsizləşdirmək lazımdır. Bu da onda Vətənə, doğma torpağa bağlılıqdan irəli gəlirdi. Vətən Müharibəsi başlayan zaman hər zaman ürəyi Qarabağla döyünən N.Niftalızadə də ayağa qalxdı, cəbhəyə getmək və düşmənə layiq olduğu cəhənnəmi yaşatmağa qərar verdi.

Bakının Xətai rayonunda yaşayan N.Niftalızadə hərbi komissarlığa gedib, Qarabağa getmək istəyində olduğunu bildirir. Lakin hərbi komissarlıqdan müsbət cavab almır, deyirlər ki, hələ ki, sizlərə ehtiyac yoxdur. Ancaq N.Niftalızadə israr edir və bir neçə gün get-gəldən sonra, onu könüllülərin sırasına qəbul edib, hərbi təlimlərə göndərirlər. N.Niftalızadə döyüşə atıldığı ilk andan düşməni lərzəyə salan qəhrəmanlığı ilə seçilir. Dəfələrlə öz həyatını təhlükəyə atmaqla döyüş yoldaşlarına kömək edib. Şəxsi qəhrəmanlığı nəticəsində 50-yə yaxın erməni terrorçusunu məhv edib, 5 tankı sıradan şıxarıb. Oktyabrın 7-də Cəbrayıl rayonunun Musabəyli kəndi yaxınlığında gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlir.

Döyüş yoldaşları Niyamin Niftalızadənin torpaqlarımızın yağı düşməndən azad edilməsində göstərdiyi şücaətindən, qəhrəmanlığından böyük fərəh və qürur hissi ilə danışırlar. Bölük komandirinin müavini Vətənimizin müdafiəsi yolunda canından keçmiş Niyaminin qəhrəmanlığının hər bir gəncimizə örnək olduğunu bildirir: "Cəbrayıl istiqamətində uğurlu hərbi əməliyyatdan sonra şəxsi heyət qısamüddətli istirahət edirdi. Bu zaman qarşı tərəfdən 8-9 tank göründü. Onların üzərində Azərbaycan bayrağı dalğalanırdı. Həm də tankın üzərində oturan erməni əsgəri, bizi Azərbaycan dilində salamladı və kef-əhvalımızı soruşdu. Ancaq yaramaz xislətlərini tam şəkildə gizlətməyin mümkün olmayacağını başa düşüb, bizə atəş açdılar. İrəli atılan bölüyümüzün mərd, qorxmaz oğullarından olan N.Niftalızadə qumbara atanla məkrli düşmənin bir tankını məhv etdi, ikincini də sərrast atəşlə sıradan çıxardı. Düşmən tamamilə məhv ediləcəyini anladığından geri dönüb qaçdı". Komandir müavininin sözlərinə görə, əgər o zaman N.Niftalızadənin şəxsi şücaəti, hünəri olmasa idi çoxsaylı şəhidimiz ola bilərdi.

Söz yox ki, N.Niftalızadə kimi şirin canını Vətən uğrunda qurban verən şəhidlərimiz heç zaman unudulmayacaqlar. Onlar qəlblərdə, ürəklərdə əbədi olaraq yaşayacaqlar. Hər bir uşaq, yetişməkdə olan gənc nəsil N.Niftalızadə kimi qəhrəman, cəsur, hünərli olmağa çalışacaq. Gələcək nəsillər onların adını fərəhlə çəkib, haqlarında şeirlər qoşacaq, nəğmələr səsləndirəcək, əsərlər yazacaqlar. Bir sözlə, onlar cismən haqq dünyasında olsalar da, ruhən hər zaman bizimlə olacaqlar. Allah bütün şəhidlərimizə rəhmət eləsin, qazilərimizə də şəfa versin.

**İ.ƏLİYEV**

# Xatirəsi qəlblərdə qalan sənət fədaisi

**2020-ci il həm pandemiya, həm də Qarabağın 30 illik işğalına son qoyulması ilə yaddaşlara əbədi həkk olundu. Pandemiya bizə müəyyən narahatlıqlar yaşatsa da, ən böyük sevincimiz, söz yox ki, mənfur düşmən üzərindəki şanlı qələbəmizdir. Buna görə Ali Baş Komandan İlham Heydər oğlu Əliyevə, silahlı qüvvələrin qorxmaz döyüşçülərinə və bir an belə qələbəyə inamını itirməyən xalqımıza sonsuz minnətdarıq.**

Keçən il ölkədəki pandemiya və müharibə şəraiti ilə bağlı saysız-hesabsız insanlar, o cümlədən sənət adamları stress və gərginlik keçirib, dünyalarını dəyişdilər. Dünyalarını dəyişmiş sənət adamlarının hər birini hörmətlə yad edirəm. Bu gün onlardan biri haqqında kövrək xatirələrimi hörmətli oxucuların diqqətinə çatdırmaq istəyirəm. Bu sənət adamı, daha doğrusu,sənət fədaisi haqqında keçmiş zamanda danışmaq mənim üçün çox çətindir. Çünki onun dünyasını dəyişməyinə bu günə qədər inana bilmirəm.

Haqqında danışmaq istədiyim sənətkar Azərbaycan Dövlət Akademik Musiqili Teatrın aktyoru Ağaxan Şərifovdur. Bu sənətkar yaşadığı ömrün 30 ilini sevdiyi teatr sənətinə fəda etdi.

Ağaxan Şərif oğlu Şərifov 1962-ci il oktyabr ayının 22-də Ağsuda dünyaya gəlib. Hamımız yaxşı bilirik ki, Ağsu milli teatr və kino sənətinə Səməndən Rzayev, Mikayıl Mirzə və Rasim Balayev kimi sənətkarlar bəxş edib. Bu bölgədən neçə-neçə cavanlar, məhz bu sənətkara baxaraq sənətə gəliblər. Ağaxan da istisna deyildi. Orta təhsilini başa vurandan sonra bir müddət istehsalatda çalışdı. 1986-cı ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dram və kino aktyorluğu fakültəsinə daxil oldu. Artıq Ağaxanın sənət yolu müəyyən olunmuşdu. Sevincinin həddi-hüdudu yox idi. Ürəyi sənət arzuları ilə aşıb-daşan Ağaxan 1990-cı ildə Universiteti bitirdi. Onun bəxtindən elə bu ərəfədə mərhum sənət dostum Hüseynağa Atakişiyev baş rejissoru olduğu Akademik Milli Dram Teatrından uzaqlaşdırıldı və dərhal müstəqil "Gənclər" Teatrını yaratdı. Teatra aktyor və digər sənət adamlarının çox böyük axını var idi. Hamı, o cümlədən cavanlar, Tofiq Kazımovdan sonra, məhz Hüseynağa Atakişiyevin milli teatr prosesinə yeni nəfəs gətirəcəyinə inanırdı. Dostum Hüseynağa tam yeni teatr konsepsiyası əsasında dövrünü qabaqlayan yeni teatr yaratmağa çalışırdı. Teatrın ətrafında yeni düşüncə tərzinə malik dramaturqlar, bəstəkarlar və rəssamlar dəstəsi toplanmışdı. Teatr Xadimləri İttifaqının Aktyor Evinin səhnəsini yeni teatr üçün ayırdılar. Hüseynağanın gecəsi-gündüzü yox idi. O, gecəni-gündüzə qatıb yeni bir teatr yaradırdı. Onun üçün çətin günlər başlamışdı. Mən belə çətin bir dövrdə təbii ki,

dostumu tək qoymayıb, onun yanında olmalı idim. Mən Akademik Milli Dram Teatrındakı fəaliyyətimlə paralel olaraq, yeni yaradılmış "Gənclər"teatrında da çalışmağa qərar verdim. Teatra müraciət edən aktyorların sayı-hesabı yox idi. Çox ciddi seçim prosesi gedirdi. Mən də təbii ki, dostumun yanında idim. Hüseynağa peşəkar olaraq, bircə baxışla ictedadlı insanla qeyri-istedadsızı dərhal ayırd edə bilirdi.

Ağaxan dərhal seçimdən keçdi və məhz bu illərdən başlayaraq, dörd il mən onunla bu tearda bir çox tamaşalarda birlikdə çalışdıq. Bu teatrın səhnəsində Ağaxan çox maraqlı və yaddaqalan obrazlar qalereyası yaratdı. O, obrazın təsviri zamanı maraqlı və ən əsası da baxımlı oyun tərzi nümayiş etdirirdi. Ağaxan sənətlə bağlı çətinliyi olanda çəkinmədən mənə müraciət edirdi. Mən də hər zaman onun bütün suallarını cavablandırır, ona yardım etməyə çalışırdım.

Sonrakı illərdə mən "İlham"miniatür teatrı yaratdım. Ətrafıma gənclərdən ibarət çox böyük bir kollektiv topladım və dərhal Ağaxanı teatra dəvət etdim. O, tez bir zamanda kollektivdə hörmət qazanaraq, hamının sevimlisi oldu. Aktyorlar problemləri ilə bağlı məndən əvvəl ona müraciət edirdilər. Mən Ağaxanın bu keyfiyyətlərini əsas götürərək, onu truppa müdiri təyin etdim.

O, 1993-cü ildən 2007-ci ilə qədər teatrın trupa müdiri olub, bu işin öhdəsindən bacarıqla gəldi. Ağaxan teatrın həm truppa müdiri, həm də aparıcı aktyoru idi. O, bu teatrın səhnəsində Anarın "Əl əli yuyar", Rəhman Əlizadənin "Dünyanın axırı" və "Bəxtimin kələyi" Cahangir Aslanoğlunun "Karnaval və ya şifonerdə eşq-məhəbbət", Mirzə Fətəli Axundzadənin "Müsyo Jordan və Dərviş Məstəli şah, Rafiq Səməndərin "İlhamın sərgüzəştləri", "Başsındıran məsələ" və "Yorğanına baxıb, ayağını uzadan teatr", Ramiz Əkbərin "Qulaq" və digər tamaşalarda baş rollarda tamaşaçıların görüşünə gəldi. O, tamaşadan tamaşaya daha artıq püxtələşir və daha artıq sənətkarlıq nümunəsi göstərirdi. Onun yaratdığı obrazlarda səmimilik, dəqiq ifa tərzi və peşəkarlıq yüksək idi. Ağaxan istedadlı və peşəkar sənətkar olmaqla yanaşı, həm də əxlaqlı və tərbiyəli, böyük-kiçik yeri bilən bir insan idi.

Ağaxan 2007-ci ildən ömrünün sonuna qədər Azərbaycan Dövlət Akademik Musiqili Teatrında bir-birindən maraqlı obrazlar yaratdı. O, eyni zamanda, mənim təklifimlə Mədəniyyət və İncəsənət Universitetində başçılıq etdiyim Musiqili Teatr Aktyoru kafedrasında baş laborant vəzifəsində çalışdı. Ağaxan, sözün əsl mənasında, zəhmətkeş və punktual bir insan idi. Ona tapşırılan hər bir işi yüksək səviyyədə görürdü. Teatrda olduğu kimi, vaxtı ilə tələbəsi olduğu təhsil müəssisəsində də çox qısa bir vaxtda müəllim və tələbə heyətinin hörmətini qazana bildi.

Ağaxan Akademik Musiqili Teatrında çalışdığı 13 il ərzində onlarla tamaşada irili-xırdalı neçə-neçə obraz yaratdı.

O.Rəcəbovla A.Babayevin "Əlin cibində olsun"da 1-ci oğlan, R.Hacıyevin "Talelər qovuşanda" Evlər müdiri, R.Mirişli ilə M.Haqverdiyevin "Qısqanc ürəklər"də Ofisiant, O.Rəcəbovla A.Babayevin "Şeytanın yubileyində" İnzibatçı, O.Zülfüqarovla R.Heydərin "Şəngülüm, Səngülüm, Məngülüm"də Çaqqal, S.Ələsgərovla Ş.Qurbanovun "Milyonçunun dilənçi oğlu"da 2-ci xidmətçi, R.Mirişli ilə M.Haqverdiyevin "Amerikalı kürəkən"də Qədeş Cəfər, Coni və Xanım, S.Fərəcovla Ə.Nesinin "Şəhərdə manyak var" da Komendant, M.Məmmədovun "Matəm marşı və yaxud gözünüz aydın"da Nadir, Ü.Hacıbəyovun "Ər və arvad"da Süpürgəçi, S.Kərimi ilə Ə.Olun "Kimyagər"də Şeyx Salah, E.Sabitoğlu ilə C.Məmmədovun "W.W.W.Fərzəlikefkom"da Dayıoğlu, Ü.Hacıbəyovun "O olmasın, bu olsun"da Hambal, F.Allahverdi ilə Elçinin "Baladadaşın toy hamamı"da Şofer və sair obrazlar sənətsevətlərin və teatr tədqiqatçılarının diqqətini cəlb etmişdi. Ağaxan bu tamaşalarda bir-birindən fərqli, maraqlı və rəngarəng obrazlar dünyası yaratmışdı.



Onun sonuncu işi S.Rüstəmlə M.S.Ordubadinin "Beş manatlıq gəlin" tamaşası oldu. Pandemiya səbəbindən bu tamaşanı və onun oynadığı obrazı tamaşaçılar görə bilmədi. Pandemiyadan sonra tamaşaçılar adı çəkilən tamaşanı təəssüf ki, Ağaxanın oynadığı obrazsız görəcəklər.

Mən iki tamaşa və bu iki tamaşada onun yaratdığı fərqli obrazlar haqqında ayrıca yazmaq istəyirəm. Bunlar "İlham"Miniatür Teatrında Mirzə Fətəli Axundzadənin "Müsyo Jordan və Dərviş Məstəli şah" və Akademik Musiqili Teatrında Marat Haqverdiyevin "Amerikalı kürəkən" tamaşalarındakı maraqlı obrazlardır. Hər iki tamaşanın müəllifi və quruluşçu rejissoru mən idim.

Ağaxan M.F.Axundzadənin "Müsyo Jordan və Dərviş Məstəli şah" tamaşasında Müsyo Jordan obrazını yüksək peşəkarlıqla yaratmışdı. Mən bu tamaşanı nağıl-oyun prinsipi əsasında qurmuşdum. Həm tamaşa, həm də Ağaxanın yaratdığı obraz mənm gözlədiyimdən də maraqlı, baxımlı və cazibadar alınmışdı. Bu, söz yox ki, aktyorun peşəkarlığından və tamaşanın janrına uyğun oyun tərzi nümayiş etdirməsindən irəli gəlirdi. Aktyor səhnəyə daxil olduğu andan diqqət mərkəzində ola bilirdi. Onun ifasında hərəkət-mizan toplusu tamaşanın ümumi ahənginə tam uyğun idi.

Mən tamaşanın birinci hissəsini rejissor olaraq onun obrazının üzərində qurmuşdum. O, bu işin öhdəsindən məharətlə gəlmişdi. Onun ifasında şitlikdən əsər-əlamət belə yox idi. O, sadəcə olaraq, yad bir mühitə düşmüş insanın komik vəziyyətinə uyğun oyun tərzi nümayiş etdirirdi. Kətillə onun ardınca qaçan qulluqçu onu yıxanda və ya özü təzim edərkən yıxılanda belə, o dərhal vəziyyətdən çıxmağa çalışır və daha artıq komik vəziyyətə düşürdü. Aktyor ifa zamanı hərəkət-mizan toplusu ilə danışıq tərzinin vəhdətini yarada bilirdi. Nəticədə maraqlı bir obrazın nümayişi ilə qarşılaşırdıq. Mənim rejissor olaraq onun üçün tapdığım mizanlara əlavə cizgilər taparaq, onları daha artıq rəngarəng və baxımlı edirdi. O, öz obrazının həm ifaçısı, həm də rejissoru idi. Mən onun bir çox tamaşalarda olduğu kimi, bu tamaşada yaratdığı obrazdan da tamlıqda çox razı qaldım.

Tamaşadan tamaşaya obraz daha artıq tamamlanırdı. O, zalın obraza olan reaksiyasını hiss edərək, onu daha artıq baxımlı təqdim edirdi. O, obrazın təsviri zamanı jestlərdən, intonasiyalardan yerində və bacarıqla istifadə etməyi bacaran azsaylı sənətkarlardan idi.

Qeyd etməliyəm ki, "İlham"Miniatür Teatrının M.F.Axundzadənin "Müsyo Jordan və Dərviş Məstəli şah" tamaşası Azərbaycan TXİ-nın "Qızıl Dərviş" mükafatına layiq görülmüşdü. Bu mükafatın qazanılmasında yaradıcı kollektivlə birlikdə Ağaxanın da payı var idi.

Mənim haqqımda yazmaq istədiyim ikinci səhnə əsəri Ramiz Mirişli ilə Marat Haqverdiyevin "Amerikalı kürəkən" tamaşası idi. Mən Ağaxanın bacarığına, peşəkarlığına və potensial imkanlarına inanaraq bu tamaşada ona üç fərqli və bənzərsiz obraz həvalə etdim. Mən onun bu çətin işin öhdəsindən gələcəyinə inanırdım. İnamımda yanılmadım. Ağaxan Qədeş Cəfər, Cangüdən Coni və Xanım obrazlarını çox böyük məharətlə yaratdı. Onun oynadığı səhnələr tamaşanın ən maraqlı və baxımlı hissələri idi. Mən tamaşada Yanğınsöndürmə idarəsinin işçisi Orxan bəy obrazında çıxış edirdim. Ağaxan tamaşanın janr, ideya və oyun tərzinə uyğun dəqiq ifa tərzi nümayiş etdirirdi. Bu obrazların birincisi Qədeş Cəfər obrazı idi. Heç bir konkret işlə məşğul olmayan Cəfər dostu Bilalla asan qazanc yeri axtarır. Yalançı Ametikalı milyonçu kürəkən obrazında istədiyi qızın anasının qarşısına çıxmaq istəyən Kamran müəyyən pul müqabilində onları özünə cangüdən tutur. Hər iki dost onlardan nə tələb olunursa, dərhal razılaşırlar. Bilal özündən çıxsa da, Cəfər vəziyyətə uyğun hərəkət edir. O, Bilalı da nəzarətdə saxlaya bilir. Aktyor tərəfindən Cəfər obrazının daxili keyfiyyətləri və ona uyğun xarici portret cizgiləri dəqiqliklə təsvir olunurdu. Mən özüm səhnədə ola-ola onun obrazını seyr etməkdən həzz alırdım. Hadisələrin inkişafı boyu Ağaxan Şərifov üçüncü obrazda səhnəyə gəlir. Bu obraz qeyri-adi konfiqurasiyalı Xanım obrazıdır.

Aktyor tərəfindən dəqiq hərəkət-mizan toplusu ilə baxımlı bir obraz təqdim olunur. Xanım obrazı baxımlı və komik cizgiləri ilə tamaşaya rəngarənglik gətirir desək, heç də səhv etmərik. Aktyor obrazın yumoristik mahiyyətini dərindən duyub, daxili və xarici təsvirin vəhdətini dəqiqliklə təqdim edirdi. Ağaxan teatr səhnəsində olduğu kimi kino ekranlarında bir neçə maraqlı obrazlarla tamaşaçıları sevindirə bilmişdi.

1999-cu ildə "Nə gözəldir bu dünya", 2010-cu ildə "Əlavə təsir" və 2013-cü ildə çəkilmiş "Yazıçı" filmlərində maraqlı obrazlar yaratmışdı. Hər üç obraz aktyorun səhnədə olduğu kimi ekranda da bacarıq və istedad nümayiş etdirməsinin bariz nümunəsi idi.

Ağaxan həyatda həmişə hər yerə tələsən, narahat bir insan idi. Tələsə-tələsə gəldiyini və tələsə-tələsə də getdiyini çox görmüşdüm. Elə bil harasa gecikəcəyindən, harasa özünü çatdıra bilməyəcəyindən qorxurdu. Elə bil ona ayrılmış zamanın ona çatmayacağından qorxub, daha artıq tələsirdi. Tələsdiyi üçün bir oğul və bir qız balasının xeyir işlərini də çox tez etmişdi. İşinə tələsə-tələsə gəlib, evinə də tələsə-tələsə gedirdi. Tələsmək artıq onun xarakterinə və vərdişinə çevrilmişdi. Ona ayrılmış ömür payını da tələsə-tələsə yaşadı. Yaşamağına tələsdiyi kimi dünyasını dəyişməyinə də tələsdi, yaman tələsdi.

Ağaxan, mən sənin hər yerə tələsməyini normal qəbul etsəm də, bu dünyadan tez-tələsik köç etməyini heç cür qəbul edə bilmirəm. Sənin dünyanı tez-tələsik dəyişməyin tez oldu, çox tez oldu. Mən bu tələsməyini sənə bağışlaya bilməsəm də, artıq olan olmuşdu. Yeganə təsəllim səndən sonra qalan və heç vaxt məni tərk etməyəcək xoş xatirələrindir.

***İlham Namiq Kamal***
***Xalq artisti, "Şöhrət" ordenli***

# II Qarabağ müharibəsi qəhrəmanları - Tərlan və Sadəddin

**Müsahiblərimiz ötən ilin 44 günlük II Qarabağ müharibəsində Şuşa və Suqovuşan rayonları istiqamətindəki döyüşlərdə iştirak edən, Şəki rayonunun Baş Zəyzid kəndinin yetirmələri, 23 yaşlı cəsur əsgərlər - Həsənov Tərlan Rafiq oğlu və Bayramov Sadəddin Aydın oğludur.**

**Cabir Məmmədov:** Sizi salamlayıram. Ötən il xalqımızın və dünya ictimaiyyətinin yaddaşında tarixi qələbə ili olaraq qaldı. Ali Baş komandan, cənab İlham Əliyevin ardıcıl və uzaqgörən siyasəti, xalqımızın cəsur, qorxmaz igidlərinin rəşadəti sayəsində torpaqlarımız işğaldan azad oldu.

Tərlan sən də, dostun Sadəddin də Vətən uğrunda döyüşlərdə mərdlik göstərmisiniz, cəsurluq edərək hərb meydanında fərqlənmisiniz...

Tərlan! Mediada sənin barəndə müəyyən məlumatlar var. İstərdim ki, sən həyat yolunu və Qarabağ müharibəsinə yollanmağını bir daha bizə danışasan... Nəyə görə sənə döyüş yoldaşların "qumbara Tərlan" deyirlər?

**Tərlan Həsənov:** Mən də sizi salamlayıram. Məni və həm sinif yoldaşım, həm də məslək dostum olan Sadəddini studiyaya dəvət etdiyinizə görə təşəkkür edirəm.

Mən 16 iyul 1997-ci ildə Şəki rayonunun Baş Zəyzid kəndində dünyaya gəlmişəm. Kəndimizdəki tam orta məktəbdə Sadəddinlə eyni sinifdə təhsil almışam.

Daha sonra ali təhsil almaq qərarına gəldim və imtahan verərək, Azərbaycan Texniki Universitetinin "Avtomatika və kompüter texnikası" fakültəsinə qəbul edildim. 2014-2018-ci illərdə həmin universitetin bakalavr pilləsini "Proseslərin avtomatlaşdırılması, mühəndisliyi" ixtisası üzrə bitirmişəm. Ali təhsil aldığım illərdə informatikanın müasir tədrisi üsulları, proqramlaşdırma ilə maraqlanırdım, bu sahənin incəliklərinə bələd olmaq üçün müvafiq ədəbiyyat və praktiki təlimlərdə iştirak edirdim. Müəllimlərimlə ünsiyyətdə olarkən, bu sahənin daha da təkmil olması üçün yeni ixtiralarla maraqlanırdım, bir sıra şəxsi icadlarım və təkliflərim də vardı... Magistr təhsili almağı da düşünürdüm... Vətənin azad edilməsinin daha önəmli olması fikri məni rahat qoymurdu...

2019-cu ilin oktyabr ayında həqiqi hərbi xidmətə getdim. Hərbi xidmətimi bitirdiyim il əslində mən tərxis olunmalı idim... Lakin bildiyiniz kimi, 27 sentyabr 2020-ci ildə tarixi torpaqlarımızın azadlığı uğrunda müharibə başladı. Mən bu xəbərə çox sevindim. Ləyaqətsiz və şərəfsiz düşmənimizdən qisas almaq üçün fürsət yaranmışdı. Daim düşünürdüm ki, kaş ki, Ali Baş komandanın əmri ilə mən də könüllü olaraq cəbhəyə gedəydim...

Döyüş yoluma Goranboy rayonunun Gülüstan kəndi istiqamətində başladım və daha sonralar isə Tərtər rayonunun Talış kəndi və Suqovuşan rayonlarındakı müxtəlif yüksəkliklərdə davam etdirdim.

1 oktyabr 2020-ci ildə Tərtər rayonunun Talış kəndindəki Ağ uçuq adlı məntəqədə olan döyüş əməliyyatı zamanı komandirin əmrinə əsasən düşmən mövqeyini məhv etməli idik. Mən döyüş yoldaşlarımla birgə uğurla irəlilədikcə, düşmən bunu anlayırdı və hiyləgər planlar etməyə, tələ qurmağa çalışırdı. Lakin biz bu tələni sezmişdik. Ona görə də ehtiyatı əldə verməməyə çalışırdıq, mövqeləri qoruyurduq.

Ağ uçuq məntəqəsindəki 20 nəfərə yaxın döyüş yoldaşlarımla birgə hücum əməliyyatı yerinə yetirərkən, bizim olduğumuz əraziyə əl qumbarası atıldı... Həmin anda mən düşündüm ki, döyüş tapşırığımız yarıda qalmamalıdır, mən şəhid olsam da, dostlarımı xilas etməliyəm! Bu düşüncə ilə mən həmin qumbaranın üzərinə atıldım və bununla qəlpələrin ətrafa yayılmasının qarşısını aldım... Hiss etdim ki, qumbara partladı, şok vəziyyətinə düşdüyümü xatırlayıram.

Döyüş yoldaşlarım məni hərb meydanından çıxara bildilər, aldığım yaraları hərbi məntəqəmizdəki həkim sağaltdı... Sonradan bildim ki, Tərtər rayonu azad edilib. Bu xəbərə çox sevindim, demək ki, etdiyim cəhd boşuna deyilmiş...

Döyüş yoldaşlarım indi də necə sağ qaldığımı xatırlayıb, o anları yad edirlər...

**Cabir Məmmədov:** Beləliklə sən "Qumbara Tərlan" adını aldın! Cəsarətli hərəkətinlə dostlarını xilas etmisən! Həqiqətən də səni Allah qoruyub. Bundan sonrakı planların necədir?

Tərlan Həsənov: Bəli, hərbi xidmətimə davam etmək üçün yenidən o bölgəyə gedəcəyəm! Hazırda Qarabağ bölgəsindəki əsgər yoldaşlarım və mən müsbət əhval ruhiyyədəyik, döyüş ruhu bizi hələ də tərk etməyib ... Zəfər xəbərləri bizi çox sevindirdi.

**Cabir Məmmədov:** Sağ salamat gedib qayıdasan Tərlan!

Sadəddin! Sən döyüş bölgəsində qolunu ağır yaralamısan... Həyat və döyüş yolun barədə danışmağı xahiş edirik...

**Sadəddin Bayramov:** Mən də sizi salamlayıram və aktual məsələləri işıqlandırdığınız üçün sizə təşəkkür edirəm.

17 fevral 1997-ci ildə Şəki rayonunun Baş Zəyzid kəndində dünyaya gəlmişəm. Orta təhsilimi kəndimizdəki tam orta məktəbdə almışam.

5 aprel 2015-ci ildə hərbi xidmətə yollanmışam. 2016-cı ildə N saylı hərbi hissənin əsgəri olaraq aprel döyüşlərində iştirak etmişəm. O döyüşlərdə Mirzəyev Nurəddin Etimad oğlu, İsgəndərov Nicat, Quliyev Səyyar, Hüseynov Əlvan və digər əzizlərim şəhid adını qazanıblar... Bütün bu olanlar məni dərindən sarsıtdı, düşmənə nifrətim artdı. Bu səbəbdən daim Vətən torpaqlarının azad edilməsi niyyəti daim məni narahat edirdi...

2020-ci ildə səfərbərlik elan edildə, könüllü olaraq hərbi hissəyə getdim və həmin ilin 29 sentyabrda Qarabağ uğrunda döyüşlərə qatılmaq üçün xidmətə yola düşdüm. Həmin bölgədə böyük fəxr hissi və həvəslə hərb sənəti və döyüş taktikasının təlim edildiyi hərbi kurslarda iştirak etdim.

Topxana, Daşaltı, Şuşa, Xankəndi istiqamətindəki döyüşlərdə iştirak etmişəm.



Sadəddin Bayramov, müxbir Cabir Məmmədov, Tərlan Həsənov

8 noyabr 2020-ci ildə Xankəndi uğrunda olan döyüşlərdə ağır yaralandım. O an çox aydın yadımdadır... Gözlərim qaralırdı, "kəlmeyi-şəhadət" gətirdim, lakin qəlbimdə rahat idim... Sanki çoxdan arzuladığın niyyətimə yetmişdim...

Sonradan bildim ki, əsgər yoldaşım Orxa Şəkili məni döyüş meydanından çıxarıbmış... Uzun müddət hospitalda müalicə alsam da, sağ qolumda ağır zədə qaldı... Sonradan tərxis edildim...

**Cabir Məmmədov:** Allah sizlərin daim yardımçısı olsun! Sizin kimi oğullar döyüş yolu ilə gənc nəslimizə nümunəsiniz və bizim fəxrimizsiniz!

Bildiyim qədər sən "Şuşanın azad olunmasına görə" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə, Tərlan isə Fəxri Fərmanla təltif edilmisiniz. Sizin ən böyük mükafatınız isə xalqın qəlbindəki yerinizdir!

Sizin kimi qəhrəmanların müasir şahidləri olan bizlərin borcu isə bu şücaəti qələmə alaraq, yaddaşlara həkk etməkdir.

# Şikəst təfəkkür, saxta əməl...

## *Əli Kərimli öz şəxsi ambisiyaları naminə gənclərə siyasi alət kimi baxır*

***Bu fikir ictimaiyyət tərəfindən dəfələrlə vurğulanıb - təfəkkürü şikəst olanlar, ancaq iyrənc və saxta əməllər sahibi olur. 28 il "müxalifətçiyəm" deyənlərin keçdiyi yolu araşdırsaq görərik ki, söyüş, təhqir, əxlaqsızlıqlarla dolu dırnaqarası siyasi mübarizə metodları radikal müxalifətin əsas fəaliyyət prinsipinə çevrilib.***

Bu istər seçki kampaniyaları dövründə, istər ölkəmizdə keçirilən yüksək tədbirlər ərəfəsi, istər dünya dövlətlərinin "soyuq müharibə" ilə - koronavirusla mübarizə apardığı zaman, istərsə də 30 illik doğma dədə-baba torpaqlarımızın həsrətinə düz 44 gün ərzində apardığımız haqq yolunda ədalətin, bütövlüyümüzün və nəhayət, Qarabağ Azərbaycandırımıza qovuşmağımıza bütün türk dünyası sevincimizə şərik olduğu halda, ermənıyə yalaqlıq edən radikal müxalifət sosial şəbəkələrdə naqislik, satqınlıq və alçaqlıq edərək hakimiyyətə, ictimaiyyət nümayəndələrinə, ziyalılara, eləcə də onların şər-böhtan kampaniyalarına dəstək verməyən insanlara qarşı qeyri-əxlaqi davranışlar, təhqirlər deyirlər.

Xüsusilə də, bu alçaq və cinayətkarları tanımaq o qədər problem deyil. Çünki cəmiyyətə özünü "ana" müxalifət kimi sırımağa çalışan satıb- satılan Əli Kərimliyə və onun silahdaşlarının sırasına nəzər yetirmək kifayətdir - Qənimət Zahid, Azər Əhmədov, Natiq Ədilov, Xədicə İsmayıl, Türkel Kərimli, Cəmil Həsənliy, Arif məmmədov, Sevinc Osmanqızı, Vidadji İskəndərli və bu satqınların təmsil olunduğu düşərgənin öz əxlaqsızlıqlarını siyasi mübarizə səhnəsinə daşıması ola bilsin ki, onlar üçün normal haldır. Araşdırmalar göstərir ki, radikal düşərgə təmsilçiləri öz güclərini Avropadakı



məlum antiazərbaycançı şəbəkədən alırlar və fəaliyyətlərini də buna uyğün koordinasiya edirlər. Əxlaqı korlanmış "sosial media qəhrəmanları" Avropada oturub Azərbaycan əleyhinə təbliğat aparırlar və radikal düşərgə təmsilçilərinə konkret istiqamət verirlər. Amma maraqlısı odur ki, xaricdəki siyasi buqələmunlar etiraz formalarını açıq və sivil formada göstrərmək üçün məkan olaraq izdihamlı yerləri yox, ayaqyollarını seçirlər. Ən iyrənc isə, Əli Kərimlinin "ayaqyolu müxalifəti"nə də rəhbərlik etməyi ilə "qürur" duymasıdır. Bu təəccüb də doğurmur. Onlar üçün müqəddəs dəyərlər artıq yoxdur. Əxlaq problemləri mövcud olan bu şəbəkənin konkret missiyası: "bizi dəstəkləməyənlər düşmənlərimizdir". Budur, əxlaqsızlıq, mənəviyyatsızlıq.

### Əli Kərimliyə görə "varlanmaq üçün xəyanətin qiyməti"yüksəkdir

Ömər Xəyyama görə, "İnsanın ruhu və əxlaqı nə qədər alçaq olarsa, burnunu bir o qədər dik tutar". Səbəb aydındır - maliyyə-pul arqumenti? Satqın yalnız məntiqləmi düşünür? Bu sualları sözgəlişi demədim. Çünki işin kökü yalnız acgözlük və pul deyil. Ancaq AXCP sədri Əli Kərimliyə görə "qazanmaq" yox, varlanmaq üçün xəyanətin qiyməti "yüksəkdir". Çünki satqın üçün hər şey - satlıq maldır. Əli Kərimli kimilər üçün satıb-satılmaq bir qurtum su içmək qədər asandır. Hansı əsasla bu gün igidlərimizin qanı, canı bahasına əldə etdiyi bu Qələbəyə hansı haqqla kölgə salırsan? Ancaq zaman gələcək, bu böhtanlarına görə dar ağacından asılacaqsan. O zaman xalqın qarşısında dar ağacından asılmadan əvvəl xalq suallar edəcək: Bu 28 il müddətində heç bir yerdə çalışmayan, heç bir ictimai-siyasi fəaliyyətlə məşğul olmayan Əli Kərimli dolanışığını kim təmin edir? Övladlarının dünyanın bahalı ölkələrinin nüfuzlu ali məktəblərindəki təhsil haqları hansı vəsaitlə ödənilirdi? Oğlu Türkel Kərimlinin dünyanın ən bahalı restoranlarındakı əyləncə məclislərinin haqqını necə ödəyir? Bu suallar ortaya qoyulacaq və cavabı da o olacaq.

### Gəncləri vətənpərvərlikdən uzaq bir anlamda tərbiyə edən, dövlətə, xalqa xəyanət yolunu tutduran bələlərinin yalnız və yalnız bir adı var: mənəviyyatsızlar

Yenə də Əli Kərimli döyüşdə əldə etdiyimiz Qələbədən "qaşınma" virusuna tutularaq sosial şəbəkələrdən öz şəxsi ambisiyaları naminə gənclərə döyüşə getməməyə çağırışlar edir. Əslində, radikal müxalifətin gənclərə siyasi alət kimi baxması yeni bir tendensiya deyil. Hələ ötən əsrin 90-cı illərində gənclərimizin bir qismi AXC-Müsavat deyilən qaragürühçuların çirkin əməllərinin həyata keçirilməsinə istiqamətləndirilmişdi. Həmin dövrdə gənclər müxtəlif kriminal və özbaşınalıq fəaliyyətlərinə cəlb edilmiş, cinayətlərin törədilməsinə sürüklənmişdilər. Bu gün bu gənclər anlamalıdırlar ki, Əli Kərimli, İsa Qəmbər, Cəmil Həsənli, Sevinc Osmanqızı, Gültəkin Hacıbəyli, Vidadi İskəndərli, Qənimət Zahid, Arif Məmmədov və... kimilər yalnız xəyanət, satqınlıq, riyakarlıq, dövlətə və xalqa qarşı düşmənçilik dərsi keçə bilərlər. Bu baxımdan gənclərin sağlam düşüncədən, real yanaşmadan təcrid edib, onların beynini öz çirkin niyyətlərindən irəli gələn əsassız fikirlərlə zəhərləmək Əli kərimlilərin əsl simasının açıqlanmasında yardımçıdır. Ruslan Bəşirli ssenarisini xatırlamaq kifayətdir. Ə.Kərimli bu gün də gənclərə müxtəlif şirnikləndirici vədlər verərək sosial şəbəkələrdə iqtidar gəncləri ilə həmin gənclərin qarşıdurmasını yaradır. Məqsəd budur ki, Əli Kərimli öz xarici himayədarlarından tapşırıq alıb ki, bu cür gedişlər edərək bəzi gənclər qanunlarımıza zidd hərəkət etsin və hüquq-mühafizə orqanlarının əməkdaşları həmin gəncləri dəvət edib qanunlarımıza zidd hərəkət etdiklərini onlara xatırlatmalı olsunlar və bu məqamdan da Əli Kərimli yararlanıb "siyasi məhbus" oyunundan məharətlə istifadə etsin. Bu cür gənclərimiz anlamalı, bilməlidir ki, Əli Kərimli o gənclərdən öz mənafeyi üçün istifadə edir. Və bununla da gəncləri qələbəyə yox, həbsxanaya göndərir. Çünki vicdan, vətəndaşlıq təəssübkeşliyi, şikəst təfəkkür, saxta əməl sahibi olan Əli Kərimli kimi ünsürlərdən hər çirkin əməli gözləmək mümkündür. Necə deyərlər: qozbeli qəbir düzəldər.

**Rəfiqə HÜSEYNOVA**

# Səhiyyə sistemindəki inkişaf insanların sağlamlığının təminatıdır

**“Son 17 il ərzində 750-dən çox xəstəxana ya yenidən tikilib, ya da əsaslı şəkildə təmir edilib. Səhiyyə sistemimizin bu xəstəxana və tibb müəssisələri fondu demək olar ki, indi ən yüksək standartlara cavab verir. Bundan sonra, əlbəttə ki, biz, ilk növbədə, səhiyyə sisteminin təkmilləşdirilməsi və tibbi xidmətin xüsusilə indiki dövrdə keyfiyyətini artırmaq üçün əlavə addımlar atacağıq”.**

Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Abşeron Rayon Mərkəzi Xəstəxanasında yaradılan şəraitlə tanışlıqdan sonra Azərbaycan Televiziyasına verdiyi müsahibəsində bildirib. Dövlət başçısı qeyd edib ki, yeni tikilmiş bu xəstəxana bizim səhiyyə sahəsindəki fəaliyyətimizi əks etdirir: “Bildiyiniz kimi, son illərdə bir çox xəstəxanalar tikilib və onların da müəyyən standartları var, həm memarlıq baxımından, həm də avadanlıqlarla təchizat baxımından. Ona görə əminəm ki, bu xəstəxanada vətəndaşlara keyfiyyətli tibbi xidmət göstəriləcək. Çünki bütün müasir avadanlıqlar burada quraşdırılıb”.

## “SƏHİYYƏ SİSTEMİNİN MADDİ-TEXNİKİ BAZASININ YARADILMASI, MÜASİRLƏŞDİRİLMƏSİ BAŞLICA VƏZİFƏ İDİ”

Bildiyimiz kimi, son illər sosial sahədə ardıcıl şəkildə həyata keçirilən layihələr dövlətimizin əhalinin maddi rifah halının yaxşılaşdırılması və onların sosial qayğılarla əhatə olunmalarına istiqamətlənib. Səhiyyə sektorunun inkişafı ilə bağlı mühüm islahatların həyata keçirilməsi də sosial siyasətin başlıca istiqamətlərindən birini təşkil edir. Bu gün əminliklə demək olar ki, ölkəmizdə səhiyyənin güclü maddi-texniki bazası yaradılıb. Son dövrlərdə çox sayda yeni tibb ocağı inşa edilib, mövcud xəstəxana və tibb mərkəzləri əsaslı şəkildə bərpa olunub. “Səhiyyə sisteminin maddi-texniki bazasının yaradılması, müasirləşdirilməsi başlıca vəzifə idi” deyən Cənab Prezident vurğulayıb ki, “Mən xatırlayıram, 2004-cü ildə Prezident vəzifəsinə seçiləndən sonra bəyan etmişdim ki, biz qara qızılı insan kapitalına çevirməliyik. Sözün düzü, o vaxt bizim qara qızılımızın həcmi o qədər də böyük deyildi, Bakı-Tbilisi-Ceyhan neft kəməri hələ inşa edilməmişdi, ancaq biz bütün bu işləri artıq proqnozlaşdıra bilirdik. Bilirdik ki, bizi böyük neft hasilatı dövrü gözləyir. Ona görə neftdən əldən edilən gəlirləri insan kapitalına yönəltmək mənim başlıca vəzifəm idi. Dediyim kimi, bu vəzifə artıq bütövlükdə icra edildi. Bütün bölgələrdə ən müasir xəstəxanalar, poliklinikalar, diaqnostika mərkəzləri fəaliyyət göstərir”.

Tibb müəssisələri ən müasir tibbi avadanlıq və qurğularla təchiz edilib. Bütün bunlarla yanaşı, tibbi heyətin peşəkarlığının artırılmasına da dövlət səviyyəsində xüsusi diqqət göstərilib. Kifayət qədər səriştəli, savadlı kadr potensialı formalaşıb. Səhiyyə islahatlarının uğurla davam etdirilməsi birbaşa ölkə Prezidentinin diqqəti və nəzarəti altındadır. Ölkəmizin bütün regionlarında müasir tibb ocaqları fəaliyyətdədir və tibb xidmət göstərmək üçün həm kadr potensialı, həm də maddi-texniki baza var. Bu tibb ocağında quraşdırılan avadanlıq istər müalicə, istərsə də müayinə işini ən yüksək səviyyədə və dəqiqliklə yerinə yetirməyə hərtərəfli imkan verir. Bu gün təsadüfi deyil ki, ölkəmizdə ən ağır tibbi əməliyyatlar uğurla həyata keçirilir. Bu məsələdə şübhəsiz ki, müasir tibb ocaqlarının yaradılması mühüm yerlərdən birini tutur. Bu işlərin miqyası ildən-ilə daha da genişlənir.

Azərbaycan Prezidentinin müvafiq Sərəncamı ilə inşa olunan Abşeron Rayon Mərkəzi Xəstəxanası dünyanın aparıcı ölkələrinin şirkətlərinin son elmi-texniki yeniliklərə əsaslanaraq hazırladığı tibb avadanlığı və qurğuları quraşdırılıb. Yaponiya, Koreya





Respublikası, İtaliya və Türkiyə istehsalı olan ən zəruri avadanlıqla təchiz edilib. Xəstəxanada cərrahiyyə, terapiya, pediatriya, reanimasiya, dializ və digər şöbələr, həmçinin laboratoriyalar fəaliyyət göstərəcək. Bu binaya Abşeron Rayon Mərkəzi Xəstəxanasının nəzdində olan mərkəzi xəstəxana, Abşeron rayon poliklinikası, Abşeron rayon uşaq poliklinikası və təcili və təxirəsalınmaz tibbi yardım şöbəsinin köçürülməsi nəzərdə tutulub. Dövlət başçısının bildirdiyi kimi, “Bunun üstünlüyü, eyni zamanda, ondadır ki, bu vaxta qədər müxtəlif tibb müəssisələri fərqli-fərqli yerlərdə məskunlaşmışdı, amma indi burada artıq həm xəstəxana, poliklinika, uşaq poliklinikası, doğum şöbəsi, təcili tibbi yardım şöbəsi - bütün şöbələr bir yerdə fəaliyyət göstərəcək. Əlbəttə ki, bu, insanların rahatlığı üçün də çox önəmlidir.” Görülən bütün bu işlərin isə bir məqsədi var ki, Azərbaycan vətəndaşları hərtərəfli tibbi xidmətlə təmin olunsun.



## “PANDEMİYA İLƏ MÜBARİZƏDƏ AZƏRBAYCAN İLK GÜNLƏRDƏN QABAQLAYICI TƏDBİRLƏR GÖRƏRƏK, HESAB EDİRƏM Kİ, İSTƏDİYİNƏ NAİL OLDU”

Əlbəttə, əminliklə deyə bilərik ki, son illərdə ölkəmizdə səhiyyə sisteminin təkmilləşdirilməsi sahəsində böyük işlər görülüb, 750-dən çox tibb müəssisəsi tikilib və ya əsaslı şəkildə təmir edilib. Bu işlər hələ də davam etdirilir. Təbii ki, yeni xəstəxanaların açılışı yeni iş yerlərinin də olması deməkdir. “Burada 200-dən çox həkim və bütövlükdə 600-dən artıq tibb işçisi çalışacaq və təbii ki, onların da iş şəraiti müsbətə doğru dəyişir. Əminəm ki, burada göstəriləcək tibbi xidmət vətəndaşların sağlamlığını təmin edəcək, bərpa edəcək” deyən Prezident qeyd edib ki, xəstəxananın inşası bir daha onu göstərir ki, bu sahədəki fəaliyyətimiz ardıcıl şəkildə davam etdirilir və Abşeron rayonunda da müasir xəstəxana artıq fəaliyyət göstərir”.

Dövlət başçısına ünvanlanan “bu xəstəxananın açılışının məhz pandemiya dövründə edilməsinin də bir xüsusi əhəmiyyəti var. Yəni, qlobal pandemiya bir ildən artıqdır ki, davam edir. İndiyə qədər Azərbaycanda bu virusla mübarizədə görülən işləri necə qiymətəndirirsiniz?” sualını Cənab Prezident belə cavablandırıb: “Bəli, əlbəttə, bu xəstəxananın açılışının pandemiya dövrünə təsadüf etməsi əlamətdar hadisədir. Amma təbii ki, bu xəstəxananın tikintisi pandemiyaya qədər başlamışdı və biz bu xəstəxanaların tikilməsi ilə özümüzü mümkün olan sürprizlərdən sığortalamalı idik. Çünki heç kimin ağlına gələ bilməzdi ki, pandemiya baş verəcək. Ancaq başqa hansısa xoşagəlməz hadisələr baş verə bilərdi. Ona görə bizim xəstəxana fondu buna hazır olmalı idi. Pandemiya ilə mübarizədə Azərbaycan ilk günlərdən qabaqlayıcı tədbirlər görərək, hesab edirəm ki, istədiyinə nail oldu”.

## “İNDİ BİZDƏ XƏSTƏXANA FONDU TAM İMKAN VERİR Kİ, XƏSTƏLİKLƏ BAĞLI BÜTÜN MƏSƏLƏLƏR HƏLL OLUNSUN”

Ölkəmizdə əhalinin sağlamlığının qorunması Azərbaycan Prezidenti İlham Əliyevin ciddi nəzarəti altındadır. Koronavirusa yoluxmuş bütün pasiyentlər Azərbaycanın ən yaxşı xəstəxanalarında dövlətin hesabına müalicə olunur. Maska fabrikinin və qoruyucu kombinezonların istehsalı müəssisəsinin açılışı dövlətimizin əhalinin sağlamlığının qorunması məsələsinə nə dərəcədə diqqətlə və həssas yanaşmasını göstərir və sübut edir ki, Azərbaycanda dövlət tərəfindən bu istiqamətdə konkret və ardıcıl tədbirlər görülür. Yeni Klinika istifadəyə verilib. Bununla bərabər, modul tipli 13 xəstəxana quraşdırıldı. “İndi bizdə xəstəxana fondu tam imkan verir ki, xəstəliklə bağlı bütün məsələlər həll olunsun və həm palatalar, həm reanimasiya palataları kifayət qədərdir” deyən dövlət başçısı bildirib ki, son həftələr ərzində dövlət siyasətinin nəticəsidir ki, müsbət dinamika müşahidə olunur, sağalanların sayı xəstələnənlərin sayından xeyli çoxdur: “Hesab edirəm ki, vaksinasiya başladığı üçün bu sahədə daha da uğurlu addımlar atılacaq. Məhz buna görə biz indi yumşalma mərhələsinə qədəm qoymuşuq. Biz il ərzində rejimi gah yumşaldırdıq, gah sərtləşdirirdik, vəziyyətə uyğun şəkildə addımlar atırdıq ki, insanların sağlamlığını qoruyaq, eyni zamanda, insanlar üçün lazım olmayan halda əlavə çətinliklər yaratmayaq. Yəni, biz daim bu məsələyə çox həssaslıqla yanaşmışıq ki, bu iki vacib məsələni həll edək - insanların sağlamlığı, onların rahatlığı və necə deyərlər, mənəvi durumu”.

Əlbəttə ki, dövlət başçısı tərəfindən pandemiya ilə mübarizədə sistemli tədbirlərin həyata keçirilməsi öz bəhrəsin verir və müsbət dinamika müşahidə olunur. Ölkəmizdə yoluxma sayının aşağı düşməsi bunu deməyə əsas verir. Belə ki, koronavirus infeksiyasından sağalanların sayında müsbət dinamika müşahidə olunur. Sağalan xəstələrin sayı gündəlik yoluxma hallarını xeyli üstələyib. Təbii ki, vaxtında koronavirus xəstələrin müalicəsi üçün daha çox xəstəxanaların ayrılması, modul tipli xəstəxanaların istifadəyə verilməsi, həkimlərin fədakarlığı bu müsbət dinamikaya səbəb olmuşdu. Bu gün ölkəmizdə mərhələli şəkildə təsirli tədbirlər həyata keçirilir və vəziyyət nəzarət altındadır. Epidemioloji vəziyyət dəyərləndirilir, vəziyyətə uyğun olaraq da addımlar atılır və ölkəmizdə yumşaldılma tədbirləri həyata keçirilir.

## “AZƏRBAYCAN CƏNUBİ QAFQAZDA İLK OLARAQ ARTIQ VAKSİNASİYA İŞLƏRİNƏ START VERDİ”

Bildiyimiz kimi, artıq qabaqcıl, inkişaf etmiş dünya ölkələrində “SOVİD 19” pandemiyasına qarşı vaksinləmə prosesinə başlanılıb. Artıq ölkəmizdə də buna başlanılıb. Cənab Prezident ölkəmizdə vaksinləmə prosesinin başlanılmasına gəlincə görülən işləri müsbət qiymətləndirərək bildirib ki, Azərbaycan Cənubi Qafqazda ilk olaraq artıq vaksinasiya işlərinə start verdi: “Eyni zamanda, yerləşdiyimiz bölgədə Azərbaycan birincilər sırasındadır. Onun nəticəsidir ki, pandemiyanın ilk günlərindən işlər düzgün qurulmuşdur, bütün lazımi addımlar atılmışdır, beynəlxalq təşkilatlarla təmaslar qurulmuşdur. Biz COVAKS təşəbbüsünün üzvüyük və COVAKS xətti ilə müxtəlif vaksinləri ölkəmizə gətirəcəyik... Yanvarın 18-dən başlayaraq Azərbaycanda vaksinasiya başlamışdır. Müqayisə üçün deyə bilərəm ki, Avropa İttifaqında bu, keçən il dekabrın 18-də başlamışdır. Yəni, bir aydan sonra artıq Azərbaycan vətəndaşları bu vaksinləri alırlar, peyvənd olunurlar, əlbəttə ki, bu, vaksinasiya sahəsində də bizim səmərəli işimizin təzahürüdür”.

Təbii ki, bu gün səhiyyə sistemində bu inkişaf mövcud olmasaydı, mövcud çətinliklə mübarizədə çətinlik yarana bilərdi. Azərbaycan hər zaman olduğu kimi, bu gün də öz vətəndaşının yanındadır.

*Nəzakət ƏLƏDDİNQIZI*

# “Vətənimizin gələcəyi olan gənclər”

*Bu mövzuda YAP Masallı rayon təşkilatı onlayn tədbir keçirib*

**YAP Masallı rayon təşkilatı 2 fevral-Azərbaycan gəncləri gününə həsr etdiyi “Vətənimizin gələcəyi olan gənclər” mövzusunda onlayn tədbir keçirib. Onlayn tədbirdə Vətən müharibəsi iştirakçıları, qazilər və rayonun fəal gəncləri iştirak etmişlər. Onlayn tədbiri giriş sözü ilə YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev açaraq Vətən müharibəsində şəhid olanların əziz xatirəsini 1 dəqiqəlik sükutla yad etmişdir.**





Gəncləri 2 fevral-Azərbaycan Gəncləri günü münasibəti ilə təbrik edən Seyfəddin Əliyev bildirmişdir ki, Azərbaycan gəncliyi ölkənin daxili ictimai-siyasi, həmçinin sosial-iqtisadi və digər sferalarında aktiv fəaliyyət göstərir, intellektual imkanları və kreativliyi ilə dövlətçiliyimizin möhkəmləndirilməsi işinə öz töhfəsini verir: “Azərbaycan gəncliyi ölkəmizi beynəlxalq aləmdə də layiqincə təmsil edir, dövlətimiz haqqında həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılmasında, mədəni-mənəvi irsimizin təbliğ olunmasında fəallıq nümayiş etdirir. Məhz bütün bunlar gəncliyimiz üçün dövlətimiz tərəfindən yaradılmış əlverişli imkanlar, verilmiş mükəmməl təhsil və özünü təsdiqləmək üçün ideal məkan əsasında ərsəyə gəlib. Müasir Azərbaycan gəncliyi unutmur ki, onlar müstəqil dövlətin azad gəncləri olaraq, bugünkü uğurlara məhz ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu və hazırda Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasi kurs nəticəsində sahib olublar”.

Seyfəddin Əliyev vurğulamışdır ki, 44 günlük Vətən müharibəsində “dəmir yumruq” hesabına qazandığımız qələbə sayəsində tarixi torpaqlarımıza qayıdırıq. Vətən müharibəsində qazanılan tarixi zəfərdə Masallı gəncləri də fəal iştirak etmişlər. Onlardan şəhid olanları, Vətən torpağının azadlığı naminə sağlamlığını itirənlər də var. Partiyanın rayon təşkilatı eləcədə rayonun qədir bilən camaatı Qarabağın fatehləri ilə fəxr edir, şəhid ailələrini, qazi olanları bir an belə diqqətdən kənarda qoymurlar.

Seyfəddin Əliyev qeyd etmişdir ki, işğaldan azad edilən ərazilərimizdə Azərbaycan dövlətinin əsas prioritetlərindən biri quruculuq və yenidənqurma işlərinə start vermək oldu. Qısa zamanda Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın işğaldan azad edilmiş ərazilərə, xüsusi özəlliyi ilə seçilən Şuşa şəhərinə səfər etmələri istər siyasi, istərsə də mənəvi baxımdan böyük əhəmiyyət kəsb edir.

YAP Masallı rayon təşkilatı Gənclər Birliyinin sədr müavini Dilbər İbayeva çıxışında birdirmişdir: “Azərbaycan dövlət quruculuğu sahəsində gənclərin müstəsna rolunu və 1996-cı il fevralın 2-də müstəqil Azərbaycan Respublikası gənclərinin birinci forumunun keçirildiyini nəzərə alaraq ümummilli liderimiz Heydər Əliyev 1 fevral 1997-ci ildə “2 Fevral - Azərbaycan gəncləri günü elan edilməsi haqqında” Sərəncam imzalayıb. Sərəncam qüvvəyə mindiyi gündən hər il olduğu kimi bu il də Azərbaycan Gəncləri günü qeyd edilir”.

Ölkəmizdə gənclərə göstərilən diqqət və qayğıdan danışaraq gənclər siyasətinin dövlət siyasətinin prioritet istiqamətinə çevrildiyini bildirən Dilbər İbayeva vurğulayıb ki, Azərbaycan gənclərinin dünyanın aparıcı ali məktəblərində dövlətin dəstəyi ilə təhsil almaları, ixtisaslı kadrlar kimi ölkənin daha da qüdrətlənməsi istiqamətində fəaliyyət göstərmələri dövlətin onlara olan etibarının əyani göstəricisidir. Vaxtilə gənclərimizi xarici ölkələrin ali təhsil müəssisələrinə göndərməklə Azərbaycanın dünyada tanınması və təbliği üçün zəmin yaradan Ulu Öndərin ənənəsi bu gün Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. İndi həmin kadrlar bu gün Azərbaycanın təcrübəli mütəxəssislərə olan tələbatını tam şəkildə ödəyirlər.

Vətən müharibəsində qazanılan tarixi zəfərdə öz payı olan gənc YAP üzvü Ceyhun Qurbanov çıxış edərək qeyd etmişdir ki, 30 ilə yaxın işğal altında qalan torpaqlarımız Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun qüdrəti və qətiyyəti nəticəsində azad olundu. 44 günlük Vətən müharibəsi zamanı dövlət-xalq-ordu birliyinin nə qədər əhəmiyyətli olduğuna şahidlik etdik. Təbii ki, Vətən savaşında düşmən üzərində parlaq qələbənin əldə olunmasında Azərbaycan gəncliyi xüsusilə fərqləndi.

Sonra YAP Masallı rayon təşkilatı Gənclər Birliyinin sədri Bəxtim Qarayev gənc könüllülərdən Əsra Yusifli və başqaları çıxış edərək qeyd etmişlər ki, bu gün Azərbaycan gəncliyinin önündə böyük qapılar, yollar açılıb. Gəncliyə göstərilən dövlət qayğısı sabaha və uğurlara hesablanan bir siyasətdir və bu siyasət sağlam və intellektual nəslin formalaşmasına xidmət edir. Bütün bunlar isə Azərbaycan gəncliyinin sabahına daha böyük inamla baxmağa əsas verir. Dövlətimizin bütün sahələrdə həyata keçirdiyi uğurlu və məqsədyönlü siyasət nəticəsində Azərbaycan gəncliyi xoşbəxt və firavan gələcəyə doğru addımlamaqdadır.

Tədbirin sonunda 2 fevral-Azərbaycan Gəncləri günü münasibəti ilə bir qrup gənclərə qiymətli hədiyyələr və fəxri fərmanlar verilmişdir.

***Rəfiqə***

# DTX sosial şəbəkələrdə yalan xəbər paylaşan şəxsi müəyyən etdi

Son günlərdə sosial şəbəkələrdə Azərbaycanda koronavirusun üçüncü dalğasının daha qorxulu və acınacaqlı olacağı, bu mərhələdə uşaqların kütləvi yoluxacağı və onlar arasında çoxsaylı ölüm hallarının baş verəcəyi, eləcə də xəstə uşaqların qəbulu üçün xəstəxanalarda hazırlıq işlərinin aparıldığı barədə səs yazısı yayılmışdır. SİA-nın Dövlət Təhlükəsizlik Xidmətinin rəsmi saytına istinadən xəbər verir ki, həmin səs yazısı həkim tərəfindən paylaşıldığından, vətəndaşlar arasında vahimə və təşviş doğurmaqla yanaşı, cəmiyyətdə dövlətin koronavirusla mübarizə tədbirlərinə inamsızlığa şərait yaratmışdır.



Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən aparılmış araşdırmalar nəticəsində vətəndaşlar arasında çaşqınlığa və əsassız narahatlığa səbəb olmuş həmin xəbəri paylaşan şəxsin Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunun həkimi, hazırda koronaviruslu xəstələrin müalicəsi ilə əlaqədar Qobustan Rayon Mərkəzi Xəstəxanasına ezam olunmuş, 1974-cü il təvəllüdlü Məcidova İlahə Telman qızı olduğu müəyyən edilmişdir. İlahə Məcidova özünün səhv mülahizələrinə əsaslanan səs yazısını paylaşmasından peşman olduğunu, koronavirus pandemiyası ilə əlaqədar indiki həssas bir dönəmdə bu hərəkətinin doğura biləcəyi ağır nəticələr barədə düşünmədiyini etiraf edərək ictimaiyyətdən üzr istəmişdir.

İlahə Məcidovanın məsuliyyətə cəlb edilməsi məsələsi qanunvericiliyə uyğun qaydada həll olunacaqdır. Bir daha sosial media təmsilçiləri və sosial şəbəkə istifadəçilərindən koronavirus epidemiyası ilə bağlı məlumatları bölüşərkən diqqətli olmağı, qeyri-rəsmi və dəqiqləşdirilməmiş xəbərlərin yayılmasına yol verməməyi, yalnız aidiyyəti dövlət qurumlarının məlumatlarına etibar və istinad etməyi xahiş edirik.

# “Beşinci kolon” iflasa məhkumdur”

“Azərbaycanda “beşinci kalon” deyilən bir toplum yoxdu. Bu, mənim şəxsi qənaətimdir. Çünki “beşinci kalon”, vaxtilə İrlandiyada, Rusiyada və bir sıra digər ölkələrdə olduğu kimi, təşkilatlanmış, formalaşmış struktura malik olur və bir qüvvəyə çevrilərək hakimiyyət üçün gerçək təhlükəyə çevrilir. Bunun üçün cəmiyyətdə iqtidardan, hakimiyyətdən narazı qüvvələrdən istifadə olunur və bu narazı qüvvələr mütləq çoxluq təşkil edərsə istəklərinə nail ola bilir”. “Azadlıq Hərəkatçıları” Birliyinin sədri Təhmasib Novruzov “Səs” qəzetinə açıqlamasında bildirib.



Onun sözlərinə görə, Qarabağda tarixi qələbə xalqın tam əksəriyyətinin, deyərdim 90-95 faizinin indiki iqtidara inamını qat-qat artırıb. Belə bir şəraitdə, nəinki “beşinci kalon”un məqsədlərinə nail olmasından, heç yaranıb formalaşa bilməsindən də söhbət gedə bilməz: “İndi Qarabağdakı tarixi qələbəmiz, hərbi əməliyyatlar dayandıqdan sonra diplomatik savaşda əldə etdiyimiz inanılmaz nailiyyətlər həm daxildəki bəzi qüvvələri, həm də xaricdəki anti-Azərbaycan şəbəkələri qıcıqlandırır və bu qıcıq da onları danışdırır. Həm də heç bir reallığa, gerçəkliyə əsaslanmayan çıxışları ilə özləri haqqında mənfi rəy formalaşmasına təkan vermiş olurlar. Nəticədə xalq həqiqəti dərk edir və hakimiyyətin, belə demək mümkünsə, ətəyindən daha möhkəm yapışır. “Beşinci kolon” isə iflasa məhkumdur. Bütün bunlara görə hesab edirəm ki, Azərbaycanda heç bir “kalon”un varlığından danışmağa əsas yoxdur. Bəzi cılız fəaliyyətlə hakimiyyəti gözdən salmaq cəhdi gösərənlər isə indiki hakimiyyətin yox, özlərinin olmayan nüfuzlarına zərbə vururlar”.

***Gülyana***

# “Məmur vəzifəsinə xəyanət etməməlidir”

**“Prezident İlham Əliyev dəfələrlə yeni vəzifə təyinatları və Azərbaycan xalqına müraciətləri zamanı bu məsələyə münasibət bildirib. Dövlət məmurlarına ciddi xəbərdarlıqlar edib. Bəzi məmurlar nəticə çıxarıb, bəziləri isə çıxarmayıb və nəticədə cəzalandırılıblar”. Bunu SİA-ya millət vəkili Ceyhun Məmmədov deyib.**



Deputatın sözlərinə görə, yüksək etimad göstərilən hər bir dövlət məmuru məsuliyyətini dərk etməli, vəzifəsindən irəli gələn öhdəlikləri vicdanla və ləyaqətlə yerinə yetirməli, vətəndaşlarla daimi əlaqədə olmalı, onların problemlərinə həssas yanaşmalıdır: “Vəzifə insana verilən əmanətdir. Hər bir məmur çalışıb etimadı doğrultmalı, vəzifəsinə xəyanət etməməlidir. Düşmən üzərində şanlı qələbəmizdən sonra bölgədə yeni siyasi və iqtisadi reallıq yaranıb. Dövlətimiz yeni bir mərhələyə qədəm qoyub. Qarşıda bizi böyük quruculuq işləri gözləyir. Qarabağı dirçəltmək, dünyanın ən abad və gözəl şəhərlərindən birinə çevirmək. Artıq bu stiqamətdə ciddi işlərə başlanılıb. Bu prosesdə aktiv iştirak etmək hər birimizin müqəddəs vəzifəsidir. Ancaq, bu prosesdə düşünmədən, ciddi müzakirələr aparmadan, koordinasiyasız hərəkət etmək gələcəkdə müəyyən problemlər yarada bilər.

Şuşa cənab Prezidentin qeyd etdiyi kimi, bizim mədəniyyət paytaxtımızdır. Burada yalnız fəaliyyəti zəruri olan qurumların bölgə idarələri və şöbələri yaradıla bilər. Bölgəyə aidiyyatı və burada fəaliyyəti olmayan qurumların burada bina tikməsinə, qurumlar yaratmasına və bina tikməsinə nə ehtiyac var? Hər birimiz bura fərqli yanaşma nümayiş etdirməliyik. Təəssüf ki, ermənilər buranı dağıdaraq viran qoydular, Azərbaycanın izlərini itirməyə çalışdılar. Azərbaycan tez bir zamanda Qafqazın incisi olan Şuşanı bərpa edərək buranı gözəl bir diyara çevirəcək. Buna güclü siyasi iradə və iqtisadi potensial var”.

***Ceyhun Rasimoğlu***

# Bax, budur yer eləyən... ermənilərə

**Ötən gün "İttifaq" (Alyans) partiyasının lideri, Ermənistanda baş nazir postuna namizədlərdən biri Tiqran Urixanyanın erməni jurnalistlər üçün keçirdiyi mətbuat konfransındakı açıqlamaları bir çox ermənilər tərəfindən birmənalı qarşılanmayıb. SİA bunu erməni mətbuatına istinadən yazır.**



"Bəli, Urixanyanın Nikolun getməsi barədə fikirləri ilə razılaşmaq olar. Amma onun "Ermənistanda Rusiya ilə birlik dövlətinin qurulması barədə danışıqlara başlayacaq yeni bir hökumət qurmaq" barədə dedikləri ilə heç cür barışmaq olmaz. Necə olur, Gömrük İttifaqında bizimlə "müttəfiq" olan Rusiya qazın qiymətində bizə heç bir güzəşt etmir. Bizim bazarlardan geninə-boluna yararlanan ruslar bizi öz bazarlarına buraxmır.

Bu gün Avrasiya İqtisadi Birliyi bizim üçün kifayət deyil, belə ki, onun səmərəsizliyi göz qabağındadır. Ermənistan vətəndaşlarını Azərbaycan mərmiləri ilə öldürülməsinə müdaxilə etməyən KTMT bizim üçün kifayət deyil. Ona görə də, bizə daha da yüksək dərəcədə inteqrasiya lazımdır". Bu fikirləri erməni saytları yazır.

Tiqran Urixanyanı yanlışlıqda ittiham edən, sayt, hər ay yoxsulluğa doğru yuvarlanan bir dövlət olan Rusiya ilə iqtisadi tərəfdaşlığın necə faydalı ola biləcəyi hələ də anlamadığını bildirir. Sayt yazır ki, Federal Dövlət Statistika Xidmətinin məlumatlarına görə, 2020-ci ilin sonunda Rusiya vətəndaşlarının real əlverişli gəliri 3,5 faiz azalıb. Bu da 19,6 milyondan artıq rusun yoxsulluq həddində yaşamasına gətirib çıxarıb. Bu gün özünü dolandırmaqda çətinlik çəkən bir ölkənin, yəni Rusiyanın Ermənistan iqtisadiyyatına sərmayə qoyacağı və ya qoya biləcəyini Urixanyan düşünürmü? Təbii ki, bu sualı da partiya liderinə sayt ünvanlayıb.

"Bu gün Rusiyaya işləmək üçün gedən 100 minlərlə erməni əmək miqrantını pandemiya adı altında sərhədləri bağlayıb geri qaytardılar. Amma belə bir problem Belarusla yaşanmadı. Axı, onlar da bizimlə eyni ittifaqda olan dövlətdi, amma belə problemi ruslar onlara yox, bizə yaşatdılar".

Təbii ki, ermənilərin dərdi bəllidir. Belə görünür ki, ikili masada oturmağa adət edən bu dövlət və onun rəsmi səlahiyyətliləri yenə də yeni isti qanad altı axtarışına çıxıblar. Bundan əlavə, onlar Rusiyanın Türkiyə və Azərbaycanla yaxınlaşmasını heç cür həzm edə bilmirlər.

"...Beləliklə, dünən Rusiya Federasiyası Təhlükəsizlik Şurası Başçısının müavini Dmitri Medvedev, Türkiyənin Qarabağ münaqişəsindəki rolunu şərh edərək, Türkiyənin Rusiya üçün çox vacib bir tərəfdaş olduğunu qeyd etdi".

Bax, budur ermənilərə yer eləyən...

***Ağasəf Babayev***

# Bakcell "Qarabağ Dirçəliş Fondu"na 1.4 milyon manat ianə edib

**Bakcell şirkəti "Qarabağ Dirçəliş Fondu"na 1.4 milyon manat məbləğində vəsait köçürüb. Bakcell şirkətinin daxil olduğu "NEQSOL Holding"in tərkibində olan şirkətlər tərəfindən bu fonda ümumilikdə ianə edilmiş məbləğ 2 milyon AZN təşkil edib.**

Qeyd edək ki, "Qarabağ Dirçəliş Fondu" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 4 yanvar 2021-ci il tarixli fərmanı ilə yaradıldı. Fərmana əsasən, "Qarabağ Dirçəliş Fondu" Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və yenidən qurulması, habelə dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyi göstərilməsini və sərmayələrin cəlb edilməsini, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişafını təmin edən, eləcə də ölkə daxilində və ölkə xaricində zəruri təşviqat işlərini həyata keçirən publik hüquqi şəxsdir.

Xatırladaq ki, Bakcell şirkəti Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi uğrunda yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə "YAŞAT" Fonduna, Silahlı Qüvvələrə Yardım Fonduna, daha əvvəl isə "COVİD-19" ilə mübarizə çərçivəsində Koronavirusla Mübarizəyə Dəstək Fonduna ianələr edib.

Bakcell özünün Korporativ Sosial Məsuliyyət proqramı çərçivəsində müxtəlif sosial və digər təşəbbüslər vasitəsilə Azərbaycan vətəndaşlarına, xüsusilə də həssas əhali qruplarına dəstək göstərməyə davam edəcək.

# Azərbaycan: Enerji və Nəqliyyat Mərkəzindən Rəqəmsal Mərkəzə doğru



**Bəşəriyyət artıq yeni bir dövrə - Dördüncü Sənaye İnqilabı dövrünə (Sənaye 4.0) qədəm qoyub. Sənaye 4.0 qarşımızda yeni üfüqlər açan tam yeni bir inkişaf mərhələsidir. Sənaye 4.0-ün mahiyyəti odur ki, artıq hər birimizin maddi dünyası virtual dünya ilə əlaqəlidir və biz kiber-fiziki sistemlər, robotlaşma, ağıllı şəhər və müəssisələrin yaradılmasının, 5-ci nəsil mobil rabitənin, əşyaların interneti və s. yaradılmasının şahidi oluruq.**

Dünya birliyinin ayrılmaz hissəsi və iqtisadi inkişafına görə Cənubi Qafqazda lider ölkə olan Azərbaycan da dördüncü sənaye inqilabına qədəm qoyur. Ötən illər ərzində Azərbaycan təkcə bölgə üçün deyil, bütün Avrasiya regionu üçün böyük əhəmiyyətə malik bir ölkəyə çevrilib. Avropa ilə Asiyanın qovşağında, tarixi İpək Yolunun üzərində yerləşən ölkəmiz böyük Asiya ölkələri olan Çin və Hindistan ilə Avropa İttifaqı ölkələri arasında körpü, habelə Rusiyanı Yaxın Şərq, Cənubi Asiya ilə birləşdirən vacib bir ölkədir.

Bu gün Sənaye 4.0 dövründə Azərbaycan öz əlverişli mövqeyindən fəal şəkildə istifadə edərək böyük regional və transmilli layihələr həyata keçirir. Təbii ki, bu layihələr sırasında ilk növbədə Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan Bakı-Tbilisi-Ceyhan neft kəməri, Cənub Qaz Dəhlizi, həmçinin ölkəmizin dünya ticarətində fəal iştirak etməsini təmin edən Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizləri yer alır. Eyni zamanda, Əfqanıstandan Türkiyəyə və Avropaya uzanan "Lapis Lazuli" marşrutunu da qeyd etmək lazımdır.

Həyata keçirilən məqsədyönlü siyasətin ayrılmaz hissəsi olaraq son illərdə ölkənin müxtəlif bölgələrində yeni infrastruktur layihələrinin icrası, yeni avtomobil və dəmir yolların tikintisi, həmçinin regional layihələrin həyata keçirilməsində ölkəmizin oynadığı aparıcı rol bir tərəfdən daxili nəqliyyat infrastrukturunun inkişafına töhfə verir, digər tərəfdən isə Azərbaycanı Avrasiyanın nəqliyyat mərkəzinə çevirir.

Vətən müharibəsində qazanılan qələbə və bundan sonra Moskvada Azərbaycan və Rusiya prezidentləri İlham Əliyev və Vladimir Putin, habelə Ermənistanın Baş naziri Nikol Paşinyan tərəfindən imzalanmış və Azərbaycanla Ermənistan arasındakı nəqliyyat kommunikasiyalarının bərpası üçün üçtərəfli işçi qrupun yaradılmasını nəzərdə tutan bəyanat Azərbaycanı regional mərkəz olaraq yeni bir mərhələyə çıxarır. Ermənistan ərazisindən keçən nəqliyyat dəhlizi əvvəllər qət olunan məsafəni əhəmiyyətli dərəcədə azaldır, həmçinin Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizləri üçün alternativ bir qol yaradır.

Yuxarıda deyilənlər Azərbaycanın yaxın gələcəkdə rəqəmsal inkişafına və bölgənin rəqəmsal mərkəzinə çevrilməsinə də imkan verir. Bu gün Azərbaycanın özünün əlverişli coğrafi mövqeyinə, enerji və nəqliyyat mərkəzləri kimi statusuna və potensialına güvənərək yaxın regionlar üçün həmçinin Regional Rəqəmsal Mərkəzə çevrilmək imkanı vardır.

Hazırda dünyada gedən intensiv rəqəmsallaşma fonunda ölkəmizdə iqtisadiyyatın rəqəmsallaşması və rəqəmsal iqtisadiyyatın qurulması yalnız xoş bir perspektiv deyil, həm də dünyanı bürüyən COVID-19 pandemiyası zamanı daha aydın görünən bir zərurətdir. Belə ki, sərt karantin dövründə rəqəmsal xidmətlərə olan tələbat sürətlə artıb, bağlantı xidmətləri hər zaman olduğundan daha aktual əhəmiyyət kəsb edib, ictimai həyatın demək olar ki, bütün sahələri onlayn rejimə keçib və bu rəqəmsal transformasiya bu gün də davam edir. Lakin hazırda bu xidmətlərin təkcə əhatə dairəsinin genişlənməsinə deyil, həm də yüksək keyfiyyətinə nail olmaq və bu istiqamətdə Dövlət-Özəl Sektor Əməkdaşlığı (DÖST) modelini tətbiq etmək lazımdır.

Bu gün dünyada pandemiya ilə mübarizə fonunda baş verən dəyişikliklər Azərbaycanın qarşısında müasir çağırışlara cavab vermək və iqtisadi inkişafda yeni üfüqlər açmaq kimi öhdəliklər qoyur. İnkişaf etmiş ölkələrdə olduğu kimi, iqtisadiyyatın rəqəmsallaşdırılması, rəqəmsal iqtisadiyyatın qurulması və yeniliklərin tətbiqi məsələləri ölkəmiz üçün prioritetdir. Ölkənin əlverişli coğrafi mövqeyi və təbii sərvətləri, insan potensialı, habelə son illərdə Prezident İlham Əliyevin qəbul etdiyi dövlət proqramları, fərman və sərəncamlar bunun üçün bütün imkanları yaradır.

Rəqəmsallaşma və ölkədə dayanıqlı rəqəmsal infrastruktur quruculuğu istiqamətində atılan ən vacib addımlardan biri də ölkəni qlobal internet şəbəkəsinə bağlayan "AzerTelecom" şirkəti tərəfindən həyata keçirilən "Azerbaijan Digital Hub" proqramıdır. Proqramın əsas məqsədi daxili telekommunikasiya infrastrukturunu dünyada inkişaf etmiş iqtisadiyyata malik ölkələrin standartlarına uyğun modernləşdirmək, habelə Azərbaycanın digər ölkələrdən internetlə bağlı asılılığını aradan qaldırmaq, Avropa ilə Asiya arasında Azərbaycan vasitəsilə tarixi İpək Yolunun üzərində "Rəqəmsal İpək Yolu" (Digital Silk Way) qurmaqdır. Uzunmüddətli perspektivdə proqram çərçivəsində həyata keçiriləcək layihələr Azərbaycanın bölgədə əsas İnternet təchizatçısı, İnternet Mübadilə Mərkəzi olmasına imkan verəcək və ölkəni rəqəmsal xidmətlərin idxalçısından ixracatçısına çevirəcək.

AzerTelecom | Azerbaijan Digital Hub

Proqramın birinci mərhələsi çərçivəsində şirkət ölkədə və xaricdə dayanıqlı magistral infrastrukturu qurulması üzrə layihələr həyata keçirir. Hal-hazırda Xəzər dənizinin dibi ilə Azərbaycan - Qazaxıstan və Azərbaycan - Türkmənistan marşrutları boyunca fiber-optik kabel xətlərinin çəkilməsi layihələrinə başlanılıb. Bu marşrutlar boyunca kabel xətlərinin çəkilməsi üçün 19 mart 2019-cu il tarixində Azərbaycan ilə Qazaxıstan, 28 noyabrda isə Azərbaycan və Türkmənistan arasında dövlətlərarası sazişlər imzalanıb. Bu sazişlərə uyğun olaraq, Xəzər dənizinin dibi ilə 400 km uzunluğunda Azərbaycan-Qazaxıstan marşrutu üzrə kabel xəttinin çəkilişi layihəsi Azərbaycan tərəfdən "AzerTelecom", Qazaxıstan tərəfdən isə "Transtelecom" tərəfindən həyata keçirilir. 2019-cu ilin noyabr ayında Qazaxıstanın Aktau şəhərində hər iki ölkənin baş nazirləri, digər rəsmi şəxsləri, layihəni icra edən şirkətlərin rəhbərlərinin iştirakı ilə Azərbaycan-Qazaxıstan marşrutu layihəsinin təməlqoyma mərasimi keçirilib. Xəzər dənizini dibi ilə digər layihə olan və ümumi uzunluğu 300 km olacaq Azərbaycan-Türkmənistan marşrutu üzrə magistral kabel xəttinin çəkilməsi layihəsi isə "AzerTelecom" və "Turkmentelecom" tərəfindən həyata keçiriləcək. Onu da qeyd edək ki, Qazaxıstan istiqaməti üzrə kabel xətti ən azı 4-6 terabit/saniyə həcmində, Türkmənistan istiqaməti üzrə isə 2-3 terabit/saniyə həcmində məlumatların ötürülməsinə imkan verəcək.

"Azerbaijan Digital Hub" proqramının həyata keçirilməsi Azərbaycanın təkcə Cənubi Qafqazda deyil, həm də Yaxın Şərq, Orta Asiya və Cənubi Asiya üçün regional rəqəmsal xidmətlər mərkəzinə çevrilməsinə imkan verəcək. Yeni internet traffiki mübadiləsi nöqtəsi olaraq, London, Frankfurt, Sofia, İstanbul, Moskva, Amsterdam və Dubay kimi inkişaf etmiş mərkəzlərlə yanaşı, Bakı da bu qlobal siyahısa düşəcək və ölkəmiz ümumilikdə ətraf regionlarda yaşayan 1.8 milyard insanın müxtəlif rəqəmsal xidmətlərə çıxışını yaxşılaşdıracaq. Beləliklə, "Azerbaijan Digital Hub" proqramının həyata keçirilməsi ilə ölkəmizdə və ölkəmizdən kənarda dayanıqlı rəqəmsal infrastruktur formalaşacaq, bu layihələr Sənaye 4.0 kontekstində telekommunikasiya sektorunun davamlı inkişafına, müxtəlif sahələrdə yeniliklərin tətbiqinə, ölkəmizin beynəlxalq reytinqlərdə mövqeyinin yüksəldilməsinə, iqtisadiyyatın inkişafına səbəb olacaq və rəqəmsal transformasiya proseslərinin icrasına kömək edəcək.

Həmçinin "Azerbaijan Digital Hub" proqramı Azərbaycanın artıq əldə etdiyi enerji və nəqliyyat habı kimi statuslarına əlavə olaraq hazırda qədəm qoyduğumuz yeni onillikdə ölkəmizin dünyada yeni prizmadan - rəqəmsal mərkəz prizmasından qlobal mövqelərdirilməsinə, ölkəmizin Avrasiyanın Rəqəmsal Liderlərindən birinə çevrilməsinə imkan verəcək.

***Əlimərdan Sultanov***

# Dünya silah bazarında nə baş verir? - Hərbi ekspert izah etdi

## İqor Korotçenko: Türkiyəyə qarşı ABŞ-ın "qolbükmə" taktikasını davam etdirəcəyini düşünürəm, ancaq Ərdoğan konyunkturadan asılı olmayaraq 2-ci bir S-400 alay dəsti alacağını söylədi

***Müasir silah bazarı və Rusiyanın buradakı yeri necədir? ABŞ, təhlükəsizlik məsələlərində belə, mallarını başqa ölkələrə tətbiq etməyə çalışır. Əlbəttə ki, zəif ölkələr şantaja məruz qoyulur, lakin bəzən səssizcə Rusiya ilə əməkdaşlığa davam edirlər. Və daha güclü olanlar onsuz da Amerikanın təzyiqlərinə baxmayaraq təhlükəsizliyi barədə açıq şəkildə narahatdırlar. Türkiyə S-400-lər alır. Hindistanla əməkdaşlıqda ABŞ özü maraqlıdırlar. Çin özü bütün bazarlarda ABŞ-ı geri sıxışdırır. Hərbi ekspert, "Milli Müdafiə" jurnalının baş redaktoru İqor Korotçenko bu məsələləri Pravda.Ruya müsahibəsində şərh edib.***

*(Əvvəli burada)*

https://sia.az/az/news/politics/850435.html

***- İqor, dediniz ki, Amerika Birləşmiş Ştatlarının düşmənlərinə qarşı qanun hər hansı bir ölkəyə, hətta NATO üzvlərinə qarşı eyni dərəcədə işləyir. Buna görə daha zəif olan bəzi ölkələr ölkəmizlə aktiv hərbi-texniki əməkdaşlıqdan imtina edirlər. Ancaq yenə də, göründüyü kimi, sakit bir şəkildə əməkdaşlıq edirlər. Silahı kimə satırıq?***

- Silah müqavilələri həqiqətən sükutu sevir. Cənub-Şərqi Asiyanın bəzi ölkələri indi Rusiya silahlarının alınması üçün bəzi planların elan edilməsi baxımından çox diqqətli davranırlar. Ancaq hər halda, hərbi-texniki əməkdaşlıq sistemimiz yaxşı tənzimlənmişdir. Rosoboroneksport çox səmərəli işləyir. Koronavirus pandemiyası kontekstində belə danışıqlar olub və davam edir.

### HINDISTAN

Hindistan hər il ən böyük həcmdə Rusiya silahı aldığından, hərbi-texniki əməkdaşlıqda bir tərəfdaş olaraq ənənəvi olaraq bizim üçün çox vacibdir. Silah alışı mənbələrini şaxələndirsələr də.

Amerika hərbi məhsullarını tanıtmaqla Hindistan bazarına fəal şəkildə daxil olmaq istəyir. Bu, əlbəttə ki, uzağa hesablanma ilə edilir. Axı Hindistan Çinin hərbi düşmənidir, Çin isə ABŞ-ın düşmənidir. Burada prinsip işləyir: düşmənimin düşməni mənim dostumdur.

Bu səbəbdən Hindistan, S-400 ilə bağlı məsələ də daxil olmaqla ABŞ-ın təzyiqindən çəkinə bilər. Hindistan həmişə deyə



bilər: əgər bizə qarşı sanksiya tətbiq etsəniz, müəyyən Amerika silah nümunələri almaqdan imtina edəcəyik, ancaq "təkərlərə yapışmağa" çalışmasanız, bonus olaraq ABŞ silahlarını alacağıq. Amerika burada kifayət qədər təmkinli davranacaq.

Türkiyəyə qarşı ABŞ-ın "qolbükmə" taktikasını davam etdirəcəyini düşünürəm, ancaq Ərdoğan konyunkturadan asılı olmayaraq 2-ci bir S-400 alay dəsti alacağını söylədi.

Yeganə şərt, bəzi fərdi elementlərin, qovşaqların Türkiyənin özündə birləşdirilə bilməsi üçün bir texnologiya transferi istəməsidir.

***- Amerikalılar yəqin ki, heç vaxt texnologiya transferinə getməzdilər.***

- Tamamilə haqlısan. Biz onsuz da Hindistana yalnız yeni aviasiya avadanlığı təklif etmirik. Bu yaxınlarda, yeni versiyalarda onlarla MiQ-29-un və əlavə Su-30 MKI partiyasının- çoxfunksiyalı qırıcıların alınacağı barədə xəbərlər var. Bununla yanaşı, Hindistana 5-ci nəsil döyüş təyyarəsinin yaradılmasında birgə iştirak layihəsi təklif edirik. Beşinci nəsil Su-57 qırıcısının - FQFA-nın 2 yerlik versiyasının hazırlanması planlaşdırılır. Hindistan, heç vaxt heç kimə təmin etmədiklərimiz də daxil olmaqla tam bir texnologiya transferi alır.

### HINDISTANIN MILLI XÜSUSIYYƏTLƏRI

Ancaq Hindistan hərbi-texniki əməkdaşlığının bir xüsusiyyəti var - bir çox qərarlar olduqca yavaş qəbul edilir. Digər tərəfdən, S-400 ilə bağlı danışıqlar da uzun müddət davam etdi və sonra birdən müqavilə imzalandı. Rusiya-Hindistan Su-57-si üçün yaxın gələcəkdə bu layihənin qəbul edildiyi və həyata keçiriləcəyi mesajını görə bilərik.

Hər halda, Hindistan bizim üçün ən vacib tərəfdaşdır. Amerikalılar bizimlə Hindistan arasındakı uzunmüddətli əlaqələri poza bilməyəcəklər. Üstəlik, Hindistanın böyük hərbi ambisiyaları var. İki real hərbi rəqibi var- Pakistan və Çin, buna görə yenidən silahlanacaq.

Hindistan iqtisadiyyatı yaxşı işləyir, büdcədə pul var, onu müdafiəyə xərcləyəcəklər, buna görə də Rusiya Hindistan silah bazarının bir hissəsini hər cür vasitə ilə saxlamalıdır, o cümlədən Hindistan silahlı qüvvələri üçün tamamilə yeni prioritet proqramların həyata keçirilməsi.

***- Barak Obama vaxtilə Rusiyanı "yanacaqdoldurma stansiyası" adlandırdı, ancaq daha çox bizim ölkəmizdən danışdı. Bu "yanacaqdoldurma məntəqəsi", onun fikrincə, bütün dünyada və Amerikanın özündə onun üçün hər şeyi korladı. S-400 və 5-ci nəsil qırıcıdan danışdınız. Başqa hansı silahları hazırlamaqda və xaricdə satmaqda bacarıqlıyıq?***

- Hələ də dünyanın 2-ci ən böyük silah ixracatçısıyıq. Kalaşnikov avtomatından tutmuş bütün siniflərin müasir sualtı qayıqlarına, aviasiya və hava hücumundan müdafiə sistemlərinə qədər hər növ silah-texnika satırıq.

***- Çinə çoxmu silah satırıq?***

- Çin bizdən son müqavilələrə əsasən 1 komplekt Su-35 qırıcısı və 1 komplekt S-400 aldı. Üstəlik, təyyarə mühərriklərini bizdən alır, çünki əvvəllər böyük bir qırıcı komplekti almışdılar. Üstəlik, bunları lisenziyaya əsasən özləri də istehsal etdilər. Bir sıra Çin təyyarələri Rusiya təyyarə mühərriklərindən istifadə edir.

Çinə olduqca çox şey satırıq, baxmayaraq ki satış sürəti azalır, çünki Su-35 üçün böyük bir müqavilə başa çatıb və S-400 üçün müqavilə son mərhələdədir.

### ÇİN HƏLƏ DƏ "KOPYALAYIR"

Çin indi hərbi sənayesini fəal şəkildə inkişaf etdirir. Çin hərbi məhsulları ilə qarşılaşırıq, bir sıra böyük dünya bölgələrində rəqiblərimiz olurlar. Çin bu sahədə güclənir. Bu günki silah sistemimiz hər cəhətdən Çininkindən daha güclü olsa da.

Çinin texniki kəşfiyyat metodunu istifadə edərək klonlaşdırdığı, məlumat və ya sənəd aldığı və çox kütləvi şəkildə kopyaladığı hərbi texnologiylar yenə də bizimkindən zəifdir.

(Davamı olacaq)

***Müsahibə aldı:** İnna Novikova*
***Tərcümə etdi:** Elçin Bayramlı*



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

## Qarabağ üzərindən ucuz reklam

AXCP sədri Əli Kərimlinin daxilindəki xəbis düşüncələri hələ Vətən müharibəsi adlandırdığımız ikinci Qarabağ savaşının ilk günlərində bəlli olmuşdu. Onun ölkədə fəaliyyət göstərən çoxsaylı siyasi partiyaların dövlətçiliyimizin və ərazi bütövlüyümüzün dəstəyini əks etdirən birgə bəyanatına imza atmaması göstərdi ki, əslində onun "siyasi müxalifətçiliyi" yalnız hakimiyyətə qarşı deyil, həm də dövlətə qarşıdır. Yəni bu faktın özü cəbhəbaşının illər boyu hansı məqsədlərə xidmət etdiyini, kimlərə və hansı şərtlərin müqabilində nökərçilik göstərməsinin danılmaz sübutudur. Biz illərdir ki, bu barədə yazırıq və belə görünür ki, yazmaqda da davam edəcəyik. Düzdür, bir çoxları bizə irad tuturlar ki, axı mövcud olmayan "ana müxalifət" partiyası haqqında, onun "lideri" haqqında nəyə görə bu qədər çox yazırsınız? Niyə onları gecə-gündüz reklam edirsiniz? Bəlkə də bu iradlar haqlıdır, hətta haqlıdan da haqlıdır. Lakin tənqid olmayan yerdə inkişaf da olmaz, əlbəttə ki, tənqidi anlayan üçün, nəticə çıxaran üçün. Deməli, "cənab" cəbhəbaşı da tənqidlərdən nəticə çıxarana qədər onun çatışmayan, necə deyərlər, cızığından çıxan "siyasətini" hədəfə almaqda davam edəcəyik.

Sosial məsələləri anladıq. Deyək ki, dövlətin diqqət mərkəzində olan və zaman-zaman həll edilən problemlər barədə danışdı, klaviatuta arxasına keçib yazıb-pozdu, partiya sədri olduğunu unudaraq, bloger qismində fəaliyyətini davam etdirdi. Bəs dövlətin maraqlarına qarşı fikirləri haradan qaynaqlanır? Elə götürək Qarabağ münaqişəsində Azərbaycan dövlətinin qazandığı qalibiyyətini. Bütün dünya car çəkir ki, Azərbaycan özünün güclü və ən müasir hərb sistemi, iqtisadiyyatı və uğurlu diplomatiyası ilə qarşısına çıxan bütün maneələri aşdı, halalca qalibiyyətini qazandı, ədaləti bərpa etdi. Əli Kərimli isə hazırda iki ayağını dirəyib bir başmağa ki, bəs bu tam qalibiyyət deyil-filan? Nəyə əsaslanıb deyir bunları? Hansı faktları ortaya qoya bilər ki, Azərbaycan Vətən müharibəsində tam qələbə əldə etməyib? Hazırda proses davam edir və çox qısa dövr ərzində Xankəndi də daxil olmaqla rusiyalı sülhməramlıların nəzarəti altında olan digər ərazilərimiz də birbaşa ölkəmizin yuridiksiyası altına keçəcək. Separatçıların kiçik bir ərazilərimizdə qalan əski parçaları, qaregin nejdelərinin heykəlləri, terrorçularının plakatları, daha nə bilim hansı zir-zibilləri yığışdırılacaq. Məsələn, biz, şəxsən mənim özüm buna 1000% inanıram və birmənalı qaydada bilirəm ki, 44 günə düşmənin başını əzən Azərbaycan dövləti yerdə qalan qısa dövrdə xalqı narahat edən bəzi cəhətləri də həll edəcək. Vətənini sevən, dövlətinə bağlı olan kəs buna inanır və Müzəffər Sərkərdəsinin siyasətinin buna doğru inkişaf etdiyini də anlayır!

### AXCP sədri və onun orda-burdakı bir qrup yığnağı isə qəsdən (!), bəli-bəli, heç də yanılmadınız, məhz qəsdən (!!!) dövlətin, xalqın, Ordunun qazandığı qələbəsinə kölgə salmağa hər vəchlə cəhd göstərir. Halbuki...

Halbuki, bu gün Ermənistandakı vəziyyət göz önündədir, işğalçılıq siyasətləri məhv edilən erməni hərbi-siyasi dairələri, xaricdəki erməni lobbisi bar-bar bağırırlar ki, Qarabağ itirilib, artıq bu reallıq göz önündədir və s. və i. Əli Kərimli isə deyir ki, yoooxxx, nə danışırsınız, Azərbaycan tam qələbə-filan qazanmayıb! Qısacası, uzun illər çörəkverən erməni aşnalarına ürək-dirək verir ki, darıxmayın, sizə xidmətimi, nökərçiliyimi davam etdirməklə istədiyiniz satqınçılığı edəcəyəm, təki mənim pullarımı göndərin. Əgər belə deyilsə, AXCP sədri vaxtilə oğlu Türkeli BMT-nin iclaslarının birinə göndərib, "dqr"in sabiq "prezidenti" Bako Saakyanın oğlu ilə yanaşı otuzdurub, anti-Azərbaycan dinləmələrində əleyhimizə çıxan qərarlara əl çaldırmazdı! Əgər belə olmasa idi, Nikol Paşinyanın "məxməri inqilabından" vəcdə gələrək, Azərbaycandakı ictimai-siyasi sabitliyi pozmaq üçün onun işlədiyi Soros fondu ilə əlaqələr qurub, Nikolu da özünə kumir seçməzdi! Əgər belə olmasa idi, bütövlükdə Ermənistanın xeyrinə çıxışlar edib, hətta 2016-cı ildə qazanılan Aprel zəfərini hədəfə almazdı və bununla da erməni KİV-lərinin manşetlərini bəzəməzdi!

Keçək digər məsələyə. Bu həmin Əli Kərimlidir ki, birillik hakimiyyətləri zamanı Qarabağımızın, Şuşamızın və s. rayonlarımızın gizli sövdələşmələr bahasına satan iqtidarın dövlət katibi vəzifəsini daşıyıb. O və bütövlükdə Elçibəy komandası Bakıda Qarabağ alveri ilə məşğul olarkən o torpaqlarda Vətən oğulları canlarını fəda edirdilər, qanlarını axıdırdılar, şəhidlik zirvəsinə yüksəlirdilər. Məhz qanlar bahasına Qarabağımızı pula-paraya sata-sata. Özü də hakimiyyətə də hay-harayla, Qarabağımızın müdafiəyə ehtiyacı olan zamanlarda gəldilər, gəlmələri ilə torpaqlarımızın itirilməsinə səbəbkar oldular. İndi Əli Kərimli dönüb-olub "torpaqsevər" və ya nə isəsevər. Qarabağımız 29 il əvvəl məhz onların hakimiyyət hərisliyinin qurbanına çevrildi. Məhz Şuşa şəhərinin, ardından isə Laçın rayonunun ermənilər tərəfindən işğal olunmasına şərait yaradan Elçibəy hakimiyyəti bundan sui-istifadə edərək silahlı çevriliş nəticəsində hakimiyyəti qəsb etdi. Xəyanət, məğlubiyyətə sürükləmək bax, budur Əli Kərimli!

### Müzəffər Sərkərdəmizin də vurğuladığı kimi, Şuşanın 1992-ci il mayın 8-də itirilməsi böyük faciə idi. Bu faciənin günahkarları AXC-Müsavat hakimiyyətidir!

İndi həmin bu Əli Kərimli Qarabağ qələbəsi üzərində mənfi rəy yaratmağa hesablanmış manipulyasiyaları ilə özünü cəbhəbaşı qismində reklam edir. Fəqət, bu ucuz reklamın onun üçün baha başa gələcəyini də unutmamalıdır. Çünki söhbət dövlət maraqlarına gələndə hər şey başqa cür olur və demokratiya-filan kimi hay-şivənlər də burada yararsızlığa çevrilir. Bax, bunu mütləq unutmasın və sırğa edərək, assın o "gözəl" qulaqlarından...

# Qarabağın bərpası necə həyata keçiriləcək?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb*

## Prezident İlham Əliyev: "Azərbaycan vətəndaşlarına da deyirəm, bərpa ilə bağlı görüləcək işlərdə mütləq ictimai nəzarət olmalıdır"

Qarabağın azad edilməsi həmin bölgədə yenidənqurma və bərpa işlərini sürətləndirməyi tələb edir. Belə ki, hökumət mümkün qədər qısa müddətdə bu rayonlarda-şəhər, qəsəbə və kəndlərdə yaşayış evlərini, kommunal infrastrukturu bərpa etməli, oradan köçkün düşmüş əhalini yenidən həmin ərazidə məskunlaşdırmalıdır. Bunun üçün təhsil və səhiyyə müəssisələri, dövlət idarələri tikilməlidir. Bundan başqa, həmin bölgədə müəssisələr, zavod və fabriklər açılmalıdır ki, insanlar işlə və zəruri məhsullarla rahat təmin oluna bilsinlər. Lakin bu vəziyyətdən istifadə edərək, Qarabağın gözəl guşələrində öz məqsədləri üçün yer almaq, orada biznes qurmaq, ən mənzərəli yerlərdə öz idarəsini tikərək oradan istifadə etmək istəyində olanlar da var. Azərbaycan Prezidenti İlham Əliyev AzTV-yə müsahibəsində bu məsələlərə toxunaraq belə məmurları sərt tənqid edib. Xüsusən də, Şuşa şəhəri ilə bağlı.

Ölkə başçısı bəyan etmişdi ki, Şuşa mədəniyyət mərkəzinə, açıq muzeyə çevriləcək. Lakin göründüyü kimi, bəzi iri ranqlı məmurlar başqa fikirdə imişlər. Prezident öz müsahibəsində onlara ciddi xəbərdarlıq edib və bu məsələlərə birdəfəlik nöqtə qoyub: "Mən Şuşanı mədəniyyət paytaxtı elan etmişəm, məmurlar paytaxtı elan etməmişəm! Ona görə hər kəs otursun yerində, öz işi ilə məşğul olsun, məni də əsəbləşdirməsin. Şuşanın ərazisinin ölçüsü 300 hektardır. Mən qoymamışam ki, bir dənə daş daş üstə qoyulsun. Çünki birinci təhlil aparmalıyıq. Ondan sonra o tarixi binaları bərpa etməliyik, necə bərpa etməliyik, bunu mən də deyə bilmərəm, mütəxəssislər deməlidir, biz indi cəlb etmişik".

Bu işlərlə indi artıq müxtəlif yerli və xarici şirkətlərin məşğul olduğunu diqqətə çatdıran dövlətimizin başçısı deyib: "Şuşada biz ancaq və ancaq tarixi binaları bərpa etməliyik, mən belə hesab edirəm. Ondan sonra "xruşşovkalar"la bağlı, - indi qabaqlamaq istəmirəm, - mənim fikrim var ki, onların bir çoxu oradan yığışdırılmalıdır. Onların yerində yəqin ki, müasir 4-5 mərtəbəli yaşayış binaları tikilməlidir. Ancaq bununla bağlı mən, sadəcə olaraq, öz fikirlərimi bölüşürəm. Amma necə olacaq, onu mütəxəssislər, memarlar, tarixçilər, şuşalılar özləri deyəcəklər ki, bu şəhəri necə görmək istəyirlər, çünki bu, onların şəhəridir. Yoxsa, bütün bunlar, bu işlər kənarda qala-qala biri durur ki, mən filial açıram, biri deyir ki, mən zastava açıram, biri deyir ki, mən fövqəladə hallar açıram. Vallah, adam söz tapmır. Mən söz tapmışam, onlara elə söz demişəm ki, onlar o sözü unutmayacaqlar. Azərbaycan vətəndaşlarına da deyirəm, bərpa ilə bağlı görüləcək işlərdə mütləq ictimai nəzarət olmalıdır. Olmasa bilin ki, yenə də eybəcər binalar tikiləcək, torpaqlar zəbt ediləcək, hərə özü üçün bir obyekt tikəcək".

İlham Əliyev deyib ki, Şuşa nəinki Azərbaycanın, bölgənin, bəlkə də dünyanın mədəniyyət paytaxtlarından birinə çevriləcəkdir: "Şuşada çox zəngin mədəni həyat olmalıdır. Şuşada yaşayacaq soydaşlarımız da, bütün işlər görüləndən sonra oraya qayıtmalıdırlar. Şuşa demək olar ki, dağılıb, bütün binalar dağılıb. Bir keçmiş raykom binası qalıb, harada ki, mənfur xunta özü üçün yuva salmışdı, bir də xunta başçısının villası və biri də cinayətkar, rüşvətxor erməni məmurunun villası. Orada başqa bina yoxdur. Bir də "xruşşovkalar", hansılar ki, çoxdan öz ömrünü bitirib, orada da 2 min erməni yaşayırdı. İndi Mərkəzi Bank insanlara xidmət göstərib ki, orada filial açsın? Kimin üçün filial açacaq? Özü üçün ki, gedib orada otursun, yaxud da gedəndə bunun bir iqamətgahı olsun, şəraiti olsun, oraya pullar xərclənsin və bunun insanlara hansı xeyri dəyəcək? Heç bir. Təkcə bu, deyil. Digər qurumlar da, indi mənə müraciət etmişlər. Onların hər halda ağlı çatıb mənə müraciət etməyə və mən onlara dedim ki, gedin oturun yerinizdə", - deyə dövlətimizin başçısı qeyd edib.

Prezident onların adlarını sadalayıb: "Azəravtoyol". Onun rəhbəri mənə müraciət edib ki, icazə verin, Şuşada "Azəravtoyol"un regional mərkəzini açaq. Nə üçün? Yol çəkmək lazımdır, get, yol çək. Heç kim öz hesabına yol çəkmir, dövlət büdcə ayırır. Şuşada "Azəravtoyol"un regional mərkəzinin nə işi var? İstəyir ki, özü üçün şərait yaratsın, getsin o torpağı zəbt etsin, özü üçün iqamətgah tikdirsin, onu hasara alsın, bir qarovulçu qoysun və bəli, oraya gedəndə otursun orada necə deyərlər, təbiəti seyr etsin. AZAL. Onun da rəhbəri mənə müraciət etmişdir ki, AZAL-ın hansısa qurumunu Şuşada yaratmaq istəyirlər. Bu, prinsipcə absurddur. Ona da lazımi sözləri demişəm ki, get otur yerində. Ondan sonra Dövlət Gömrük Komitəsi Şuşada Qarabağ Regional Mərkəzinin yaradılması ilə bağlı müraciət edib. Şuşada sərhəd var ki, gömrüyün regional mərkəzi olsun?

Bilirsiniz, bu adamların beyninə belə ziyanlı fikirlər gəlir və onlar da bunu tələffüz edirlər. Siyahı davam edir hələ. Fövqəladə Hallar Nazirliyi. Nazir mənə müraciət edib ki, icazə verin, orada biz Fövqəladə Hallar Nazirliyinin Qarabağ regional mərkəzini yaradaq, Şuşa şəhərində. Yenə də eyni məqsədlə, yenə də torpaq, hələ ki, orada indi heç kim yoxdur, yenə də hasar, yenə də nə bilim tikanlı məftil, iqamətgah. Dövlət Sərhəd Xidməti. Bu təklifi indi desəm yəqin ki, mənim kimi Azərbaycan xalqı da güləcək. Xidmətin rəisi mənə zəng edib deyir ki, icazə verin, biz sərhəd xidmətinin Şuşa zastavasını da yaradaq. Dedim ki, a kişi, Şuşada sərhəd var? Deyin də mənə Şuşada sərhəd var, yoxsa yox? Deyir yoxdur. Deyirəm bəs, nə zastava yaradırsan? İndi bizim o boyda sərhədimiz yaranıb, ta şimaldan cənuba qədər, Kəlbəcərdən Cəbrayıla qədər, Ermənistanla sərhəd. Cəbrayıl rayonunda İranla sərhəd, get orada yarat da. Şuşada nə işin var sənin?! Yenə də gəlim, oturum, yerləşim, iqamətgah qurum, hamısı da dövlət hesabına, hamısı dövlət hesabına. Burada mənim bir rezidensiyam olsun. Mən bəzən bu şeyləri demirəm vətəndaşlara ki, onları iyrəndirməyim, bağışlayın sözümə görə, ifadəmə görə. Amma mənim də artıq səbrim tükənir və deyirəm ki, vətəndaşlar da bilsinlər, bu məmurlar da bilsinlər. Məmurlar öz yerlərini bilsinlər, öz işləri ilə məşğul olsunlar".

Prezident qeyd edib ki, müvəqqəti idarəetmə strukturu yaradıb. "Nəyə görə? Çünki mən görürəm, bilirəm, artıq gözlər tikilib oraya. İndi oraya elə bil ki, hücum gözlənilir, zəbtetmə hücumu. O torpaq mənim, o torpaq sənin, oranı mənə, buranı sənə. Amma mən bunların hamısını cəzalandıracağam, hamısını, özü də necə lazımdır. Otursun hərə öz yerində öz işi ilə məşğul olsun. Bütün torpaqlar planlı şəkildə bərpa ediləcək. Orada insanlar üçün şərait yaradılacaq, elə şərait ki, dünya üçün nümunə olacaq. Heç bir qanunsuz hərəkət ola bilməz. Heç bir torpaq zəbt oluna bilməz. Hər şey planlı və əsaslı şəkildə olmalıdır. Mən əminəm ki, biz buna nail olacağıq. Biz hamımız istəyirik ki, dağıdılmış şəhərlər tezliklə bərpa edilsin, amma, eyni zamanda, elə olsun ki, bu, oraya qayıdacaq insanların rahatlığını təmin etsin və müasir, güclü Azərbaycanın gücünü bütün dünyaya göstərsin", - deyə dövlətimizin başçısı vurğulayıb.



Göründüyü kimi, dövlət başçısı bütün məsələlərdən xəbərdardırən incə məqamlarına qədər. Həm də Qarabağın bərpası üçün aydın və dəqiq proqrama malikdir. Məhz buna görə dövlət başçısı, özünün dediyi kimi, azad olunan ərazilər üzrə müvəqqəti idarəetmə strukturu yaradıb və bütün işlərə birbaşa nəzarət edəcək.

Şuşanın perspektivinin necə olacağı, digər şəhər və kəndlərin necə bərpa olunacağı, necə məskunlaşdırılacağı, necə sosial-iqtisadi inkişafının təmin ediləcəyi haqda ümumi konsepsiya var. Şuşa təkcə Azərbaycanın deyil, bütün Qafqazın mədəniyyət mərkəzi, açıq muzey şəhəri olacaq. Digər rayonlarda isə plana uyğun şəkildə, smart tipli şəhər və kəndlər yaradılacaq.

Qarabağın Azərbaycan mədəniyyətinin mərkəzi, qədim tarixi məkanı kimi dünyaya tanıdılması üçün xüsusi proqram həyata keçiriləcək. Bunun üçün tarixi abidələrin bərpası, muzeylərin, qalaların, məbədlərin, sarayların rekonstruksiyası işləri görüləcək.

Bu konsepsiyaya uyğun olaraq tədricən, sistemli şəkildə, davamlı olaraq həmin bölgənin bərpası, sosial-iqtisadi infrastrukturu və məskunlaşmasının təmin olunması prosesi, fikrimizcə, 5 ilədək çəkə bilər. Əlbəttə, ilk 1-2 ildə dağıntısız azad edilmiş, salamat qalmış kənd və qəsəbələrdə məskunlaşma prosesi aparılacaq. O ərazidə sadəcə bir qədər infrastruktur və iş yerləri yaratmaq lazım olacaq. Lakin tamamilə dağıdılan rayonların- Kəlbəcərin, Laçının, Ağdamın, Füzulinin, Cəbrayılın, Zəngilanın, Qubadlının məskunlaşması üçün çox böyük işlər görülməli, bu şəhər və kəndlər sıfırdan yenidən yaradılmalıdır. Ermənilərin yaşamasına icazə verilən yerlərdə- Ağdərə, Xocavəndin bir hissəsi (keçmiş Martuni rayonu) və Xankəndidə isə sülh prosesi üzrə tam tənzimləmə prosesindən sonra vaxtilə oralarda yaşamış insanların öz evlərinə qaytarılması mümkün olacaq.

Beləliklə, Qarabağın tam bərpası və sosial-iqtisadi inkişafı üçün çox böyük vəsaitlər, çox böyük enerji və xeyli vaxt tələb olunur. Lakin Azərbaycanın bunun üçün bütün imkanları var. Əsasən də, dövlət başçısı səviyyəsində siyasi iradə var. Demək, qısa müddətdə böyük işlər görüləcək.

Qarabağın bərpası ölkə iqtisadiyyatının da inkişafına təkan verəcək. Aqrar sektor, turizm və yüngül sənaye sahələri inkişaf edəcək. Yüz minlərlə yeni iş yerləri artıracaq. Nəticədə ümumdaxili məhsul və dolayı olaraq dövlət büdcəsinin gəlirləri artacaq. İdxaldan asılılıq azalacaq, ixrac imkanları genişlənəcək. Bütün bunlar son nəticədə ölkədə sosial rifahın artmasına gətirib çıxaracaq.

**Elçin Bayramlı**

Səs

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

3 fevral

QARABAĞ AZƏRBAYCANDIR!

# AFFA daha bir futbolçunu milliləşdirmək istəyir



AFFA Rusiyanın "Ximki" klubunun əslən azərbaycanlı futbolçusu Kamran Əliyevi milliyə cəlb etmək istəyir. Bu barədə qurumun icraçı vitse-prezidenti Elxan Məmmədov məlumat verib. Onun sözlərinə görə, futbolçu ilə Türkiyənin Antalya şəhərində görüş keçirilib. E.Məmmədov bildirib ki, bu məqsədlə Cahangir Həsənzadə və İlqar Qurbanov qonşu ölkəyə ezam olunublar. Hələlik K.Əliyevdən təsdiq cavabı almaq mümkün olmayıb.

# Ozan Kabak rəsmən "Liverpul"da!

**İngiltərənin "Liverpul" futbol klubu heyətini daha bir futbolçu ilə gücləndirib. İngiltərə klubunun rəsmi saytında yer alan məlumatda deyilir ki, İngiltərə çempionu Türkiyə millisinin və Almaniyanın "Şalke" klubunun müdafiəçisi Ozan Kabakı heyətə cəlb edib.**

İyirmi yaşlı mərkəz müdafiəçisi cari mövsümün sonunadək satınalma şərti ilə icarəyə götürülüb. Futbolçu yeni komandasında "19" nömrəli formanı geyinəcək. Qeyd edək ki, O.Kabak "Qalatasaray"ın yetirməsidir. O, Türkiyə yığmasında da 7 oyun keçirib.




# Sabirabadda "VAZ" avtomobili yanıb

Sabirabad rayonunun Moranlı kəndində "VAZ" markalı minik avtomobili yanıb. Fövqəladə Hallar Nazirliyinin mətbuat xidmətinin yaydığı məlumatda deyilir ki, hadisə nəticəsində yanıq xəsarətləri almış iki nəfər təcili və təxirəsalınmaz tibbi yardım briqadası tərəfindən xəstəxanaya aparılıb. Yol kənarındakı kommunikasiya xətləri yanğından mühafizə olunub. Alov yanğından mühafizə bölmələri tərəfindən söndürülüb.



# COVID-19 dişlərin zədələnməsinə və itirilməsinə səbəb olur?



Gözəl və sağlam dişlərə sahib olmaq, kariyeslə erkən yaşda üzləşməmək və diş ərpinin yaranmasının qarşısını almaq üçün gün ərzində dişləri ən azı iki dəfə fırçalamaq lazımdır. Həmçinin bərk və şəkərli qidalardan mümkün qədər az istifadə etmək məsləhətdir. Qəbul edilən qidalara diqqət yetirmək və altı aydan bir dişləri müayinə etdirmək də tövsiyə olunur.

Həkimlər qeyd edirlər ki, ağız sağlamlığını qorumaq üçün üç əsas vasitəyə fikir vermək kifayətdir: diş fırçası, pastası və diş ipi. Diş fırçası ən azı üç-dörd aydan bir dəyişdirilməlidir. Qida qalıqlarının diş dibində qalmaması üçün yeməkdən sonra qarqara etmək də məsləhət görülür. Mütəxəssislərin dediyinə görə, qida və içkilərdəki rəng piqmentləri diş minasındakı məsamələri doldurur və nəticədə dişlər saralmağa başlayır. Ona görə hər dəfə qida qəbulundan sonra ağız boşluğunu yaxalamaq vacibdir.

Respublika Stomatoloji Mərkəzinin həkim-stomatoloqu Fidan Abdullayeva AZƏRTAC-a deyib: "Təəssüf ki, çox vaxt belə bir fikir formalaşdırırlar ki, süd dişlərinə fikir vermək lazım deyil, çünki onlar gec-tez töküləcək və əvəzində daimi dişlər bitəcək və s. Amma bu yanaşma uşaqlar böyüdükcə onların formalaşan daimi dişlərində də özünü göstərir. Dişlərin sıradan çıxması və zədələnməsinin əsas səbəbi onlara düzgün qulluq edilməməsi ilə əlaqədardır. Sübut olunub ki, ağız boşluğunda olan problemlər bütün orqanizmə, ən əsası isə həzm sisteminə təsir edir. Dişlərdə problem yaranması çeynəmə funksiyasına mənfi təsir göstərir". Müsahibimiz bildirir ki, dişlərdə yaranan problemlərə vaxtında müdaxilə edilməsə, daha böyük fəsadlarla üzləşmək mümkündür. Çox vaxt həmin problemlər düzgün qulluq göstərilməməsi zamanı yaranır: "Ən azı gündə iki dəfə-səhər və yatmazdan əvvəl dişlərin fırçalanması məsləhət görülür. Hər dəfə qida qəbulundan sonra diş fırçası vasitəsilə, fırça olmadıqda ağız boşluğunu yaxalamaqla diş ərpi əmələ gəlməsinin qarşısını almaq olar".

Son araşdırmalar göstərir ki, dişlər daha bir təhlükə ilə üz-üzə gəlib. Yeni növ koronavirus (COVID-19) infeksiyası təkcə ağciyərlərə, tənəffüs sisteminə deyil, dişlərə də ziyan vurur. "Ağız boşluğu və diş əti qan-damar sistemi ilə zəngin olduğuna görə COVID-19 birbaşa dişlərin zədələnməsinə, itirilməsinə və diş əti problemlərinə səbəb olur. Bundan başqa, COVID virusu birbaşa ağız boşluğunda olan müəyyən reseptorlara da təsir edir", - deyə həkim-stomatoloq bildirib.

Ağız və diş sağlamlığını qorumaq üçün vitamin və minerallarla zəngin qidalardan istifadə etmək lazımdır. Turş, acı və həddindən artıq şəkərli qidalar dişləri saraldır və ərpin yaranmasına səbəb olur.






# "7 numara"nın aşiqləri real həyatda da evli imiş

**2000-ci illərin ən çox izlənilən seriallarından olan "7 numara" ilə bağlı maraqlı məlumat yayılıb. Milli.Az haberler-ə istinadla bildirir ki, ekran işində bir-birinə aşiq iki nəfərin real həyatda da eşq yaşadıqları məlum olub. Hətta onlar ailəlimiş.**

Söhbət Volkan Girgin və Sedef Pehlivanoğlunun münasibətindən gedir. Onlar ekran işində Recep və Meryem obrazını canlandırıblar. Qeyd edək ki, "7 numara" 2000-2003-cü illərdə Türkiyənin TRT1 kanalında yayımlanıb, 92 seriyadan ibarətdir.

# Kuman: "Suares "Yuventus"a keçsə, daha yaxşı olar"

"Barselona"nın baş məşqçisi Ronald Kuman Luis Suaresin "Atletiko"ya keçməsindən danışıb. Qol.az xəbər verir ki, 57 yaşlı mütəxəssis bunları deyib: "Barselona"ya gələndə bu mövzuda fikirlərimiz olmuşdu və sonda qərar vermişdik. Əlbəttə ki, Suares İspaniya



çempionatında çıxış etdiyi üçün "Atletiko"da yox, "Yuventus"da çıxış etsə daha yaxşı olar. Bunlar son dərəcə çətin qərarlardır. Amma futbolçuların fikirlərinə də hörmət etməliyik. Hələ də verdiyimiz qərarları dəstəkləyirəm". Qeyd edək ki, Madrid təmsilçisi 33 yaşlı hücumçu ilə sentyabr ayında 2 illik müqavilə imzalayıb.

*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600